RƏSMİ DÖVLƏT QƏZETİ

# AZƏRBAYCAN



№ 3 (10023) 8 yanvar 2026-cı il CÜMƏ AXŞAMI

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR

# Xalqa arxalanan, xalqın inandığı



Cənab İlham Əliyev ağdamlılarla yeni görüşünə çox mühüm bir məsələdən söhbət açması ilə başladı:

"İşğal dövründə Ağdam demək olar ki, urbisidə məruz qalmışdır. Yəni şəhər Ermənistan dövləti tərəfindən tamamilə dağıdılmışdır. Bu, Ermənistan dövlətinin məqsədyönlü siyasəti, bizə qarşı olan düşmənçiliyin bariz nümunəsi idi. Məqsəd də tam aydın idi. Birincisi, talançılıq. Çünki bütün binaların daşları bir-bir sökülərək talan edilmişdir, müxtəlif yerlərdə, Ermənistan ərazisində satılmışdır. Digər tərəfdən, Ermənistan dövləti bu bölgələrdə Azərbaycan xalqının tarixi irsini tamamilə silmək istəyirdi. Üçüncü məqsəd isə bu şəhəri elə vəziyyətə salmaq idi ki, artıq burada yaşayış mümkün olmasın, azərbaycanlılar heç vaxt buraya qayıtmaq haqqında düşünməsinlər. Ancaq səhv etdilər. Biz, xalqımız bütün bu əzablı illər ərzində bir amalla yaşamışıq ki, öz doğma dədə-baba torpaqlarımıza qayıdaq və qayıdandan sonra bu torpaqları, bu şəhərləri, kəndləri bərpa edək. Azərbaycan xalqı heç vaxt işğalla barışmamışdır".

Bəli, Azərbaycan xalqı heç zaman ərazi itkisi ilə barışmamışdır!

Bunu dövlət rəhbərlərimiz dəfələrlə ucadan, bütün məclislərdə açıq şəkildə bəyan etmişlər!

Ulu Öndər Heydər Əliyev daim təkrarlayırdı: Biz işğal altındakı bütün torpaqlarımıza qayıdacağıq!

Cənab İlham Əliyev də qətiyyətlə söyləyirdi: Azərbaycan bir qarış torpağını belə kimsəyə güzəştə getməyəcəkdir!

Lakin haylar başqa cür düşünürdülər.

Onlar qondarma "Artsax" və "DQR" yaradaraq özlərinə oyuncaq "prezidentlər", "parlamentlər" seçir, "müstəqil respublika" təəssüratı yaratmağa can atırdılar.

Ancaq heç zaman öz ağızları ilə hürmürdülər.

Daim dünya erməniliyinin pul kisəsindən asılı olan, prezident seçkilərində erməni diasporundan aldıqları səslərə görə ermənilərə borclu qalan dövlət başçılarının dəstəyindən istifadə edərək işğalçı əməllərini davam etdirirdilər.

İşğalın davam etdiyi 30 ilədək bir müddətdə:

- BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması barədə qəbul etdiyi dörd qətnamə havadan asılı qaldı;
- Həmsədr dövlətlər sayılan Rusiya, ABŞ, Fransa Ermənistana daim siyasi və maliyyə dəstəyi göstərdilər, dəfələrlə dəyəri milyardlarla dollar olan pulsuz silah-sursat verdilər;
- Bir dəfə də olsun işğalçıya "özgə torpaqlarından çıx" demədilər, heç bir təsir, təzyiq göstərmədilər, heç bir sanksiya tətbiq etmədilər;
- Separatçı qurumların qeyri-legitim "rəhbər"lərini öz ərazilərində qəbul edərək pulyığma marafonlarının keçirilməsinə şərait yaratdılar;
- Fransa, ABŞ parlamentləri erməni maraqlarının müdafiəsi "mərkəz"lərinə çevrildilər, dəfələrlə orada əleyhimizə qərəzli və ədalətsiz qərarlar qəbul olundu;
- Rusiya Dövlət Dumasının deputatları isə müntəzəm şəkildə Ermənistana, habelə Azərbaycanın razılığı olmadan Qarabağa səfərlər edir, bu səfərlərdə separatçılara siyasi və mənəvi dəstəklər verirdilər.

Maraqlıdır ki, separatizm yuvası olan digər ölkələrdəki separatçı nümayəndələri heç bir ölkəyə gedərək orada rəsmi və ya qeyri-rəsmi görüşlər keçirə bilməzdilər.

3

## Güclü lider güclü dövlət qurur



İlham Əliyev yalnız işğalçıya qalib gələn bir sərkərdə, ordusunu zəfərə aparan Ali Baş Komandan deyil, həm də ölkəsini iqtisadi dirçəliş yoluna çıxaran, hərbi qüdrətini gücləndirən, təmsil etdiyi dövlətə nüfuz qazandıran, ölkəsini dünyanın yeni düşüncə və güc mərkəzinə çevirməyi bacaran qurucu liderdir. O həm də iki yüz ilə yaxın bir dövrdə qonşu xalqlar arasında nifaq salan, qanlı müharibələr yaradan çürük bir ideologiyanın - məhz o saxta ideologiyanın əsiri olmuş mənfur düşüncəli insanların arzu və xəyallarını puç edən liderdir. Cənab İlham Əliyev öz adını tarixin qızıl səhifələrinə yalnız Azərbaycan torpaqlarını azad edən lider olaraq yazmadı, həm də yüz illər boyu yalan ideologiya ilə zəhərlənmiş erməni cəmiyyətini də xilas etdi.

Lider üçün ən böyük keyfiyyət vaxtında və düzgün qərar qəbul etmək bacarığıdır. İlham Əliyev məhz nəyi nə zaman və necə etməyi bilən, doğru və qətiyyətli qərarları ilə seçilən nadir dövlət başçılarındandır. Cənab İlham Əliyev "Qarabağ Ermənistandır" deyənlərə "Qarabağ Azərbaycandır" dedizdirən liderdir.

Bu gün Azərbaycan dünyada sülhün və sabitliyin tərəfdarı kimi tanınır. Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi sülh planına uyğun olaraq, illərdir düşmən olan xalqlar arasında sülh körpüsü salınır. Azərbaycan Ermənistana gedən tranzit yollarını açaraq bu ölkəyə neft məhsulları ixrac edir. Sözsüz ki, bu, qalibin mərhəməti, güclünün məsuliyyətidir.

5

## Vətənə və xalqa sevginin örnəyi



Keçən il oktyabrın 16-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfəri ölkəmizin humanitar diplomatiyasının növbəti mərhələsini təşkil etdi. Birinci vitse-prezident Mehriban Əliyevanın səfər zamanı Vatikanda dövlət xadimləri ilə səmərəli görüşləri Azərbaycan-Müqəddəs Taxt-Tac əlaqələrinin inkişafı baxımından mühüm hadisə kimi dəyərləndirildi.

Oktyabrın 17-də Roma Papası XIV Leo ilə görüşü zamanı Mehriban Əliyeva Vatikan ilə Azərbaycan arasında münasibətlərin, ikitərəfli əlaqələrin xeyli dərəcədə inkişaf etdiyini vurğulayıb. Birinci vitse-prezident son illər ərzində Heydər Əliyev Fondunun bərpa işlərində, həmçinin elmi araşdırmalarda, mədəni mübadilələrdə Müqəddəs Taxt-Tacla bir çox iş gördüyünü diqqətə çatdırıb. Mehriban xanım Əliyeva bundan sonra da Heydər Əliyev Fondunun yeni təşəbbüslərlə çıxış edərək Müqəddəs Taxt-Tacla əməkdaşlığını genişləndirəcəyini deyib.

Öz növbəsində Roma Papası XIV Leo Vatikan dövləti ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlığın uzun tarixə malik olduğunu diqqətə çatdırıb. Roma Papası bir neçə il əvvəl Mehriban xanımın irəli sürdüyü təşəbbüslər sayəsində münasibətlərin xeyli inkişaf etdiyini deyib. XIV Leo bu əməkdaşlığın dinlərarası və sivilizasiyalararası dialoqa çox böyük təkan verdiyini, Azərbaycanın da bu baxımdan dünya miqyasında ilk sıralarda yer aldığını qeyd edib.

Mehriban Əliyeva səfər çərçivəsində Müqəddəs Pavel Bazilikasının baş keşişi kardinal Ceyms Harvi ilə görüşüb. Müqəddəs Taxt-Taca son 14 il ərzində altıncı dəfə səfər etdiyini xatırladan Birinci vitse-prezident Mehriban Əliyeva bu illər ərzində dövlətlərarası əlaqələrin çox möhkəm təməl, qarşılıqlı hörmət və dostluq əsasında inkişaf etdiyini bildirib.

7

## Prezident İlham Əliyevin proqnozları növbəti dəfə də özünü doğrultdu

Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarından uzun müddətdir neft və səmt qazı çıxarılır. İndi bu yataqlar bloku dərin neft laylarının altında həm də sərbəst qaz ehtiyatları vəd edir. Hazırda bu, bir layihə şəklində işlənməkdədir və ilk qazın cari ildə əldə olunacağı gözlənilir. "Şahdəniz Kompressiya" layihəsi çərçivəsində bu yataqdan da




əlavə qaz alınacaq. Buradan hasilatın cari ildə başlanması nəzərdə tutulur.

Digər perspektivli yataqlar da var. Məsələn, "Babək" böyük ümidlər verən yataqdır və bir sıra şirkətlər onun işlənməsində investor olmaq istəyirlər. "Abşeron"nun isə birinci mərhələsi üzrə hasilat həyata keçirilir və yerli istehlaka yönəldilir.

10

## Böyük qayıdış həm də azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyasıdır

Bu gün Qarabağ və Şərqi Zəngəzurda bir sıra mühüm su anbarları tikilib və ya əsaslı təmir olunub. Zabuxçay su anbarının sıfırdan inşası, Sərsəng, Suqovuşan, Köndələnçay və Xaçınçay su anbarlarında aparılan bərpa işləri regionun həm məskunlaşma, həm də kənd təsərrüfatı potensialının for-



malaşmasına xidmət edir. Bu layihələr təkcə iri maliyyə vəsaitləri deyil, eyni zamanda peşəkar işçi qüvvəsi və hazırlıqlı kadrlar tələb edir. Məhz dövlətin iqtisadi imkanları ilə yanaşı, insan kapitalının səfərbər olunması bu mürəkkəb layihələrin icrasına şərait yaradır.

10

## Azərbaycan dilini qorumaq borcumuzdur




Ana dilimizin saflığının qorunması və inkişafı hər zaman olduğu kimi, bu gün də ən vacib məsələlərdən biridir. Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi fikirlər bu məsələnin əhəmiyyətini bir daha vurğulayır və dilin qorunmasının yalnız mədəni bir məsələ deyil, həm də ideoloji, sosial və siyasi bir məsuliyyət olduğunu göstərir.

Dövlət başçısı İlham Əliyev sözügedən müsahibəsində dilin qorunmasının yalnız mədəni bir məsələ olmadığını, həm də dövlətçiliyin, milli kimliyin və xalqın gələcəyinin təmin edilməsi baxımından strateji əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Prezident İlham Əliyevin diqqətə çatdırdığı kimi, biz böyük xalqıq, 10 milyondan çoxu ancaq müstəqil Azərbaycanda yaşayır, amma dünyada 50 milyondan çox azərbaycanlı yaşayır.

Dilimiz yalnız Azərbaycan vətəndaşlarının deyil, dünyanın hər guşəsində yaşayan azərbaycanlıların müqəddəs sərvətidir. Bu dil bizim üçün təkcə ünsiyyət vasitəsi deyil, eyni zamanda milli ruhumuzun, tariximizin və kimliyimizin daşıyıcısıdır.

11

# "Tullantılar haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikasının Qanunu

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 11-ci bəndini rəhbər tutaraq, "Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsində, "Texniki təhlükəsizlik haqqında" və "Lisenziyalar və icazələr haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 14 fevral tarixli 139-VIIQD nömrəli Qanununun icrası ilə əlaqədar **qərara alır:**

"Tullantılar haqqında" Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 1998, № 10, maddə 606 (Cild I); 2024, № 4, maddə 365) 12-2-ci maddəsinin ikinci hissəsinin birinci və üçüncü cümlələrinə "dövlət" sözündən əvvəl "vahid" sözü əlavə edilsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 19 dekabr 2025-ci il*

# Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, ölkədə mövcud dini konfessiyaların fəaliyyətinin dəstəklənməsi, dinlərarası həmrəyliyin daha da inkişaf etdirilməsi, dini maarifləndirmə işinin müasir tələblərə uyğun şəkildə qurulması və mütərəqqi mənəvi-əxlaqi dəyərlərin təbliği sahəsində fəaliyyətin gücləndirilməsi məqsədilə **qərara alıram:**

1. Azərbaycanda dini qurumlara maliyyə yardımı göstərmək üçün Azərbaycan Respublikasının 2026-cı il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Qafqaz Müsəlmanları İdarəsinə 3,5 milyon (üç milyon beş yüz min) manat, Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyası dini qurumuna 400,0 (dörd yüz) min manat, Bakı şəhəri Dağ yəhudiləri dini icmasına 400,0 (dörd yüz) min manat, Avropa yəhudilərinin Bakı dini icmasına 400,0 (dörd yüz) min manat, Sefarad yəhudilərinin Bakı dini icmasına 400,0 (dörd yüz) min manat, Azərbaycan Respublikasında Katolik Kilsəsinin Apostol Prefekturası dini qurumuna 400,0 (dörd yüz) min manat və Azərbaycan Respublikasının Alban-Udi xristian dini icmasına 400,0 (dörd yüz) min manat, habelə digər qeyri-islam dini icmalarına maddi dəstək məqsədilə Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin tabeliyində Mənəvi Dəyərlərin Təbliği Fonduna 400,0 (dörd yüz) min manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 yanvar 2026-cı il*

# Azərbaycan diasporunun inkişafında xidmətlərinə görə bir qrup şəxsin təltif edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 23-cü və 32-ci bəndlərini rəhbər tutaraq **qərara alıram:**

Xalqlar arasında dostluğun möhkəmləndirilməsi və Azərbaycan diasporunun inkişafı sahəsində xidmətlərinə görə aşağıdakı şəxslər təltif edilsinlər:

**"Azərbaycan Respublikası Prezidentinin fəxri diplomu" ilə**

Novruzov Cahangir Mütəllib oğlu

**"Şöhrət" ordeni ilə**

Aşina Məsud Rüstəm oğlu

**"Dostluq" ordeni ilə**

Acar Ziya Zakir Musa oğlu

**"Tərəqqi" medalı ilə**

Alaferdov Akif Qədir oğlu
Kələntər Xəlil Əliməmməd oğlu
Kərimova Sevinc Kərim qızı
Pənahova Fəridə Fərhad qızı
Siracov Bəxtiyar Tahir oğlu
Zeynalova Xədicə Əbdülrəhim qızı.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 7 yanvar 2026-cı il*

# "Azərenerji" və "ACWA Power" rəhbərlərinin görüşü olub



**"Azərenerji" ASC-nin idarə heyətinin sədri Baba Rzayevlə Səudiyyə Ərəbistanı Krallığının "ACWA Power" şirkətinin idarə heyətinin sədri Mohammad Abunayyan arasında görüş olub.**

Görüşdə 240 MVt gücündə "Xızı-Abşeron" Külək-Elektrik Stansiyasının enerjisistemə qoşulması, əməkdaşlığın mövcud vəziyyəti və gələcək perspektivlər haqda fikir mübadiləsi aparılıb.

Bərpaolunan enerji mənbələrinin inkişafı, həmin güclərin enerjisistemə təhlükəsiz inteqrasiyası, enerjinin idarəedilməsi, batareya saxlanc sistemləri də daxil olmaqla, yeni texnologiyaların tətbiqi görüş zamanı geniş müzakirə olunub.

***Nərminə ƏSGƏROVA,***
***"Azərbaycan"***

# "Orta dəhlizin inkişafı Bakının etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirir"

**"Prezident İlham Əliyevin son bəyanatları Azərbaycanın Avrasiya nəqliyyat dəhlizlərində strateji mərkəz kimi artan rolunu təsdiqləyir. Xüsusilə mövcud geosiyasi qeyri-sabitlik şəraitində bəzi ənənəvi marşrutların daha az təhlükəsiz və ya dayanıqsız hala gəlməsi fonunda bu rol daha aydın görünür. Coğrafi mövqeyi və logistika infrastrukturuna yönəlmiş məqsədyönlü investisiyalar sayəsində Azərbaycan bu gün Mərkəzi Asiya ilə Avropanı birləşdirən əsas qovşaqlardan biri kimi çıxış edir".**



Bu fikirləri AZƏRTAC-a Azərbaycan Prezidentinin yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibəni şərh edərkən İtaliyanın Beynəlxalq Siyasi və İqtisadi Araşdırmalar İnstitutunun rəhbəri, jurnalist və politoloq Domeniko Letitsiya bildirib.

Onun sözlərinə görə, Trans-Xəzər marşrutunun möhkəmləndirilməsi və Orta dəhlizin inkişafı Bakının malların, enerji resurslarının və rəqəmsal bağlantıların tranziti üçün etibarlı tərəfdaş kimi mövqeyini möhkəmləndirir: "Tədarük zəncirlərinin təhlükəsizliyi və enerji mənbələrinin şaxələndirilməsinin Avropa üçün prioritet olduğu bir dövrdə Azərbaycanın sabitliyi və etibarlılığı strateji əhəmiyyət kəsb edir.

Məqsədəuyğun olardı ki, Avropa İttifaqı və üzv dövlətlər artım, əlaqəlilik və Avrasiya əməkdaşlığı üzrə birgə inkişaf trayektoriyalarını dəstəkləmək məqsədilə Bakı ilə siyasi və iqtisadi dialoqu, o cümlədən "Şərq tərəfdaşlığı" kimi çoxtərəfli platformalar vasitəsilə daha da gücləndirsinlər", - deyə italiyalı politoloq fikrini yekunlaşdırıb.




# Dünya mediası Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsini işıqlandırmaqda davam edir

**Dünyanın müxtəlif ölkələrinin mətbuat orqanları Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsini işıqlandırmaqda davam edir.**

AZƏRTAC xəbər verir ki, Çinin Milli Xəbər Agentliyi "Sinxua"nın Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsi zamanı Azərbaycan-Çin münasibətlərinə dair fikirləri haqqında xəbərləri Çin mediasında geniş yayılıb.

"Azərbaycan Prezidenti Çinlə hərtərəfli strateji tərəfdaşlığı yüksək qiymətləndirir" adlı Çin və ingilis dilində hazırlanan xəbərdə dövlətimizin başçısının iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq münasibətlərinin qurulmasını böyük uğur kimi dəyərləndirdiyi qeyd olunub. Vurğulanıb ki, Azərbaycan Prezidenti hərtərəfli strateji tərəfdaşlığın iki ölkə arasında iqtisadi əlaqələrin inkişafına böyük təkan, biznes və dövlət strukturlarına əlaqələri fəallaşdırmaq üzrə ciddi impuls verdiyini deyib.

Qeyd olunub ki, Prezident İlham Əliyev müsahibə zamanı Çin şirkətlərinin Azərbaycanda günəş və külək-elektrik stansiyalarının inşasında fəal iştirakına toxunub, çinli tərəfdaşlarla Azərbaycanda elektrik avtobuslarının istehsalına başlanıldığını deyib.

"Sinxua" Prezident İlham Əliyevin "Biz təkcə "yaşıl energetika"nı deyil, həm də "yaşıl nəqliyyat"ı inkişaf etdirmək qərarına gəldikdə, gündəmdə strateji tərəfdaş seçmək məsələsi dayandı və Çin şirkətlərini seçdik" sitatını da xəbərə daxil edib.

"Sinxua" Agentliyinin həmin xəbərini Çinin bir çox media qurumları yayıb. Bundan başqa, Çinin bəzi ixtisaslaşmış saytları Prezident İlham Əliyevin iqtisadi mövzulardakı fikirlərindən də xəbərlər hazırlayıb.

Rusiyanın aparıcı media orqanları da Azərbaycan Prezidenti İlham Əliyevin əsas sitatlarını əks etdirən materiallar dərc edib.

"RİA Novosti", TASS, "Vesti Kavkaza", "İnterfaks" agentlikləri, "360" televiziya kanalı və digər media qurumları dərc etdikləri materiallarda Prezident İlham Əliyevin "Zəngəzur dəhlizinin açılması ilə bağlı artıq heç bir şübhə yoxdur" fikrini önə çəkiblər. Nəşrlərdə həmçinin dövlət başçısının Azərbaycanın Mərkəzi Asiya ilə Qərb arasında yeganə etibarlı halqa olduğunu, ölkədən yan keçən alternativ marşrutların isə səmərəsiz və maraq doğurmadığını vurğuladığı qeyd olunur.

Medianın materiallarında Prezident İlham Əliyevin Azərbaycanın tranzit imkanlarının gələcəkdə daha da genişlənəcəyinə əminliyi diqqətə çatdırılır, Avropa və Asiya məkanında iqtisadi əlaqələrin möhkəmləndirilməsi kontekstində nəqliyyat infrastrukturunun inkişafının vacibliyi xüsusi qeyd edilir.

Xəbər resursları dərc etdikləri yazılarda Azərbaycan liderinin regionda xarici siyasət çağırışlarına dair mövqeyinə, suverenliyin və təhlükəsizliyin möhkəmləndirilməsinin zəruriliyinə diqqət yetirirlər. Media qurumları Prezident İlham Əliyevin 907-ci düzəlişin tamamilə ləğv edilməsinin vacibliyi ilə bağlı fikirlərini, eləcə də ikitərəfli münasibətlərin əsas aspektləri və regional təşəbbüslər barədə mövqeyini sitat gətirirlər.

Ümumilikdə, Rusiya mediası Azərbaycanın regional və beynəlxalq proseslərdə strateji rolunu vurğulayır, Prezident İlham Əliyevin müsahibəsini geniş şəkildə işıqlandırır və onun bəyanatlarını rəsmi Bakının ardıcıl, müstəqil və fəal xarici siyasətinin təzahürü kimi qiymətləndirir.

İranın IRNA Dövlət Agentliyinin, ISNA Xəbər Agentliyinin saytlarında, "Ğatreh", "Tahlil Bazar", "Tejaratnews" xəbər portallarında dərc olunmuş "Prezident Əliyev Ermənistanın Naxçıvan marşrutu ilə İran dəmir yoluna qoşulacağını bəyan edib" sərlövhəli məqalələrdə Azərbaycanın dövlət başçısının Ermənistanın Naxçıvan vasitəsilə İran dəmir yoluna, Azərbaycan Respublikası vasitəsilə isə Rusiya dəmir yoluna çıxış əldə edəcəyi barədə fikirləri yer alıb. Materiallarda vurğulanır ki, Prezident İlham Əliyev Ermənistan sərhədinə gedən həm dəmir yolunun, həm avtomobil yolunun tezliklə hazır olacağını bildirib. Azərbaycan lideri əlavə edib ki, bu layihə tam başa çatandan sonra onun yükötürmə qabiliyyəti 15 milyon tona bərabər olacaq, həm "Şərq-Qərb", həm də ki, "Şərq-Cənub", bəlkə də "Şimal-Cənub" yolunun bir qolu olacaq. Dövlət başçısı əlavə edib: "Çünki bu gün "Şimal-Cənub" layihəsi deyəndə ilk növbədə Rusiya-Azərbaycan-İran, yəni Rəşt-Astara yolu nəzərdə tutulur. Bu yol da vacibdir. Ancaq Zəngəzur dəhlizi açılandan sonra sovet vaxtı mövcud olmuş Sovet İttifaqı-İran yolu yenə də bərpa ediləcək. Yəni ki, Rusiya-Bakı-Ağbənd-Ermənistan-Naxçıvan-Culfa-Fars körfəzi - bu, "Şimal-Cənub" marşrutunun ikinci yolu olacaq".

Məqalələrdə diqqətə çatdırılıb ki, Prezident İlham Əliyev İranın da bu layihədə iştirakı ilə bağlı qeyd edib: "Onu da bildirməliyəm ki, bizim təşəbbüsümüzlə Ağbənd qəsəbəsində Arazın üzərindən körpü də inşa edilir. Yəni bizim o bölgədən qərb istiqamətinə və cənub istiqamətinə əslində iki yolumuz olacaq. Biri Zəngəzur dəhlizi - Ermənistan üzərindən, biri isə Araz dəhlizi - İran üzərindən. Bunun da təşəbbüskarı biz olmuşuq. Körpünü biz öz vəsaitimizlə inşa edirik. Hazırda Azərbaycanın əsas hissəsindən Naxçıvana getmək üçün Biləsuvardan uzun yol qət edilməlidir. İndi isə İran ərazisindən Naxçıvana cəmi 45-50 kilometr gediş olacaq. Beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan arasında iki bağlantı olacaq, biri Ermənistan üzərindən, biri isə İran üzərindən".

Bolqarıstan Teleqraf Agentliyinin, "Delnik" nəşrinin, BGN xəbər portalının AZƏRTAC-a istinadla dərc etdikləri "Azərbaycan Prezidenti azərbaycanlıların öz dövlət dilini qorumalarının vacibliyini vurğulayıb" sərlövhəli məqalədə Prezident İlham Əliyevin dövlət dilinin qorunması və inkişafı ilə bağlı fikirləri yer alıb. Materiallarda dövlətimizin başçısının sözləri sitat gətirilib: "Bilirsiniz ilk növbədə dil insanları birləşdirir, əhalini birləşdirir. Dil dövlətçiliyin əsas atributlarından biridir, bəlkə də birincisidir, təbii ki, bayraqla, gerblə, himnlə birlikdə. Xalqımızın taleyini hamımız yaxşı bilirik, ağır taledir. Əsrlər boyu müstəqillik eşqi ilə yaşamış xalqıq, əsrlər boyu müstəmləkəçilik şəraitində yaşamış xalqıq. Bunun adları fərqli ola bilər, amma mahiyyət etibarilə bu, müstəmləkəçilikdir. İstər qədim dövrlərdə, istər Rusiya imperiyası dövründə, fars imperiyası dövründə, Sovet İttifaqı dövründə bu, müstəmləkəçilikdən başqa bir şey deyildi. Müstəqillik tariximiz də zəngin olub. Dövlətçilik əsasları olub. Fəxr edirik o dövlətlərlə. Amma başqa imperiyaların, ölkələrin tərkibində yaşadığımız üçün istər-istəməz xalqımızın psixologiyasına da müəyyən təsir buraxıb. Bu psixologiyanın fəsadları bu gün də var. Azalır, amma var. Nə qədər az olsa, o qədər də yaxşıdır. Yəqin ki, nəsillərin dəyişməsi ilə, başqa amillərlə bağlıdır. Ancaq dil o amildir ki, milləti millət edir. Biz bütün dövrlər ərzində dilimizi qorumuşuq və bu gün danışdığımız Azərbaycan dili bizim ulu babalarımızın danışdığı Azərbaycan dilindən fərqlənmir. Bu, böyük nailiyyətdir. Mən hesab edirəm ki, xalqımızın böyüklüyüdür ki, biz başqa dillərin təsirinə düşməmişik. Düzdür, sovet vaxtında bizim leksikonumuza bəzi kəlmələr daxil olmuşdur. Mən beynəlxalq leksikondan gələn kəlmələri nəzərdə tutmuram. Amma prinsip etibarilə müstəqillik dövründə biz özümüzü onlardan təmizləyə bildik".

Qeyd olunub ki, Prezident İlham Əliyev azərbaycanlıların böyük xalq olduğunu, dünyada 50 milyondan çox azərbaycanlı yaşadığını diqqətə çatdırıb. Azərbaycan lideri əlavə edib: "Yəni bizim dilimiz böyük xalqın dilidir, bunu heç vaxt unutmamalıyıq və bizim dilimiz heç bir dilin kölgəsində ola bilməz. Bizim dilimiz zəngindir, sən istənilən ifadəni deyə bilərsən, istənilən şeiri yaza bilərsən. Çox zəngin, çox melodik və gözəldir, təkcə ona görə yox ki, bu, bizim dilimizdir. Mən bir çox həmkarlarımdan, bir çox insanlardan eşitmişəm ki, doğrudan da çox zəngin və gözəl dildir. Mən düşünürəm və əminəm ki, Azərbaycan xalqı bu fikirləri tamamilə bölüşür". Dövlət başçısı əlavə edib ki, Azərbaycan dilini qorumaq hər bir azərbaycanlının vəzifəsidir.

Moldovanın aparıcı "Noi.md" xəbər portalında Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibədən əsas sitatları əks etdirən məqalə dərc edilib.

Rumın və rus dillərində dərc olunan məqalədə Prezident İlham Əliyevin Azərbaycanın enerji təchizatında artan rolu haqqında söylədiyi fikirlər yer alıb. Qeyd olunub ki, Azərbaycan qaz ixracını həm həcm, həm də coğrafi imkan baxımından artırır. Azərbaycan bu gün və uzun illər Avropa istehlakçıları üçün əvəzolunmaz tərəfdaşdır və enerji təhlükəsizliyi baxımından etibarlı təchizatçı kimi rolu daha da artacaq.

İspaniyanın "Communicacion" portalının AZƏRTAC-a istinadla dərc etdiyi materiallarda qeyd olunub ki, Prezident İlham Əliyev Azərbaycan hərbçilərinin ölkənin hüdudlarından kənarda heç bir hərbi əməliyyatlarda iştirak etmədiyini və bunun gələcəkdə də nəzərdə tutulmadığını bildirib. İspan saytı bununla bağlı yanlış məlumatları təkzib edən dövlətimizin başçısının sözlərini sitat gətirir: "Biz 20 sualdan ibarət müraciət tərtib etdik və onu Amerika tərəfinə çatdırdıq. Bu məsələlərə aydınlıq gətirilməyincə, Azərbaycanın hər hansı missiyada heç bir iştirakı nəzərdə tutulmur".

İtaliya mediasında "Şərq qapısı" qəzetinin baş redaktoru, Naxçıvan Muxtar Respublikasının Əməkdar jurnalisti Sara Əzimovanın Prezident İlham Əliyevin bu il yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsinə həsr olunmuş "İlk söz, ilk görüş jurnalistlərlə" sərlövhəli məqaləsi dərc edilib.

Məqalədə dövlət-media münasibətləri geniş şərh olunub, bu baxımdan ilin ilk iş günündə Prezident İlham Əliyevin jurnalistlərlə ilk görüşünün və səsləndirdiyi fikirlərin cəmiyyətə verilən mühüm mesaj olduğu vurğulanır. Görüş artıq Azərbaycan mediası üçün formalaşmış müsbət ənənənin davamı olmaqla yanaşı, dövlət başçısının cəmiyyətlə açıq, şəffaf və birbaşa ünsiyyətinin bariz nümunəsi kimi dəyərləndirilib.

# Xalqa arxalanan, xalqın inandığı



*Azərbaycan Prezidenti cənab İlham Əliyev öz ad günündə məcburi köçkünlərlə birlikdə olmağı ənənəyə çevirib.*

*Ənənə bu dəfə də pozulmadı.*

**Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva dekabrın 24-də Qarabağa səfər edərək Xankəndi şəhərində və yeni Ağdamda bir sıra görüşlər keçirdilər.**

Maraqlı görüşlərdən biri Ağdam şəhərində 2-ci yaşayış kompleksinin açılışında baş tutdu.

QISA ARAYIŞ:

*Ərazisi 13 hektardan çox olan kompleksdə 11 məhəllə var. Burada 60 bina inşa edilib. Kompleksdə 114-ü birotaqlı, 464-ü ikiotaqlı, 536-sı üçotaqlı, 154-ü dördotaqlı olmaqla, ümumilikdə 1268 mənzil var. Dekabrda buraya 104 ailənin (426 nəfər) köçürülməsi nəzərdə tutulur. 2026-cı ilin yanvar-fevral aylarında isə daha 1164 ailə (4772 nəfər) köçürüləcək.*

*Binalar daimi su, elektrik və sürətli internet xətləri, mənzillər isə istilik və isti su ilə təmin edilib. Kompleksin ərazisində genişmiqyaslı abadlıq-quruculuq işləri görülüb, uzunluğu 5 kilometrə yaxın olan daxili yollar çəkilib, idman və uşaq oyun meydançaları, velosiped zolağı, yerüstü və 1218 yerlik yeraltı avtomobil dayanacaqları yaradılıb.*

**Dövlət başçısı İlham Əliyevin keçmiş məcburi köçkünlərlə yeni salınmış yaşayış yerlərində görüşləri özünün səmimiliyi, insanların öz rəhbərlərinə sonsuz sevgisi və ehtiramı, xoş əhvali-ruhiyyəli atmosferin mövcudluğu ilə seçilir.**

*Doğma yurd-yuvaya qayıdarkən onlara yaradılan şəraitdən, yeni kənd və qəsəbələrdəki rahatlıqdan, açılan iş yerlərindən hədsiz dərəcədə razı qalan köhnə-yeni sakinlər Azərbaycan Prezidentinə ürək sözlərini, təşəkkür və minnətdarlıqlarını xalqımıza xas olan formada dönə-dönə ifadə edirlər.*

**Müzəffər Ali Baş Komandan İlham Əliyev isə belə görüşlərdə Zəfər müharibəsində və sonrakı dövrdə baş verən hadisələrdən söz açmaqla yanaşı, qarşıda duran vəzifələrdən də danışır, vacib bildiyi məqamları bütün Azərbaycan xalqına çatdırır, habelə müəyyən ünvanlara da ismarışlarını göndərir.**

Budəfəki görüşlərdə də istisna olmadı.

❖❖❖

**Cənab İlham Əliyev ağdamlılarla yeni görüşünə çox mühüm bir məsələdən söhbət açması ilə başladı:**

*"İşğal dövründə Ağdam demək olar ki, urbisidə məruz qalmışdır. Yəni şəhər Ermənistan dövləti tərəfindən tamamilə dağıdılmışdır. Bu, Ermənistan dövlətinin məqsədyönlü siyasəti, bizə qarşı olan düşmənçiliyin bariz nümunəsi idi. Məqsəd də tam aydın idi. Birincisi, talançılıq. Çünki bütün binaların daşları bir-bir sökülərək talan edilmişdir, müxtəlif yerlərdə, Ermənistan ərazisində satılmışdır. Digər tərəfdən, Ermənistan dövləti bu bölgələrdə Azərbaycan xalqının tarixi irsini tamamilə silmək istəyirdi. Üçüncü məqsəd isə bu şəhəri elə vəziyyətə salmaq idi ki, artıq burada yaşayış mümkün olmasın, azərbaycanlılar heç vaxt buraya qayıtmaq haqqında düşünməsinlər. Ancaq səhv etdilər. Biz, xalqımız bütün bu əzablı illər ərzində bir amalla yaşamışıq ki, öz doğma dədə-baba torpaqlarımıza qayıdaq və qayıdandan sonra bu torpaqları, bu şəhərləri, kəndləri bərpa edək. Azərbaycan xalqı heç vaxt işğalla barışmamışdır".*

Bəli, Azərbaycan xalqı heç zaman ərazi itkisi ilə barışmamışdır!

Bunu dövlət rəhbərlərimiz dəfələrlə ucadan, bütün məclislərdə açıq şəkildə bəyan etmişlər!

**Ulu Öndər Heydər Əliyev daim təkrarlayırdı: Biz işğal altındakı bütün torpaqlarımıza qayıdacağıq!**

**Cənab İlham Əliyev də qətiyyətlə söyləyirdi: Azərbaycan bir qarış torpağını belə kimsəyə güzəştə getməyəcəkdir!**

Lakin haylar başqa cür düşünürdülər.

Onlar qondarma "Artsax" və "DQR" yaradaraq özlərinə oyuncaq "prezidentlər", "parlamentlər" seçir, "müstəqil respublika" təəssüratı yaratmağa can atırdılar.

> **"Son 5 il ərzində Azərbaycan Silahlı Qüvvələri öz gücünü böyük dərəcədə artırmışdır. Yeni silahlar və texnika ilə təchiz edilmiş ordumuz bu gün istənilən vəzifəni icra etməyə qadirdir. Biz son 5 il ərzində həm yerli istehsal olan silah və texnikadan istifadə edərək, eyni zamanda xaricdən aldığımız silah və texnikanı ordumuzun potensialına əlavə edərək hərbi gücümüzü böyük dərəcədə gücləndirə bildik. Silahlı Qüvvələrimizin döyüş qabiliyyəti böyük dərəcədə artdı, Xüsusi Təyinatlı Qüvvələrin say tərkibi bir neçə dəfə artırıldı, yeni yaradılmış Komando qüvvələrinin say tərkibi minlərlə əsgər və zabitdən ibarətdir. Biz yeni müharibəyə hazırlaşmırıq. Bizim üçün müharibələr arxada qaldı. Ancaq bugünkü dünyada hər bir ölkə ilk növbədə öz təhlükəsizliyi haqqında ciddi düşünməlidir".**
>
> **İlham ƏLİYEV**

Ancaq heç zaman öz ağızları ilə hürmürdülər.

Daim dünya erməniliyinin pul kisəsindən asılı olan, prezident seçkilərində erməni diasporundan aldıqları səslərə görə ermənilərə borclu qalan dövlət başçılarının dəstəyindən istifadə edərək işğalçı əməllərini davam etdirirdilər.

*İşğalın davam etdiyi 30 ilədək bir müddətdə:*

- BMT Təhlükəsizlik Şurasının Ermənistan qoşunlarının Azərbaycan ərazilərindən qeyd-şərtsiz çıxarılması barədə qəbul etdiyi dörd qətnamə havadan asılı qaldı;
- Həmsədr dövlətlər sayılan Rusiya, ABŞ, Fransa Ermənistana daim siyasi və maliyyə dəstəyi göstərdilər, dəfələrlə dəyəri milyardlarla dollar olan pulsuz silah-sursat verdilər;
- Bir dəfə də olsun işğalçıya "özgə torpaqlarından çıx" demədilər, heç bir təsir, təzyiq göstərmədilər, heç bir sanksiya tətbiq etmədilər;
- Separatçı qurumların qeyri-legitim "rəhbər"lərini öz ərazilərində qəbul edərək pulyığma marafonlarının keçirilməsinə şərait yaratdılar;
- Fransa, ABŞ parlamentləri erməni maraqlarının müdafiəsi "mərkəz"lərinə çevrildilər, dəfələrlə orada əleyhimizə qərəzli və ədalətsiz qərarlar qəbul olundu;
- Rusiya Dövlət Dumasının deputatları isə müntəzəm şəkildə Ermənistana, habelə Azərbaycanın razılığı olmadan Qarabağa səfərlər edir, bu səfərlərdə separatçılara siyasi və mənəvi dəstəklər verirdilər.

*Maraqlıdır ki, separatizm yuvası olan digər ölkələrdəki separatçı nümayəndələri heç bir ölkəyə gedərək orada rəsmi və ya qeyri-rəsmi görüşlər keçirə bilməzdilər.*

**Ən böyük biabırçılıq, riyakarlıq, ikiüzlülük və saxtakarlıq isə Qarabağ münaqişəsinin həlli ilə bağlı məxsusi yaradılan ATƏT-in Minsk qrupuna məxsusdur.**

❖❖❖

Uzun illər boyu ATƏT-in Minsk qrupu üzvlərinin keçirdikləri bütün görüşlərdə eyni hal müşahidə olunurdu:

Sərgilənən mövqe və münasibətlərə görə sanki danışıqlar masasının bir tərəfində Ermənistanla ATƏT-in Minsk qrupu, digər tərəfdə isə Azərbaycan nümayəndə heyəti otururdu.

*Onlar daim işğalçı, talançı, beynəlxalq hüququ vecinə almayan Ermənistanla həmrəy idilər.*

**Bircə kərə belə "erməni qardaşları"nın nə xətrinə dəydilər, nə təzyiq göstərdilər, nə də sanksiya tətbiq etdilər.**

*Sanki tut arağı içib, donuz kababı yeməkdən başqa heç bir işləri yox imiş.*

*Hətta müharibədən sonra da yeyib-içmək həvəsi ilə yenə də gəlirdilər.*

**Şanlı zəfərdən bir ay sonra - 2020-ci il dekabrın 12-də Azərbaycana səfər edən ATƏT-in Minsk qrupunun həmsədrlərini cənab İlham Əliyev qəbul edərkən onlara fəaliyyətsizliklərini və birtərəfli mövqelərini xatırladaraq açıq şəkildə üzlərinə dedi:**

**"Mən Minsk qrupunu səfərə dəvət etməmişəm!"**

Minsk qrupunun mövcudluğu ermənilərə və ermənipərəstlərə sərf edirdi.

*Çoxlarının ürəyindən bu fərsiz qrupa Qarabağı könüllü tərk etmiş ermənilərin "hüquqlarının müdafiəsi" məsələsinin tapşırılması keçirdi.*

ATƏT-in Minsk qrupunun fatihəsi 8 avqust 2025-ci il Vaşinqton görüşündə oxundu!

Tabutuna son mismar isə dekabrın 1-də vuruldu!

❖❖❖

Ağdamlılarla yeni görüşündə cənab İlham Əliyev 44 günlük Zəfər müharibəsinin möhtəşəm nəticələrinə də toxundu:

*"Beş il bundan əvvəl şanlı İkinci Qarabağ müharibəsi və onun nəticələri haqq-ədaləti bərpa etdi, bizim hüquqlarımızı bərpa etdi, beynəlxalq hüququ bərpa etdi, bizim milli ləyaqətimizi bərpa etdi. Xalqımız qan tökərək öz ərazi bütövlüyünü bərpa edib. Ermənistan dövləti bir qarış, bir santimetr torpaq qaytarmaq fikrində deyildi. Ermənistanın bütün rəhbərləri, müstəqillik illərində Ermənistana rəhbərlik edən bütün şəxslər bir qarış torpaq qaytarmaq fikrində deyildilər. Biz onları məcbur etdik və xalqımız bütün dünyaya öz gücünü, qüdrətini, güclü iradəsini göstərmişdir. Xalq yumruq kimi birləşdi. Silahlı Qüvvələrimiz qəhrəmanlıq, fədakarlıq göstərmişdir. Allah bütün şəhidlərimizə rəhmət eləsin. Cəmi 44 gün ərzində Ermənistanı böyrü üstə qoyduq".*

> **"Biz döyüş meydanında qan tökərək, şəhidlər verərək şanlı Qələbə qazanmışıq və bu Qələbəni dünyanın ən mötəbər yeri olan Amerikanın Ağ Evində, Amerika Prezidentinin iştirakı ilə möhürlədik. Beləliklə, 30 il ərzində əsas vəzifəmiz olan ərazi bütövlüyümüzün bərpası və bütün dünya tərəfindən bunun qəbul edilməsi məsələsi öz həllini tapmışdır".**
>
> **İlham ƏLİYEV**

Hətta hərbi əməliyyatlar dövründə də ermənipərəst qüvvələrin hayların müdafiəsindən əl götürmədiklərini açıqladı:

*"Bizi 44 gün ərzində dəfələrlə dayandırmaq istəyənlər min cür təzyiq, təhdid və təxribat törətməyə çalışırdılar və hətta törədirdilər. Bizi qorxutmaq, bizi dayandırmaq, bizim şanlı Zəfər yürüşümüzü yarımçıq qoymaq və münaqişəni əbədi etmək - bax, bizə qarşı olan qüvvələrin məqsədi bu idi. Təbii ki, 5 il keçəndən və biz 2023-cü ildə öz suverenliyimizi antiterror əməliyyatı nəticəsində tam bərpa edəndən sonra artıq bizə qarşı olan qüvvələr yeni reallıqla barışmağa məcbur idilər, biz onları məcbur etdik. O cümlədən bizim Qələbəmizi qəbul etməyənlər, bunu həzm edə bilməyənlər, ermənipərəst qüvvələr məcbur olaraq bugünkü reallıqlarla barışmalı oldular".*

❖❖❖

Bu gün sevinə-sevinə, gülə-gülə doğma yurda qayıdırıq, yeni kənd, qəsəbə və şəhərlərdə, təzə ev və mənzillərdə xoşbəxt və rahat günlərimizi yaşamağa başlayırıq.

Həqiqətən də, böyük fərəh, sonsuz səadətdir!

Ancaq heç kəs heç zaman heç nəyi unutmamalıdır!

Müdrik Prezidentimiz İlham Əliyev demişkən:

*"Düzdür, indi Ermənistanla Azərbaycan arasında sülh prosesi gedir və bu sülh prosesinin təşəbbüskarı da biz olmuşuq. Onu da hamı bilir və bilməlidir. Birinci təklifi biz vermişik, sülh müqaviləsinin mətninin müəllifi də bizik və oraya salınan bütün maddələrin də müəllifi bizik. Ancaq biz işğalı necə unuda bilərik?! Şəhidlərimizi necə unuda bilərik?! Xocalı qurbanlarını, digər günahsız insanların həlak olmasını necə unuda bilərik?! Heç vaxt unuda bilmərik və unutmamalıyıq. Çünki bu tarixi yaddaş həmişə bizim qəlbimizdə olmalıdır. Şəhidlərin əziz xatirəsi həmişə qəlbimizdə yaşamalıdır və heç vaxt şirin sözlərə uymamalıyıq".*

❖❖❖

Bu gün xocalılılar da bir gözü gülərək, bir gözü ağlayaraq Vətənə qayıdırlar!

Ancaq Xocalı soyqırımını necə unutmaq olar?!

Həm də təkcə xocalılılar yox, bütün Azərbaycan xalqı bu vəhşiliyi, barbarlığı, qadınlara, uşaqlara, qocalara, günahsız və silahsız mülki əhaliyə qarşı törədilən qəddarlıqları, qətliamları yaddan çıxara bilərmi?!

Heç zaman!

> **"Bizim güclü siyasi iradəmiz, xalq-iqtidar birliyi, hərbi gücümüz, iqtisadi potensialımız, enerji siyasətimiz, nəqliyyat imkanlarımız və digər amillər bizi o qədər gücləndirib ki, heç kim bizə öz iradəsini diktə edə bilməz".**
>
> **İlham ƏLİYEV**

Həm də təkcə Xocalı soyqırımını yox!

- Evlərimizin talan edərək yandırılmasını;
- Məscidlərimizdə mal-qara, donuz saxlanılmasını;
- Qəbiristanlıqlarımızın dağıdılaraq ölənlərin qızıl dişlərinin çıxarılmasını;
- Mədəni, tarixi, dini abidələrimizin uçurularaq təhqirlərə məruz qoyulmasını;
- Bağlarımızın, meşələrimizin qırılmasını, çaylarımızın zəhərlənməsini;
- Faydalı qazıntı yataqlarının talan edilərək daşınıb aparılmasını;
- Bizim geriyə qayıda bilməməyimiz üçün bütün ərazilərin xarabalıqlara çevrilməsini necə unutmaq olar?!

*Bu mümkün deyil!*

**Sülh müqaviləsinin bağlanması, dövlətlərarası münasibətlərin bərpası o demək deyil ki, biz qonşuluğumuzda revanşist niyyətlərlə yaşayanları, əllərinə fürsət düşən kimi torpaqlarımızı ələ keçirmək istəyənləri unutmalı və bağışlamalıyıq.**

*Bu da mümkün deyil!*

İşğal muzeyləri həm də bunun üçündür!

Çünki unutqanlıq, yaxud yaddaşımızın zorla "təmizlənməsi", bizə keçmişdəki təki "qardaşlıq" mahnılarının oxudulması, "əbədi dostluq və beynəlmiləlçilik" uydurmalarının təbliği heç zaman yaddaşımızı korşaltmamalıdır!

- Biz torpaqları qan tökərək qaytarmışıq!
- Biz torpaqları şəhidlər verərək qaytarmışıq!
- Biz torpaqlarımızı doğmalarımızı əlilə çevirməklə qaytarmışıq!
- Biz torpaqlarımızı böyük itkilər hesabına qaytarmışıq!

*Dağılanları, viran qoyulanları yenidən tikib qursaq da, əvvəlkindən gözəl kənd, qəsəbə və şəhərlər salsaq da, insan itkisi geri qayıda bilmir!*

**Doğrudur, əbədi müharibə, əbədi düşmənçilik olmur!**

**Yaddaşsızlıq isə böyük bəlaların yenidən təkrarlanmasına yol aça bilər!**

*Daim güclü olmalıyıq!*

*Daim yanımızda arxalı, riyakar və hiyləgər, dəfələrlə bizə düşmənçilik edərək ağır itkilər yaşadan birisinin mövcudluğunu heç zaman yaddan çıxarmamalıyıq!*

❖❖❖

Heç zaman unutmayaq:

- 1905-1907-ci illərdə ermənilər tərəfindən törədilənləri;
- 1918-ci ilin martında Bakıda, Qubada, Şamaxıda və Lənkəranda baş verən qırğınları;
- 1948-1953-cü illərdə Qərbi Azərbaycanda baş verən deportasiya cinayətlərini;
- 1988-1993-cü illərdə başımıza gətirilən faciə və müsibətləri;
- 30 illik işğal dövründəki vəhşilik, vandallıq, dağıntı cinayətlərini və vurulan ziyanları;
- Genosid, urbisid, ekosid faktlarını.

"İtlə yoldaş ol, amma çomağını əldən qoyma" - müdrik atalar sözüdür.

Tarix unutqanlığı heç zaman bağışlamır!

Həm də unudanları daha ağır formada yenidən cəzalandırır!

❖❖❖

*Yaxın və uzaq keçmişdəkilərdən düzgün nəticələr çıxarmalıyıq:*

Ermənilərə torpaq vermək istəməsək də, içərimizə buraxmışıq.

Həmişə də bizimlə "qoy özümə yer eləyim, gör sənə neyləyirəm" prinsipi ilə, xaincəsinə davranıblar.

- Əvvəlcə yaltaqlanıblar, yarınıblar...
- Arvadlarını, qızlarını qabağa veriblər...
- Sonra özlərinə ev-eşik düzəldiblər...
- Pullu sahələrdə yerləşərək bir-birlərini yanlarına çəkiblər...
- Amma heç zaman düşmənçiliklərini unutmayıblar...
- Hər bir ailə "böyük Ermənistan" naminə gizli fonda hər ay pul ödəyib.
- Hərəkətə keçməyə daim fürsət gəziblər.
- Əllərinə belə imkan düşəndə isə əsl simalarını, vəhşilik və qəddarlıqlarını göstəriblər.

Əsl erməni "qıdı kirvə" deyil!

Əsl erməni Njdedir, Monte Melkonyandır, digər başkəsənlərdir.

Sülh istəsək də, iqtisadi əməkdaşlığa qədəm qoysaq da, "dəmir yumruq" daim hazır vəziyyətdə olmalıdır!

**Bəxtiyar SADIQOV**

# İlin uğurlu yekunları

# Yeni il xalqımıza nə vəd edir

## Rifahımız yüksələcək, Böyük qayıdış davam edəcək, müdafiə qabiliyyətimiz güclənəcək




**Yeni il yeni uğurlara çağırışlar, yeni hədəflərə doğru istiqamətlənmək deməkdir. Bu hədəflər dövlət başçısı İlham Əliyevin Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqa müraciətində, eləcə də yeni ilin ilk günlərində yerli televiziya kanallarına müsahibəsində öz əksini tapıb.**

Dövlət başçısının müraciəti və müsahibəsində yeni ildə yeni hədəflərin, möhtəşəm uğurlara gedən yolun istiqamətləri müşahidə olunur. Müraciətində "2025-ci il arxada qaldı. Bu il də ölkəmiz üçün, xalqımız üçün uğurlu il olmuşdur. Azərbaycan xalqı sülh, təhlükəsizlik, əmin-amanlıq şəraitində yaşamışdır. Xalq-iqtidar birliyi bizim uğurlarımızın əsas amilidir", - söyləyən Prezident bunu da əminliklə bəyan etdi ki, 2026-cı il də ölkəmiz üçün uğurlu olacaq, qarşıda duran bütün vəzifələr həmişəki kimi uğurla icra ediləcək.

Diqqəti 2025-ci ildə keçirilən Zəfərimizin beşinci ildönümünə həsr olunmuş Hərbi parada yönəldən dövlət başçısı bildirdi ki, paradda son illər ərzində ordu quruculuğunda görülmüş işlərin bir hissəsi xalqımıza və bütün dünyaya nümayiş etdirildi. Əyani göstərildi ki, son 5 il ərzində Azərbaycan Silahlı Qüvvələri öz gücünü böyük dərəcədə artırıb, yeni silahlar və texnika ilə təchiz edilmiş ordumuz bu gün istənilən vəzifəni icra etməyə qadirdir.

Prezident İlham Əliyev bu çağırışı da etdi ki, biz yeni müharibəyə hazırlaşmırıq. Bizim üçün müharibələr arxada qaldı. Ancaq bugünkü dünyada hər bir ölkə ilk növbədə öz təhlükəsizliyi haqqında ciddi düşünməlidir, çünki dünyada beynəlxalq hüquq normaları işləmir, "kim güclüdür, o da haqlıdır" əsas prinsip kimi bir çox ölkələr tərəfindən qəbul edilib. Bütün dünyada genişmiqyaslı silahlanma prosesi gedir. Belə olan halda biz hər an öz ərazi bütövlüyümüzü, suverenliyimizi, öz seçimimizi layiqincə müdafiə etmək üçün hazır olmalıyıq.

Reallıqdır ki, son beş il tarixi Zəfərimizi beynəlxalq və siyasi müstəvidə möhkəmləndirmək, təsdiqləmək istiqamətində atılan addımlarla zəngin olmuşdur. Azərbaycanın tarixi ədalətə, beynəlxalq hüquqa söykənən siyasətinə dəstək, Zəfərimizin yaratdığı reallıqların dünya miqyasında qəbulu Azərbaycanın xarici siyasət uğurlarında özünün aydın ifadəsini tapır. Xatırladaq ki, dövlətimizin başçısı İlham Əliyev xarici ölkələrdəki tədbirlərdə etdiyi çıxışlarda, habelə diaspor üzvləri və ictimaiyyətlə görüşlərində diqqəti tarixi Zəfərimizə və suverenliyimizin tam bərpasına yönəldərək bölgədə dayanıqlı sülhün təmin edilməsi, Ermənistanla münasibətlərdə yeni səhifənin açılması üçün ölkəmizin qarşı tərəfə ünvanladığı sülh təklifindən, onun reallaşması istiqamətində atılan addımlardan geniş bəhs edir. Dövlət başçısı Yeni il müraciətində diqqəti məhz bu reallıqlara yönəldərək bildirdi ki, bütün dünya bizim Zəfərimizi qəbul edir. Zəfər çalmış ölkə kimi biz məğlub edilmiş Ermənistana sülh əlimizi uzatdıq. Bu da bizim uzaqgörən siyasətimizin təzahürüdür. Biz əbədi müharibə aparmaq fikrində deyilik. Bizim başqa ölkələrin torpaqlarında gözümüz yoxdur.

Yeni ilin əsas hədəflərindən biri də, ötən ildə olduğu kimi, işğaldan azad edilmiş ərazilərimizdə genişmiqyaslı bərpa-quruculuq işlərinin aparılması, soydaşlarımızın doğma yurd-yuvalarına qayıdışıdır. Hazırda erməni işğalından azad edilmiş Qarabağ və Şərqi Zəngəzurda soydaşlarımızın yüksək səviyyədə yaşayışının təmin edilməsi üçün bütün zəruri işlər görülür. "Böyük qayıdış" proqramı çərçivəsində aparılan işlərin miqyası gündən-günə genişlənir. Bu, 30 il torpaq həsrəti ilə yaşayan xalqımızın necə qurucu olduğunun nümayişidir.

Prezident İlham Əliyev Yeni il müraciətində bildirdi ki, "Böyük qayıdış" proqramı uğurla icra edilir. Artıq 70 minə yaxın insan işğaldan azad edilmiş ərazilərdə yaşayır, çalışır, təhsil alır. Keçmiş köçkünlər 32 kənd, qəsəbə və şəhərdə yerləşiblər və onlar üçün ən gözəl şərait yaradılmışdır.

Yeni hədəflərdən biri də 2026-cı ildə Qarabağ və Şərqi Zəngəzurda taxılçılıq, heyvandarlıq, meyvə-tərəvəz və üzümçülük üzrə yeni təsərrüfatların qurulması, müasir infrastrukturun yaradılması və "ağıllı" kənd konsepsiyasının tətbiqidir. Eyni zamanda adları çəkilən iqtisadi rayonların zəngin potensialı daxili bazarın təminatı ilə bərabər, ixracyönümlü məhsul istehsalına da geniş imkanlar yaradacaq.

Dövlət başçısının mühüm çağırışlarla zəngin olan sözügedən müraciətində gələcəyimizə yönələn hədəflər genişliyi ilə öz əksini tapıb. "Biz hər zaman bərabərhüquqlu tərəfdaşlığın tərəfdarı olmuşuq. Biz heç vaxt imkan verməmişik ki, kimsə bizim işimizə qarışsın, kimsə bizə nəyisə diktə etsin, kimsə bizə yuxarıdan aşağı baxsın. Biz müqavimət göstərmişik, biz ciddi iradəmizi ortaya qoymuşuq, heç kimin qarşısında baş əyməmişik, heç kimə imkan verməmişik və verməyəcəyik ki, bizim işimizə qarışsın", - deyən Prezident qeyd etmişdir ki, tədricən hər kəs belə cəhdlərin sayının da kəskin azaldığını görür: "Çünki bunun heç bir mənası yoxdur. Bizə təzyiq etmək üçün heç kimin əlində heç bir vasitə yoxdur. Bizim güclü siyasi iradəmiz, xalq-iqtidar birliyi, hərbi gücümüz, iqtisadi potensialımız, enerji siyasətimiz, nəqliyyat imkanlarımız və digər amillər bizi o qədər gücləndirib ki, heç kim bizə öz iradəsini diktə edə bilməz".

*Rəhman SALMANLI,*
*"Azərbaycan"*

# Ötən il qazanılan uğurlar Azərbaycanın doğru yol ilə irəlilədiyini açıq şəkildə nümayiş etdirir



**"Yanvarın 5-də Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində 2025-ci ildə Azərbaycanın əldə etdiyi uğurlara, regionda və dünyada baş verən proseslərə ətraflı nəzər salaraq, qarşıda duran vəzifələri, hədəfləri açıqladı, bir sıra məsələlərlə bağlı ölkəmizin qətiyyətli mövqeyini ifadə etdi".**

Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin Gənclər və idman komitəsinin sədri Şahin İsmayılov deyib.

O qeyd edib ki, dövlətimizin başçısının müdrikliklə müəyyənləşdirdiyi praqmatik xarici siyasət kursu ötən illər ərzində ölkəmizə qlobal müstəvidə etibarlı strateji tərəfdaş imici qazandırıb. Bu baxımdan, 2025-ci il də Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi, regional əməkdaşlığın dərinləşməsi istiqamətində atılan qətiyyətli addımlarla yadda qaldı. Azərbaycan ilə Ermənistan arasında sülh sazişinin paraflanması ötən ilin ən önəmli hadisələrindəndir. Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, artıq bir neçə aydır ki, xalqımız sülh şəraitində yaşayır. Təbii ki, sülh ölkəmizin, regionun inkişafı üçün yaxşı perspektivlər açır.

Ötən il yerli televiziya kanallarına müsahibəsində Azərbaycan Prezidentinin "Zəngəzur dəhlizi açılmalıdır və açılacaqdır" dediyini xatırladan Şahin İsmayılov bildirib: "Ötən il ölkəmizin bu təşəbbüsünün reallaşması istiqamətində önəmli addımlar atıldı. ABŞ bu layihəni dəstəklədiyini ifadə etdi. Beləliklə, Azərbaycanın əsas hissəsi ilə Naxçıvan Muxtar Respublikası arasındakı coğrafi bağlantının yaradılması təmin olunacaq. Eyni zamanda ötən il Azərbaycan ilə ABŞ arasında münasibətlərin inkişafında yeni səhifə açıldı. Nümayəndə heyətlərinin qarşılıqlı səfərləri, strateji tərəfdaşlıq xartiyasının hazırlanması istiqamətində işlər, 907-ci düzəlişin dondurulması, eləcə də tamamilə ləğvi üzrə atılan addımlar əlaqələrin yüksək dinamik inkişafının göstəricisidir".

Azərbaycanın xarici siyasətində Çin ilə əlaqələrə xüsusi önəm verdiyini söyləyən komitə sədri qeyd edib ki, ötən il imzalanan Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə iqtisadi əlaqələrin sürətli inkişafının təzahürüdür. Ölkələrimiz arasında əmtəə dövriyyəsi rekord səviyyəyə çataraq 4 milyard dolları keçib və bu, Azərbaycanın tərəfdaş ölkələrlə ticarətində ən yüksək artım göstəricilərindən biridir. Həmçinin Çin şirkətlərinin Azərbaycana investisiya qoyuluşu əvvəlki dövrlərlə müqayisədə əhəmiyyətli dərəcədə artıb. Təbii ki, Orta dəhliz layihəsi üzrə əməkdaşlıq və onun perspektivləri əlaqələrin genişlənməsində xüsusi rola malikdir.

Şahin İsmayılov həmçinin bildirib ki, dövlətimizin başçısı müsahibəsində ölkəmizin mövcud iqtisadi vəziyyəti, maliyyə dayanıqlığı, iri infrastruktur layihələrinin maliyyələşdirilməsi və qarşıdakı dövr üçün iqtisadi prioritetlərinə nəzər saldı. Azərbaycanın iqtisadi siyasətinin əsas üstünlüyü ölkənin tam maliyyə müstəqilliyinə nail olmasıdır. Uzunmüddətli, düşünülmüş siyasətin nəticəsidir ki, bu gün Azərbaycan iqtisadiyyatı dinamik inkişafını təmin edir, ölkəmiz heç bir xarici maliyyə dəstəyindən, kreditlərdən və ya beynəlxalq təsisatların yardımından asılı deyil. Azərbaycanın strateji valyuta ehtiyatları xarici borcu 16-17 dəfə üstələyir və istənilən vaxt borcun tam ödənilməsi üçün kifayət qədər maliyyə imkanları mövcuddur. Ölkəmizin iqtisadi dayanıqlılığı beynəlxalq reytinq agentlikləri tərəfindən də təsdiqlənir. "Moody's" və "Fitch" reytinq agentlikləri Azərbaycanın kredit reytinqini investisiya səviyyəsini yeniləyərək proqnozu "sabit"dən "müsbət"ə yüksəldiblər.

"Ötən il qazanılan uğurlar bir daha Azərbaycanın dayanıqlı inkişaf konsepsiyasının uğurla həyata keçirildiyini, ölkəmizin doğru yol ilə irəlilədiyini açıq şəkildə nümayiş etdirir. Əminliklə deyə bilərik ki, Prezident İlham Əliyevin müdrik və qətiyyətli rəhbərliyi ilə Azərbaycan 2026-cı ildə də uğurlu inkişafını təmin edəcək və yeni nailiyyətlərə imza atacaq", - deyə deputat vurğulayıb.

## *Rumıniyalı ekspert Teodora MARİN:*

# "Azərbaycan Cənubi Qafqazda formalaşdırıcı gücdür"



**Rumıniyada tanınmış siyasi şərhçi və jurnalist Teodora Marin AZƏRTAC-a verdiyi müsahibədə 2025-ci ildə Cənubi Qafqazda, xüsusilə Azərbaycanda baş verən prosesləri təhlil edərək regionun yeni geosiyasi mərhələyə daxil olduğunu bildirib. Onun sözlərinə görə, son bir il ərzində formalaşan reallıqlar Azərbaycanın regional oyunçu statusunu aşaraq daha genişmiqyaslı, orta güc mövqeyinə yüksəldiyini aydın şəkildə göstərir.**

Teodora Marin vurğulayıb ki, bu transformasiyanın mərkəzində Azərbaycan Prezidenti İlham Əliyevin uzaqgörən, praqmatik və ardıcıl siyasəti dayanır. Onun fikrincə, Prezident İlham Əliyev postmünaqişə dövründə yalnız hərbi-siyasi qələbənin nəticələrini möhkəmləndirməklə kifayətlənməyib, eyni zamanda sülh, normallaşma və regional əməkdaşlıq gündəliyini strateji prioritetə çevirib.

Siyasi şərhçi qeyd edib ki, Azərbaycanla Ermənistan arasında sülh və normallaşma prosesinin davam etməsi, kommunikasiyaların açılması məsələsinin müzakirə olunması və ticarət əlaqələrinin bərpasına yönəlmiş addımlar Cənubi Qafqazda uzunmüddətli sabitlik üçün real zəmin yaradır. İddia edilən blokada narrativinin faktiki olaraq aktuallığını itirdiyi bir şəraitdə Bakının konstruktiv mövqeyi regionun beynəlxalq imicinə müsbət təsir göstərir.

Rumıniyalı ekspert AZƏRTAC-a müsahibəsində bildirib ki, Azərbaycanın xarici siyasət xətti ölkəyə böyük güclər arasında effektiv manevr imkanı qazandırıb. ABŞ, Avropa İttifaqı, Çin, Türkiyə və Avrasiya məkanı ilə paralel, eyni zamanda nəticəyönümlü münasibətlər Bakının regional və qlobal proseslərdə etibarlı tərəfdaş kimi qəbul olunmasını təmin edib. Xüsusilə Orta dəhliz çərçivəsində Azərbaycanın artan rolu Avropa ilə Asiya arasında alternativ və təhlükəsiz tranzit imkanlarını gücləndirib.

Teodora Marin enerji təhlükəsizliyi məsələsinə də toxunaraq qeyd edib ki, Prezident İlham Əliyevin təşəbbüsləri nəticəsində Azərbaycan Avropa üçün etibarlı enerji tərəfdaşına çevrilib. Enerji təchizatı ilə yanaşı, "yaşıl enerji" layihələri və Xəzər regionunda perspektivli təşəbbüslər Azərbaycanın strateji əhəmiyyətini daha da artırır və ölkəni regional enerji təhlükəsizliyinin əsas dayaqlarından biri kimi ön plana çıxarır.

Müsahibədə Azərbaycanın daxili inkişaf strategiyası da xüsusi vurğulanıb. Rumıniyalı şərhçi bildirib ki, azad edilmiş ərazilərdə həyata keçirilən genişmiqyaslı bərpa və yenidənqurma proqramları, müasir infrastrukturun qurulması və "Böyük qayıdış" strategiyası Azərbaycanın postmünaqişə dövrünə dair uzunmüddətli baxışının bariz nümunəsidir. Bu proseslər təkcə iqtisadi canlanmaya deyil, həm də sosial sabitliyin möhkəmlənməsinə xidmət edir.

Təhlükəsizlik məsələlərinə toxunan Teodora Marin qeyd edib ki, qlobal qeyri-sabitlik fonunda Azərbaycanın müdafiə qabiliyyətinin gücləndirilməsi və regional təhlükəsizlik təşəbbüslərində fəal iştirakı Bakının realist və çevik siyasətinin göstəricisidir. Onun sözlərinə görə, Azərbaycan regional əməkdaşlığı qarşıdurmadan üstün tutan yanaşma ilə Cənubi Qafqazda yeni təhlükəsizlik arxitekturasının formalaşmasına töhfə verir.

Nəticə olaraq, rumıniyalı ekspert bildirib ki, 2025-ci ildə Cənubi Qafqazda baş verən proseslər Azərbaycanın regional gündəliyi müəyyən edən əsas oyunçulardan birinə çevrildiyini sübut edir. Prezident İlham Əliyevin uzaqgörən siyasəti, daxili sabitlik və iqtisadi inkişafın vəhdəti Bakını Avropa, Avrasiya və türk dünyası arasında strateji körpü rolunda çıxış edən mühüm mərkəzə çevirib.

# Dayanıqlı inkişaf və makroiqtisadi sabitlik

## Ötən ilin yekunları qarşıdakı dövrün uğurları üçün etibarlı əsaslar yaradır

**Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə 2025-ci ilin Azərbaycan iqtisadiyyatı baxımından mühüm mərhələ olduğunu vurğulayıb və bu dövrün əhəmiyyətini xüsusi qeyd edib. 2025-ci il Azərbaycanın iqtisadi müstəqilliyinin və makro-fiskal dayanıqlılığının daha da möhkəmləndiyi mərhələ kimi xarakterizə olunur. Dövlətimizin başçısı bildirib ki, ölkə iqtisadiyyatı artıq hər hansı xarici kredit və maliyyə asılılığından tam azaddır, xarici borcun ÜDM-də payı tarixdə ən aşağı səviyyəyə, yəni 6,3-6,4 faizə enib.**

Strateji valyuta ehtiyatlarının 83-84 milyard ABŞ dolları səviyyəsində olması xarici borcu 16-17 dəfə üstələyir ki, bu da Azərbaycanın maliyyə təhlükəsizliyini təmin edən əsas amillərdəndir. Qızıl ehtiyatlarının artırılması ilə Dövlət Neft Fondunun əlavə olaraq 10 milyard ABŞ dollarından çox gəlir əldə etməsi ehtiyatların strukturunun şaxələndirilməsi baxımından mühüm nəticə kimi dəyərləndirilir. Eyni zamanda "Moody's" və "Fitch" beynəlxalq reytinq agentliklərinin Azərbaycanın kredit reytinqini investisiya səviyyəsində təsdiqləməsi və proqnozu sabitdən müsbətə yüksəltməsi ölkənin güclü makroiqtisadi mövqeyinin beynəlxalq səviyyədə tanındığını göstərir. Prezident qeyri-neft və qeyri-qaz sektorunda 11 ay ərzində 3,2 faiz ÜDM artımının qeydə alındığını, iqtisadi artımın əsas məqsədinin isə rəqəmlərdən daha çox əhalinin rifahının yüksəldilməsi, sosial infrastrukturun genişləndirilməsi və azad edilmiş ərazilərin bərpası olduğunu xüsusi vurğulayıb.

2025-ci ilin tarixə qovuşması iqtisadi nəticələrə təkcə statistik göstəricilər prizmasından deyil, həm də uzunmüddətli inkişaf baxımından daha geniş kontekstdə baxmağa imkan yaradır. Ötən il ərzində makroiqtisadi sabitliyin qorunması, xüsusilə qlobal iqtisadiyyatda davam edən qeyri-müəyyənliklər fonunda Azərbaycanın iqtisadi siyasətinin ehtiyatlı və balanslı aparıldığını göstərdi. Xarici amillərin məhdud təsiri və fiskal-intizamın saxlanılması iqtisadi mühit üçün əlverişli oldu.

2025-ci ilin yanvar-noyabr aylarında Azərbaycanda 116,3 milyard manatlıq ümumi daxili məhsul istehsal olunub. Bu, əvvəlki ilin eyni dövrü ilə müqayisədə 1,6 faiz artım deməkdir. Bu artım fonunda, görünən əsas müsbət məqam odur ki, iqtisadiyyatda dinamik inkişaf davam edir.

Qlobal enerji bazarlarında dəyişən reallıqlar fonunda Azərbaycanın qeyri-neft sektoru, sənaye sektorundakı göstəricilər də bu transformasiyanı əks etdirir. Yanvar-noyabr aylarında sənaye məhsulu istehsalı 57,5 milyard manat təşkil edib. Başqa cür desək, qeyri-neft sənayesində 4,8 faizlik artım qeydə alınıb. Bu, sənayenin daha dayanıqlı və diversifikasiya olunmuş struktur qazanmağa başladığını göstərir.

Xarici ticarət dövriyyəsindəki dinamika da iqtisadiyyatın yeni mərhələyə uyğunlaşma prosesində olduğunu göstərir. Yanvar-oktyabr aylarında xarici ticarət dövriyyəsi 39,9 milyard dollar təşkil edib. Real ifadədə azalma müşahidə olunsa da, bu, daha çox qlobal ticarətdə zəifləmə və enerji qiymətlərinin dəyişkənliyi ilə bağlıdır. Eyni zamanda qeyri-neft ixracının genişləndirilməsi üçün institusional və infrastruktur əsasların yaradılması davam edir ki, bu da orta müddətdə müsbət nəticələr vəd edir.

Hökumətin və beynəlxalq maliyyə institutlarının proqnozları gələcəyə nikbin baxmağa əsas verir. Real ÜDM artımının ortamüddətli perspektivdə, yəni 2026-2028-ci illərdə 3-3,5 faiz səviyyəsində olacağı, qeyri-neft sektorunun iqtisadiyyatda payının isə 71 faizə çatacağı gözlənilir. Strateji valyuta ehtiyatlarının 83 milyard dollardan artıq olması, dövlət borcunun aşağı səviyyədə qalması və büdcə siyasətinin balanslı aparılması Azərbaycanın makro-fiskal dayanıqlılığını möhkəmləndirən əsas amillərdəndir. 2025-2028-ci illəri əhatə edən iqtisadi və sosial inkişaf yanaşması göstərir ki, qarşıdakı dövrdə əsas prioritetlər qeyri-neft iqtisadiyyatının gücləndirilməsi, Qarabağ və Şərqi Zəngəzurun reinteqrasiyası, eləcə də "yaşıl enerji" və logistika imkanlarının genişləndirilməsidir. Sosialyönlü büdcə siyasəti və irimiqyaslı bərpa-quruculuq layihələri isə iqtisadi aktivliyi dəstəkləyən mühüm amillər olaraq qalır.

Ümumilikdə, 2025-ci ilin iqtisadi yekunları onu deməyə əsas verir ki, Azərbaycan iqtisadiyyatı yeni inkişaf mərhələsinə uğurlu keçid edir. Neft sektoruna əsaslanan inkişaf modelinin imkanları tədricən daha şaxələndirilmiş və dayanıqlı iqtisadi yanaşma ilə tamamlanır. Əldə olunan makroiqtisadi sabitlik bu keçidin sağlam əsaslar üzərində qurulduğunu göstərir. Məhz bu baxımdan 2025-ci ili yekun mərhələ deyil, gələcək artımın və keyfiyyətcə yeni struktur dəyişikliklərinin başlanğıcı kimi qiymətləndirmək olar. Qarşıdakı dövrdə əsas hədəf qeyri-neft sektorunda məhsuldarlığın, ixracyönümlülüyün və yüksək əlavə dəyərin daha da gücləndirilməsi olacaq. Bu istiqamətdə atılan addımlar isə Azərbaycanın uzunmüddətli iqtisadi dayanıqlığını təmin etmək üçün möhkəm zəmin yaradır.

Bu kontekstdə struktur transformasiyasının uğuru yalnız statistik artım göstəriciləri ilə deyil, eyni zamanda institusional islahatların dərinliyi, biznes mühitinin keyfiyyəti və insan kapitalının inkişafı ilə ölçülməlidir. Rəqabətqabiliyyətli iqtisadiyyatın formalaşması üçün qeyri-neft sektorunda məhsuldarlığın artması ilə yanaşı, innovasiya, texnoloji modernləşmə və özəl investisiyaların cəlb edilməsi həlledici əhəmiyyət daşıyır. Xüsusilə qlobal dəyər zəncirlərinə daha fəal inteqrasiya, ixracın strukturunun şaxələndirilməsi və yerli istehsalın beynəlxalq standartlara uyğunlaşdırılması qarşıdakı mərhələdə əsas çağırışlar sırasında olacaq. İqtisadi transformasiyanın sosial ölçüləri də diqqət mərkəzində saxlanılmalıdır. Dayanıqlı inkişafın təmin edilməsi üçün iqtisadi artımın sosial rifahda real artımla müşayiət olunması, məşğulluğun keyfiyyətinin yüksəldilməsi və regional inkişaf fərqlərinin azaldılması xüsusi önəm kəsb edir. Bu baxımdan sosialyönlü fiskal siyasətin və məqsədyönlü dövlət proqramlarının davam etdirilməsi iqtisadi islahatların cəmiyyət tərəfindən qəbulunu və uzunmüddətli effektivliyini gücləndirən əsas amillərdən biri olacaq.



Beləliklə, 2025-ci il Azərbaycan iqtisadiyyatı üçün həm cari nəticələrin dəyərləndirildiyi bir il, həm də gələcək inkişaf trayektoriyasının konturlarının daha aydın şəkildə formalaşdığı mərhələ kimi çıxış edir. Qarşıdakı dövrdə əsas vəzifə əldə olunan makroiqtisadi sabitliyi dərin struktur dəyişiklikləri ilə möhkəmləndirmək, iqtisadi artımı daha inklüziv və keyfiyyətcə yeni səviyyəyə daşımaqdır. Bu istiqamətdə atılacaq ardıcıl və məqsədyönlü addımlar Azərbaycanın orta və uzunmüddətli perspektivdə dayanıqlı inkişafı üçün mühüm imkanlar yaradır.

*Təhminə VERDİYEVA,*
*"Azərbaycan"*

# Azərbaycanı dünya siyasətində söz sahibinə çevirən Lider

## Güclü lider güclü dövlət qurur



**Bu, inkarolunmaz gerçəklikdir ki, artıq dünyada "böyük dövlət" anlayışını "böyük lider" həqiqəti əvəzləyib. Müasir dünyada dövlətlərin taleyini artıq xəritədə tutduğu yer, ərazisinin böyüklüyü və əhalisinin sayı müəyyən etmir. XXI əsrin reallığı birmənalıdır: dövlətləri böyük edən onlara rəhbərlik edən liderlərdir. Tarixi proseslər göstərir ki, güclü lideri olmayan "böyük dövlət"lər süquta uğrayır, doğru qərar verən liderlər isə kiçik imkanları böyük dövlət gücünə çevirir. Azərbaycan nümunəsi bu həqiqətin dünyada əyani sübutudur.**

Prezident İlham Əliyevin hakimiyyəti dövrü Azərbaycan tarixində dərin transformasiya mərhələsi kimi yadda qalacaq. Bu dövr yalnız məharətli siyasi idarəetmə mərhələsi deyil, dövlətin bütün sütunlarının yenidən qurulduğu, milli maraqların qlobal maraqlara tabe etdirilmədiyi, xalq-dövlət birliyinin möhkəmləndiyi bir mərhələdir.

Əgər bu gün insanları birləşdirən ideologiyadan daha çox liderlərin şəxsiyyəti, nüfuzu, intellektual səviyyəsi, biliyi, bacarığı və qətiyyətidir desək, heç də yanılmarıq. Bəzən ən böyük ideologiyalar belə səriştəsiz rəhbərlərin dilindən səslənəndə öz dəyərini itirmiş olur. Çox da uzağa getməyək. Müstəqilliyimizin ilk illərində Azərbaycan Prezidenti Kəlbəcərdən mülki əhalini təxliyə etmək üçün dost, qonşu dövlətlərdən bir dənə mülki helikopter belə ala bilməmişdi. Bu acı, amma unudulmayan bir həqiqətdir. Bu gün isə İlham Əliyevin liderliyi ilə Azərbaycan təkcə Türkiyənin deyil, bütün türk dünyasının əlaqələndirici mərkəzinə çevrilib. Bu gün təkcə xalqlarımızın ürəyi bir döyünmür - dövlətlərarası münasibətlər inkişaf edərək müttəfiqlik səviyyəsinə yüksəlib.

Tarix sübut edib ki, liderlərini səhv seçənlər, yaxud xalqını, vətənini və dövlətini şəxsi ambisiyalarından üstün tutmağı bacarmayan ölkələr böyük və ya kiçikliyindən, güclü və ya gücsüzlüyündən asılı olmayaraq, istər-istəməz məhv olmaq təhlükəsi ilə üzləşirlər. Naşı siyasətçilər ölkələrini öz taleləri ilə birlikdə fəlakətə sürükləyirlər. Liderlərin səhvləri, ambisiyaları və ya bacarıqsızlığı ucbatından min illər boyu qurulmuş şəhərlər viran qalır, xalqlar doğma yurdlarından didərgin düşür. İnsanlar min bir zəhmətlə yaratdıqları evlərini tərk edərək yad ünvanlara üz tutmaq məcburiyyətində qalırlar, vətənlərindən didərgin düşürlər.

Heç çəkinmədən qürurla deyə bilərik ki, Azərbaycan xalqının bu sarıdan bəxti gətirib. İlham Əliyev böyük lider olduğunu gördüyü işlərlə, yürütdüyü düşünülmüş, məqsədli siyasətlə təsdiq edib. Bunu təkcə biz demirik, bu fakt dünyanın birnömrəli paytaxtında, dünyanın birnömrəli sarayında, dünyanın birnömrəli lideri tərəfindən də təsdiqlənib. Bu, sadəcə bir diplomatik jest deyil, Azərbaycanın liderinə və seçdiyi siyasi kursa verilən beynəlxalq yüksək dəyərdir.

İlham Əliyev yalnız işğalçıya qalib gələn bir sərkərdə, ordusunu zəfərə aparan Ali Baş Komandan deyil, həm də ölkəsini iqtisadi dirçəliş yoluna çıxaran, hərbi qüdrətini gücləndirən, təmsil etdiyi dövlətə nüfuz qazandıran, ölkəsini dünyanın yeni düşüncə və güc mərkəzinə çevirməyi bacaran qurucu liderdir. O həm də iki yüz ilə yaxın bir dövrdə qonşu xalqlar arasında nifaq salan, qanlı müharibələr yaradan çürük bir ideologiyanın - məhz o saxta ideologiyanın əsiri olmuş mənfur düşüncəli insanların arzu və xəyallarını puç edən liderdir. Cənab İlham Əliyev öz adını tarixin qızıl səhifələrinə yalnız Azərbaycan torpaqlarını azad edən lider olaraq yazmadı, həm də yüz illər boyu yalan ideologiya ilə zəhərlənmiş erməni cəmiyyətini də xilas etdi.

Lider üçün ən böyük keyfiyyət vaxtında və düzgün qərar qəbul etmək bacarığıdır. İlham Əliyev məhz nəyi nə zaman və necə etməyi bilən, doğru və qətiyyətli qərarları ilə seçilən nadir dövlət başçılarındandır. Cənab İlham Əliyev "Qarabağ Ermənistandır" deyənlərə "Qarabağ Azərbaycandır" dedizdirən liderdir.

Bu gün Azərbaycan dünyada sülhün və sabitliyin tərəfdarı kimi tanınır. Prezident İlham Əliyevin uğurla həyata keçirdiyi sülh planına uyğun olaraq, illərdir düşmən olan xalqlar arasında sülh körpüsü salınır. Azərbaycan Ermənistana gedən tranzit yollarını açaraq bu ölkəyə neft məhsulları ixrac edir. Sözsüz ki, bu, qalibin mərhəməti, güclünün məsuliyyətidir.

Prezident İlham Əliyevin daxili siyasətinin əsas fəlsəfəsi sabitlik üzərində dayanan davamlı inkişafdır. Məhz bu sabitlik ölkəyə uzunmüddətli planlaşdırma, institusional islahatlar və sosialyönümlü dövlət modelini reallaşdırmaq imkanı verdi. İdarəetmədə şəffaflıq, elektron hökumət mexanizmləri, dövlət xidmətlərinin sadələşdirilməsi, korrupsiyaya qarşı sistemli mübarizə dövlət-vətəndaş münasibətlərini keyfiyyətcə yeni mərhələyə çıxardı. Dövlət artıq vətəndaş üçün əlçatmaz struktura yox, xidmət göstərən mexanizmə çevrildi.

Prezident İlham Əliyev dövrünün iqtisadi siyasətini bir prinsip üzərində qurdu: neft kapitalını insan kapitalına çevirmək. Neft gəlirləri infrastrukturun yenilənməsinə, ölkənin regionlarının inkişafına, sənayeləşməyə və sosial layihələrə yönəldildi. Qeyri-neft sektorunun inkişafı, sənaye parklarının və sənaye məhəllələrinin yaradılması, kənd təsərrüfatında subsidiyaların artırılması, ixracın şaxələndirilməsi iqtisadi müstəqilliyi möhkəmləndirdi. Azərbaycan indi yalnız xammal ixrac edən deyil, istehsal edən, tranzit imkanlarını strateji üstünlüyə çevirən ölkədir.

Cənab İlham Əliyevin sosial-iqtisadi siyasətinin ən mühüm nəticələrindən biri milyonlarla yeni iş yerinin yaradılmasıdır. Regionlarda açılan müəssisələr, aqroparklar, yol və enerji layihələri təkcə iqtisadi deyil, sosial ədalət funksiyasına xidmət edən amilə çevrilib. Əhalinin məşğulluq səviyyəsinin artırılması, özünüməşğulluq proqramları, kiçik və orta sahibkarlığın dəstəklənməsi insanların sosial asılılığını azaltmış, orta təbəqənin formalaşmasına real zəmin yaratmışdı.

Prezident İlham Əliyevin siyasətində sosial rifah prioritet istiqamətdir. Əməkhaqların, pensiyaların, müavinətlərin ardıcıl şəkildə artırılması, şəhid ailələri və qazilərə xüsusi diqqət, mənzil və tibbi təminat proqramları sosial dövlət modelinin real təzahürüdür. Bu siyasət göstərdi ki, Azərbaycan dövləti üçün yalnız iqtisadi göstəricilər deyil, insanın ləyaqətli yaşayışı da vacibdir.

Vətən müharibəsindən sonra Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan dövləti şəhid ailələrinə və qazilərə münasibətdə dünyada görünməyən sosial qayğı modeli ortaya qoydu. Torpaqlarımızın azadlığı uğrunda canını fəda edən şəhidlərin ailələri və sağlamlığını itirən qazilər dövlətin xüsusi diqqət mərkəzinə alındı. Bu sahədə sistemli və davamlı proqramlar həyata keçirildi. Minlərlə şəhid ailəsi və müharibə əlili yeni mənzillərlə təmin olundu, qazilərə minik avtomobilləri verildi, tibbi reabilitasiya, psixoloji dəstək və məşğulluq proqramları genişləndirildi. Özü də bu qayğı kampaniya şəklində yox, dövlət siyasəti səviyyəsində davamlı olaraq reallaşdırıldı və hər il yeni sosial paketlərlə daha da gücləndirildi. Prezident İlham Əliyevin "şəhid ailələri və qazilərə qayğı bizim vicdan borcumuzdur" prinsipi real addımlarla təsdiqləndi: pensiyalar və müavinətlər artırıldı, şəhid övladlarının təhsili, ailələrinin sosial təminatı xüsusi nəzarətə götürüldü. Azərbaycan bu yanaşma ilə dünyaya göstərdi ki, Vətən uğrunda can verən insan yalnız döyüş meydanında yox, dövlətin yaddaşında və qayğısında əbədidir. Bu siyasət həm sosial ədalətin təntənəsi, həm də xalq-dövlət birliyinin sarsılmazlığının ən gözəl nümunəsidir.

Uğurlu xarici siyasət nəticəsində Azərbaycan artıq təkcə nəqliyyat dəhlizlərinin kəsişdiyi məkan yox, həm də müxtəlif qütblərdə dayanan, hətta bir-biri ilə rəqabət aparan dövlətləri bir araya gətirən etibarlı ünvan və tərəfdaşdır.

Prezident İlham Əliyevin həyata keçirdiyi xarici siyasət kursu Azərbaycanın milli maraqlarına xidmət edir. Azərbaycan heç bir qlobal güc mərkəzinin orbitinə daxil olmadan hamı ilə bərabərhüquqlu münasibətlər qurub. Enerji təhlükəsizliyi sahəsində Avropanın etibarlı tərəfdaşına çevrilən Azərbaycan eyni zamanda Türk Dövlətləri Təşkilatının siyasi və strateji mərkəzlərindən biridir. Azərbaycan diplomatiyası artıq reaksiya verən yox, gündəm formalaşdıran diplomatiyadır.

Bu bir reallıqdır ki, İlham Əliyevin hakimiyyəti illərində Azərbaycan beynəlxalq münasibətlər sistemində fəal və təşəbbüskar aktor kimi tanındı. Birləşmiş Millətlər Təşkilatı, İslam Əməkdaşlıq Təşkilatı, Avropa Şurası, ATƏT, Türk Dövlətləri Təşkilatı, İqtisadi Əməkdaşlıq Təşkilatı, GUAM kimi nüfuzlu beynəlxalq qurumlarda Azərbaycanın mövqeyi Prezident İlham Əliyevin qətiyyətli siyasəti sayəsində prinsipial və açıq şəkildə ifadə olundu. Azərbaycan eyni zamanda Şanxay Əməkdaşlıq Təşkilatı ilə dialoq tərəfdaş kimi əməkdaşlıq edərək Avrasiya məkanında təhlükəsizlik, iqtisadi və siyasi dialoqun mühüm iştirakçısına çevrildi. Xüsusilə Qoşulmama Hərəkatına sədrlik dövründə Azərbaycan bu təşkilatı formal platformadan real siyasi gücə çevirdi, beynəlxalq ədalətsizliklərə qarşı açıq mövqe ortaya qoydu və inkişaf etməkdə olan ölkələrin səsini qlobal miqyasda eşidilən etdi. Türk Dövlətləri Təşkilatı çərçivəsində isə Azərbaycan birləşdirici mərkəz rolunu oynayaraq siyasi, iqtisadi və hərbi əməkdaşlığı müttəfiqlik mərhələsinə yüksəltdi. Bu təşkilatlarda Azərbaycanın mövqeyi heç vaxt kənardan diktə olunmadı - Prezident İlham Əliyev ölkəni bərabərhüquqlu tərəfdaş, etibarlı müttəfiq və sözünün sahibi olan dövlət kimi təqdim etdi. Məhz buna görə də Azərbaycan beynəlxalq təşkilatlarda obyekt yox, subyekt statusu qazandı.

Cənab İlham Əliyevin hakimiyyəti illərində Azərbaycan təkcə regional deyil, qlobal siyasi, humanitar və mədəni dialoq mərkəzinə çevrildi. Bakı artıq beynəlxalq aləmdə mühüm qərarların müzakirə olunduğu, fərqli siyasi qütblərin bir araya gəldiyi nüfuzlu platforma kimi qəbul edilir. Dünya dini liderlərinin qatıldığı Bakı Beynəlxalq Humanitar Forumu, mədəniyyətlərarası dialoqun qlobal ünvanına çevrilən Ümumdünya Mədəniyyətlərarası Dialoq forumları, onlarca dövlət və hökumət başçısının iştirak etdiyi Qoşulmama Hərəkatının Zirvə Görüşü, Avropanın enerji təhlükəsizliyi məsələlərinin müzakirə edildiyi yüksəksəviyyəli beynəlxalq toplantılar ölkəmizin artan qlobal nüfuzunun real göstəriciləridir. Azərbaycan İlham Əliyevin liderliyi ilə təkcə belə tədbirlərə evsahibliyi etmir, həm də qlobal gündəm formalaşdıran təşəbbüslərlə çıxış edir. Məhz bu səbəbdən müxtəlif siyasi sistemlərə, fərqli ideoloji baxışlara malik ölkələr Bakını etibarlı dialoq məkanı kimi seçirlər. Bu fakt sübut edir ki, Azərbaycan artıq dünyada baş verən prosesləri kənardan izləyən dövlət statusundan beynəlxalq münasibətlərin mərkəzində söz sahibi olan dövlət statusuna yüksəlib. Bu status təsadüfi deyil - bu, Prezident İlham Əliyevin düşünülmüş, balanslaşdırılmış və prinsipial xarici siyasət kursunun nəticəsidir.

Bu gün dünyanı karbohidrogen dövründən "yaşıl enerji" dövrünə keçidi daha çox düşündürür. Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın "yaşıl enerji" strategiyası təkcə iqtisadi və texnoloji seçim deyil, dünyada qlobal iqlim siyasətinə verilən siyasi cavab kimi formalaşdı və bu yanaşma ölkəmizin COP29-a evsahibliyi etməsi ilə beynəlxalq səviyyədə rəsmiləşdi. Azərbaycan artıq iqlim gündəminin kənarında dayanan müşahidəçi deyil, qlobal enerji keçidinə real töhfə verən ölkə kimi qəbul olunur. Birləşmiş Ərəb Əmirliklərinin "Masdar", Səudiyyə Ərəbistanının "ACWA Power" şirkətləri və digər aparıcı beynəlxalq tərəfdaşlarla imzalanmış milyardlarla dollar həcmində sazişlər Azərbaycanın COP öhdəliklərinin kağız üzərində deyil, konkret layihələrlə icra olunduğunu göstərir. Qarabağ və Şərqi Zəngəzurun "yaşıl enerji zonası" elan edilməsi, Xəzər dənizinin külək potensialının istismarı, günəş və külək-elektrik stansiyalarının inşası Azərbaycanın COP platformasında irəli sürdüyü çağırışların praktik təzahürüdür. COP29-un paytaxtda keçirilməsi Azərbaycanın enerji siyasətinə beynəlxalq etimadın göstəricisi olmaqla yanaşı, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizin karbohidrogen dövründən "yaşıl enerji" dövrünə keçidi idarə edən nadir dövlətlərdən biri olduğunu təsdiqlədi. Azərbaycan bu gün yalnız enerji ixrac edən ölkə deyil, iqlim məsuliyyəti daşıyan, enerji təhlükəsizliyi ilə ekoloji balansı uzlaşdıran və qlobal iqlim dialoquna real töhfə verən strateji mərkəz kimi çıxış edir.

Ərəb dövlətləri ilə bağlanan müqavilələr təkcə iqtisadi əməkdaşlıq deyil, eyni zamanda enerji təhlükəsizliyi, iqlim məsuliyyəti və geosiyasi tərəfdaşlıq anlamına gəlir. Bu gün Avropanın "yaşıl enerji" gündəliyində Azərbaycanın adı etibarlı tərəfdaş kimi çəkilirsə, bu, dövlət başçısının vaxtında verdiyi qərarların, uzaqgörən və cəsarətli enerji siyasətinin nəticəsidir. Azərbaycan artıq yalnız enerji ixrac edən deyil, enerji keçidini formalaşdıran dövlət kimi qəbul olunur.

Prezident İlham Əliyevin hakimiyyəti dövründə ordu quruculuğu Azərbaycanın dövlət siyasətinin strateji prioritetinə çevrildi və bu sahədə aparılan islahatlar nəticə etibarilə ölkənin hərbi gücünü keyfiyyətcə tamamilə yeni mərhələyə yüksəltdi. Ordunun strukturunda köklü dəyişikliklər aparıldı, müasir döyüş tələblərinə cavab verən qoşun növləri və xüsusi təyinatlı birliklər formalaşdırıldı, idarəetmə sistemi NATO standartlarına uyğunlaşdırıldı. Azərbaycan Ordusu ən müasir silah və texnika ilə təchiz olundu, pilotsuz uçuş aparatları, yüksək dəqiqliklə zərbə vasitələri, elektron müharibə sistemləri, raket və artilleriya kompleksləri arsenalın əsas tərkib hissəsinə çevrildi. Paralel olaraq, Prezident İlham Əliyevin siyasi iradəsi ilə milli hərbi sənaye kompleksi yaradıldı, müdafiə sənayesi müəssisələri quruldu və Azərbaycan tədricən silah alan ölkədən silah istehsal və ixrac edən ölkəyə çevrildi. Bu gün Azərbaycan hərbi sənayesi yalnız ordunun daxili tələbatını ödəməklə kifayətlənmir, eyni zamanda bir sıra müasir silah və hərbi texnikanı xarici bazarlara çıxarır. 44 günlük Vətən müharibəsində əldə olunan tarixi Zəfər uzunmüddətli ordu quruculuğu siyasətinin real nəticəsi, cənab İlham Əliyevin Ali Baş Komandan kimi formalaşdırdığı güclü ordunun praktik təsdiqi oldu. Bu tarixi qələbə yalnız torpaqlarımızın azadlığı deyil, ədalətin bərpası idi. Bu gün Qarabağda və Şərqi Zəngəzurda dünyada misli görünməyən bərpa-quruculuq işləri aparılır. Dağıdılmış şəhərlər, kəndlər bərpa edilir, yollar, hava limanları, enerji infrastrukturu qurulur. Əhalinin doğma yurdlarına qayıdışı planlı şəkildə həyata keçirilir. Bu, bərpaolunan şəhər və kəndlərimizdə yenidən məskunlaşma deyil - dövlətin öz torpaqlarına qayıdış fəlsəfəsidir.

Dövlət başçısı qalib lider kimi sülh yolunu seçib. Ermənistanla sülh təşəbbüsü, kommunikasiyaların açılması, iqtisadi inteqrasiya çağırışları Azərbaycanın regionda sabitliyin əsas təminatçısına çevrildiyini sübut edir. Bu, gücsüzlərin deyil, güclülərin edə bildiyi siyasətdir.

Prezident İlham Əliyevin sərkərdəliyi ilə biz elə möhtəşəm Zəfər qazandıq ki, bir dəfə ucalan bayrağımızın enməzlik fəlsəfəsini düşmən də qəbul etdi və "Qarabağ Azərbaycandır" dedi. Cənab İlham Əliyev Azərbaycanın ərazi bütövlüyünü bərpa, dövlətimizin suverenliyini tam təmin edən dövlət başçısıdır.

Azərbaycan bayrağı bu gün təkcə bir dövlətin rəmzi deyil. O, bir siyasi fəlsəfənin, bir liderlik modelinin və bir tarixi ədalətin simvoludur. Bu gün bu, müqəddəs bayraq yalnız hündür dirəklərdə dalğalanmır. Ruhumuzdan, qanımızdan, canımızdan qiymətli olan işğaldan azad olunmuş torpaqlarımızda, qurulan şəhərlərdə, doğma yurdlarına qayıdan insanların gözlərində, dövlətin artan nüfuzunda dalğalanır. Bu bayraq sənindir, Vətən!

Prezident İlham Əliyevin hakimiyyəti dövrü Azərbaycan tarixində güclü dövlətin güclü liderlə formalaşdığı dövr kimi qalacaq. Bu dövr sabitlik, inkişaf, sosial ədalət, qələbə və gələcəyə inam dövrüdür. Bu, böyük liderin imzası olan bir tarixdir.

***Elşən QƏNİYEV,***
***"Azərbaycan"***

## Azərbaycanla ABŞ arasında olan münasibət hər istiqamətdə, ən yüksək formada davam edir

**"Azərbaycan Prezidenti İlham Əliyevin yerli televiziya kanallarına verdiyi müsahibəsində əsas məqamlardan biri ABŞ-Azərbaycan münasibətləri ilə bağlı idi. Səsləndirilən fikirlər bir daha göstərir ki, Azərbaycan xarici siyasətini qarşılıqlı hörmət, suverenlik bərabərhüquqlu dövlət kimi əməkdaşlıq üzərində qurur".**



Bunu AZƏRTAC-a açıqlamasında Milli Məclisin Müdafiə, təhlükəsizlik və korrupsiya ilə mübarizə komitəsinin sədri Arzu Nağıyev bildirib.

Onun sözlərinə görə, ölkəmiz əməkdaşlıq formatını təzyiq və diktə ilə deyil, milli maraqlara cavab verən, eyni zamanda qarşılıqlı fəaliyyət prinsiplərinə uyğun davam etdirməyin tərəfdarıdır.

"Məlum məsələdir ki, avqust ayında ABŞ-də keçirilən görüşlərdə Ermənistan-Azərbaycan münaqişəsinə son qoyulması, iki ölkə arasında kommunikasiyaların açılması, bununla əlaqəli olaraq ABŞ Prezidentinin verdiyi zəmanət çox böyük əhəmiyyət kəsb edir. Azərbaycan regional təhlükəsizliyə və beynəlxalq kommunikasiyaya verdiyi töhfə ilə Cənubi Qafqazda yeni geosiyasi reallıq formalaşdırıb. Zəngəzur dəhlizi Türkiyə və Mərkəzi Asiya ilə inteqrasiyanı gücləndirən çox ciddi strateji layihədir. Bu məsələ siyasi təsir aləti kimi deyil, iqtisadi inteqrasiya və nəqliyyat-kommunikasiya sabitliyinin artırılması baxımından mütləq şəkildə dəyərləndirilməlidir və Prezident İlham Əliyev buna çox mühüm əhəmiyyət verir. Azərbaycan bu layihəni yalnız öz milli maraqları üçün deyil, iqtisadi inkişaf, regional əlaqələr və təhlükəsizliyin möhkəmlənməsi baxımından qiymətləndirir", - deyə komitə sədri bildirib.

Arzu Nağıyev onu da əlavə edib ki, Azərbaycan Prezidenti öz çıxışında ABŞ ilə balanslı siyasət yürütməsini, layihələrdə suveren maraqların prioritet olmasını da qeyd edib: "Prezident 907-ci düzəlişlə bağlı məsələyə də münasibət bildirib. Dövlət başçısı vaxtilə Bayden, Blinken hakimiyyəti dövründə ABŞ-nin Azərbaycana olan qərəzli mövqeyindən danışıb. ABŞ-Azərbaycan münasibətlərində əsas şərt bərabərhüquqlu dialoq və qarşılıqlı hörmət prinsipinin olmasıdır. Düşünürəm ki, bu gün Azərbaycanla ABŞ arasında olan münasibət diplomatik və diaspora səviyyəsində hər istiqamətdə, ən yüksək formada davam edir və burda parlamentlərarası, dövlətlərarası və hökumətlərarası münasibətlərimiz çox mühüm rol oynayır".

## *Akkan SUVER:* "Bu gün Qafqaz sülh və sabitliyin rəmzinə çevrilib"

**"44 günlük Vətən müharibəsi, əslində, bir sülh əməliyyatı idi. Qarabağ Zəfərindən sonra Qafqaz coğrafiyasına sülh və sabitlik gəldi. Dünənədək atəş yeri olan bu bölgə indi quruculuq mərhələsindədir. İnanıram ki, növbəti beş ildən sonra Şuşa, Ağdam, Füzuli tanınmaz dərəcədə gözəl, müasir şəhərlər olacaq. Deməli, Qafqaz coğrafiyasına davamlı sabitlik və sivilizasiya gəlib. Həyata keçiriləcək Zəngəzur dəhlizi ilə də bölgə dünya ilə inteqrasiya olunacaq. Daha açıq desək, Qafqaz coğrafiyası Asiya və Avropa ilə birləşəcək".**




AZƏRTAC xəbər verir ki, bu fikirlər Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin rəhbəri professor Akkan Suverin Türkiyənin "Gözlem" qəzetində dərc olunan "Beş ilin hesabatı" başlıqlı məqaləsində yer alıb. Yazıda Qarabağ Zəfərindən sonra bölgədə formalaşan geosiyasi vəziyyəti təhlil edən professor sülh şəraitində rifah və əmin-amanlıq formalaşdığını vurğulayıb: "Bu yeni vəziyyət bölgənin deyil, bölgə xaricindəki ölkələrin maraqlarına uyğun gəlmir. Dərhal əlavə etmək istəyirəm ki, Ermənistan dövləti həqiqətin fərqindədir. Azərbaycanın öz torpaqlarına gətirdiyi sülhü və sabitliyi görür. Bu gün bölgə nəfəs alır. Azərbaycan Prezidenti İlham Əliyevin yüksək rəhbərliyi ilə Qafqaz coğrafiyasında yaradılan sülh və sabitlik mühitinin aradan qaldırılması üçün bu günlərdə bəziləri yalanları özlərinə yol göstəricisi edirlər. Dünən susaraq baş verən qətliamları seyr edənlər bu gün ağlagəlməz yalanlar yayırlar. Ermənistan dövləti illər əvvəl yol verilən səhvin fərqindədir. O səhv Ermənistana yoxsulluq, tənhalıq və səfalət gətirdi. Məncə, bugünkü erməni rəhbərliyi bu yanlışın gec də olsa fərqinə varıb. Bu fərqindəlik Qərbin bəzi mərkəzlərini narahat edir".

Avropa İttifaqının uzun illər Ermənistan-Azərbaycan münaqişəsində izləyici rol oynadığını vurğulayan Akkan Suver bildirib: "Halbuki İlham Əliyev və onun silahdaşları təxminən dörddəbir əsr bu problemi danışıqlar yolu ilə, masa arxasında həll etmək istədilər. Nəticədə Azərbaycan faktiki olaraq özünümüdafiə mövqeyi tutdu və görülməli olanı gördü. Bu uğurlu əməliyyata mane olmaq istəsələr də, buna nail ola bilmədilər. Dünən erməni vəhşiliklərini görməzlikdən gələnlər bu gün əldə olunan sülhdən narahatdırlar. Halbuki artıq beş ildir bölgədə sabitlik hökm sürür. Silah səslərini tikinti texnikalarının səsi əvəz edib. Azərbaycan Prezidenti dürüst, səmimi və humanist siyasətini davam etdirir. Evini, bağını tərk etməyən heç bir erməniyə "get" deyilməyib".

Məqalədə qeyd edilib ki, illər əvvəl erməni komitəçilərinin törətdiyi soyqırımı və işğal dövründə yaşanan əzablar unudulmayıb. Onların əsas qorxusu baş verən bu soyqırımı və vəhşilikləri Azərbaycanın dilə gətirməsi, bu haqsızlıqların beynəlxalq məhkəmələrdə araşdırılaraq üzə çıxarılmasıdır. Avropa o günləri izləyib, daha sonra isə danışmaqla illəri hədər edib. Beş il əvvəl həyata keçirilən sülh əməliyyatı ilə bu gün Qafqaz coğrafiyasında insanlıq layiq olduğu sivilizasiyanı sülh içində yaşayır. Azərbaycan dünən haqlı idi, bu gün isə haqlılığının gücü ilə Qafqaz sülh və sabitliyin rəmzinə çevrilib. Narahatlığın mənbəyi isə münaqişənin bitmiş olmasıdır.



# Dərin təhlil, obyektiv yanaşma, ədalətli mövqe

**Prezident İlham Əliyevin ilin başlanğıcında yerli mediaya müsahibə verməsi və həm ölkə, həm də beynəlxalq gündəmi dərindən təhlil etməsi ənənəvi hal alıb. Bu il də istisna olmadı və yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsi zamanı dövlət başçısı ötən ilin yekunlarını dəyərləndirdi, ölkənin daxili və xarici siyasəti, mühüm regional və qlobal hadisələr, aktual məsələlərlə bağlı ictimaiyyətə ətraflı məlumat verdi.**

Hər dəfəsində olduğu kimi, Prezidentin verdiyi bu müsahibə bir daha göstərdi ki, o, ölkədə baş verən hadisələrə yaxından və hərtərəfli şəkildə bələddir. İctimaiyyəti maraqlandıran məsələlər barədə dolğun məlumat verən, yeni dövrün tələblərinə uyğun yaranmış problemlərdən çıxış üçün adekvat həll yolları göstərən dövlət başçısının müsahibəsini həm də ölkəmizin qarşısında duran gələcək çağırışlar üçün strateji yol xəritəsi də adlandırmaq olar: "Artıq sülh dövrüdür, quruculuq dövrüdür. Biz bu dövrü yaşayırıq. Biz hamımız cəmi beş ay əvvələdək bunu bəlkə də axıra qədər dərk etməmişik: Sülh şəraitində yaşamaq nə deməkdir? Amma eyni zamanda yenə də qayıdıram danışdığımız məsələyə. Hər an ayıq olmalıyıq, güclü olmalıyıq. Hər an öz torpağımızı müdafiə etmək üçün güclü olmalıyıq, hazır olmalıyıq və əminəm ki, bundan sonra heç vaxt bir qarış torpağımız heç kimin tapdağı altına düşməyəcək. Bunun üçün həm güc var, həm iradə var, xalqın birliyi var. Güclü Azərbaycan dövləti var".

### Bundan sonra xalqımız sülh şəraitində yaşayacaq

Başdan sona qədər səmimi atmosferdə keçən müsahibədə diqqətçəkən əsas məqam Prezident İlham Əliyevin şəxsi siyasi strateq məziyyətinə uyğun olaraq jurnalistlərin suallarına tutarlı faktlara və düzgün məntiqə əsaslanan cavablar verməsi oldu. Bu onu göstərdi ki, Prezident İlham Əliyev qlobal siyasi prosesləri yalnız izləməklə kifayətlənmir, eyni zamanda onları dərindən analiz edir və baş verən proseslərin ölkəmizin, xalqımızın milli mənafelərinə uyğun formada cərəyan etməsi üçün böyük əzm nümayiş etdirir və buna qətiyyətlə nail olur.

Ərazi bütövlüyünü və suverenliyini öz gücünə bərpa edən Azərbaycanın bu qələbəsini qlobal arenada siyasi müstəvidə qəbul etdirməsinin özü ölkəmizin taleyində tamamilə yeni tarixin başlanğıcı kimi dəyərləndirilməlidir. Bu ölçüyəgəlməz miqyaslı qələbənin qazanılmasında Prezident İlham Əliyevin şəxsi səyləri dayanır. Ötən il 8 avqust tarixində Vaşinqton Sammitində sülh sazişi mətninin paraflanması və digər mühüm razılaşmalar əldə edilməsi de-fakto regionda sülhü təmin edib.

Yerli televiziya kanallarına müsahibəsində dövlət başçısı ölkəmiz adına əldə olunan tarixi uğurlardan bəhs edərək, Azərbaycanın döyüş meydanında əldə etdiyi parlaq Qələbəyə siyasi müstəvidə və dünyanın birnömrəli ofisində siyasi möhür vurduğunu deməsi də bunun təsdiqi idi: "Bu, təbii ki, müstəqillik tariximizdə yaddaqalan hadisələrdən biri olacaq, bəlkə də birincilər sırasında olacaq. Bu nöqteyi-nəzərdən keçən ili ölkəmiz üçün, xalqımız üçün çox uğurlu və tarixi il saymaq olar və əminəm ki, bundan sonra Azərbaycan xalqı sülh şəraitində yaşayacaq".

Prezident onu da əlavə etdi ki, cəmiyyətdə mövcud olan xoş əhval-ruhiyyə, sabitliyə və təhlükəsizliyə olan inamın artması, bütün bu amillər, imkan verir ki, uğurla irəliyə addımlayaq və ölkə qarşısında duran bütün vəzifələri bundan sonra da həll edək.

### "Mənim üçün Azərbaycan məhz o torpaq idi"

Yanvarın 5-də verdiyi müsahibə dövlət başçısının cəmiyyəti narahat edən məsələlərə yaxından bələd olduğunu, ölkə vətəndaşlarının gündəlik qayğılarının daim diqqət mərkəzində saxlanıldığını bir daha göstərdi. Bu yanaşma Prezidentin cəmiyyətlə daim təmasda olduğunu, onları narahat edən problemlərin həlli istiqamətində siyasət yürütdüyünü aydın şəkildə ortaya qoydu.

"Biz tezliklə Bakı, Sumqayıt və Xırdalanın, bütün Abşeron yarımadasının su-kanalizasiya sistemləri üzrə irimiqyaslı proqram qəbul edəcəyik, çünki buna tələbat böyükdür" deyən dövlət başçısı əlavə etdi ki, kənd təsərrüfatını daha çox su ilə təmin etmək məqsədilə yeni kanalların tikintisi, həmçinin əlbəttə ki, Bakının nəqliyyat problemləri həll olunacaq.

Bütün bunlar cəmiyyət üçün əhəmiyyətli olan məsələlərə şəxsi həssaslıqla yanaşıldığını göstərən nümunələrdir. Ümumiyyətlə, müsahibəsində istər siyasi, iqtisadi, sosial, mədəni olsun, bütün mövzuları ən xırda detallarına kimi əhatə etməsi Prezident İlham Əliyevin dərin məlumatlılığından xəbər verirdi.

Ölkə gündəmində olan məsələləri təhlil edən Prezident müsahibəsində yalnız rəsmi mövqeyini ifadə etmədi, həmçinin baş verən hadisələrlə bağlı səmimi hisslərini açıq şəkildə bildirdi.

Bu mənada torpaqla bağlı ünvanlanan suala verdiyi cavab həm də Prezident İlham Əliyevin Qarabağın, ümumiyyətlə, torpağımızın hər qarışının onun üçün hansı əlahiddə məqamda olduğunun duyğu yüklü ifadəsi idi: "Vətən müharibəsi dövründə torpaq mənim üçün hər azad edilmiş kəndin timsalında, necə deyərlər, ortalığa çıxırdı və hər bir şəhidin şəhid olduğu yer torpaq idi mənim üçün... Hər dəfə bayrağımız bir kəndə, şəhərə sancılanda mənim üçün Azərbaycan məhz o torpaq idi".

Prezident müsahibəsində beynəlxalq proseslərə dair səsləndirdiyi fikirlərlə qlobal siyasi hadisələri yaxından izlədiyini və onları dərindən analiz etdiyini ortaya qoydu. Dünyada gedən geosiyasi dəyişikliklər, qlobal münaqişələr və beynəlxalq əlaqələrlə bağlı dəqiq faktlara əsaslanan və məntiqli müqayisələrə dayanan şərhlər də bunun təsdiqidir. Baş verənləri Azərbaycanın milli maraqları baxımından dəyərləndirən və düzgün strateji xətt müəyyənləşdirən Prezident İlham Əliyev müsahibəsində dedi: "...Öz təhlilimi apararaq görürəm ki, bugünkü dünyada beynəlxalq hüquq deyilən məsələ yoxdur. Bunu hər kəs gərək unutsun. Güc var, əməkdaşlıq var, müttəfiqlik var, qarşılıqlı dəstək var. Təbii ki, sən gərək özün əmin olasan ki, haqq yolundasan. Heç bir ölkə, heç bir rəhbər nahaq iş görməməlidir, heç bir ölkənin ərazi bütövlüyünə göz dikməməlidir, heç bir ölkəni işğal etməməlidir. Bizim böyüklüyümüz və müdrikliyimiz, eyni zamanda məsuliyyətimiz göz önündədir".

Təkcə bu iqtibas ölkəmizin liderinin Azərbaycanın gələcəyi ilə bağlı dəqiq strateji yanaşmaya, eyni zamanda dünyada cərəyan edən prosesləri obyektiv və düzgün qiymətləndirərək doğru nəticələr çıxarmaq və gələcəyə dair dəqiq proqnozlar vermək bacarığına malik olmasını özündə ehtiva edir.

Bu baxımdan Azərbaycan Prezidentinin yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibənin ölkə daxilində olduğu kimi, beynəlxalq müstəvidə də geniş rezonans doğurması, buradakı prinsipial açıqlamaların beynəlxalq KİV-də işıqlandırılması da təsadüfi deyildi. Bütün bunlar Prezident İlham Əliyevin fikirlərinin həm qlobal gündəmlə səsləşdiyini, həm də Azərbaycanın qətiyyətli mövqeyinin beynəlxalq səviyyədə mühüm əhəmiyyətə malik olduğunun təzahürüdür.

***Yasəmən MUSAYEVA,***
***"Azərbaycan"***

# Azərbaycan bütün reallıqları vaxtında və düzgün qiymətləndirir

**Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə səsləndirilən fikirlər Azərbaycanın son illərdə nümayiş etdirdiyi siyasi yetkinliyin, məsuliyyətli dövlət davranışının və humanist yanaşmanın məntiqi davamı kimi diqqət çəkir.**

Müharibədən sonra yaranmış reallıqlar fonunda ölkənin intiqam və dağıdıcılıq yolu deyil, ədalət və uzunmüddətli sülh strategiyasını seçməsi böyük müdrikliyin göstəricisidir. Tarixi ədalətsizliklərə, işğal illərində törədilmiş ağır cinayətlərə baxmayaraq, qarşı tərəfə kollektiv cəza tətbiq edilməməsi Azərbaycanın mənəvi üstünlüyünü təmin edən əsas amillərdən biridir. Güc imkanlarının mövcud olduğu halda ondan istifadənin məhdudlaşdırılması beynəlxalq hüquqa, humanitar dəyərlərə və gələcək nəsillərin təhlükəsizliyinə hesablanmış siyasi seçimdir. Bu yanaşma bir daha sübut edir ki, dövlətin gücü təkcə hərbi imkanlarla deyil, həm də məsuliyyət hissi və strateji səbirlə ölçülür. Məhz bu mövqe regionda qarşıdurmanın dərinləşməsinin qarşısını aldı və müharibədən sonrakı mərhələdə sabitlik üçün real zəmin formalaşdırdı.

Bununla yanaşı, dövlət başçısının müsahibəsində təhlükəsizlik məsələlərinə dair yer alan açıqlamalar müasir beynəlxalq münasibətlər sistemində praqmatik yanaşmanın zəruriliyini ortaya qoyur. Qlobal qeyri-sabitlik fonunda hər bir dövlətin öz müdafiə qabiliyyətini gücləndirməsi obyektiv reallıqdır və Azərbaycan bu reallığı vaxtında və düzgün qiymətləndirir. Türkiyə ilə rəsmi müttəfiqlik çərçivəsində qurulan hərbi əməkdaşlıq regionda sabitli-



yin əsas dayaqlarından biri kimi çıxış edir. Eyni zamanda türk dövlətləri arasında bu istiqamətdə əməkdaşlığın genişləndirilməsi təşəbbüsü qarşılıqlı etimadın və ortaq təhlükəsizlik anlayışının gücləndirilməsinə xidmət edir. Burada məqsəd yeni hərbi blok yaratmaq deyil, mövcud sahələrdə olduğu kimi, təhlükəsizlik müstəvisində də koordinasiyanı artırmaqdır. Energetika, nəqliyyat və ticarət sahələrində formalaşmış uğurlu əməkdaşlıq modeli göstərir ki, bu cür yanaşma həm rasionaldır, həm də regional maraqlara uyğundur. Təhlükəsizlik sahəsində əməkdaşlıq da məhz bu məntiqə əsaslanaraq ümumi dayanıqlığı möhkəmləndirə bilər.

Prezidentin müsahibəsinin ən mühüm məqamlarından biri isə dövlət siyasətinin mərkəzində Azərbaycan vətəndaşının dayanması ilə bağlı vurğulanan prinsipial mövqedir. Bu yanaşma uzun illərdir həyata keçirilən sosial-iqtisadi islahatların ideoloji əsasını təşkil edir. Sosialyönümlü və investisiyayönümlü siyasət arasında qorunan həssas balans ölkənin davamlı inkişafını təmin edən başlıca amildir. Populizmdən uzaq durmaq, reallığa əsaslanan vədlər vermək və cəmiyyətə açıq məlumat təqdim etmək dövlət-vətəndaş münasibətlərində etimadı gücləndirir. Son 20 ilin statistik göstəriciləri, xüsusilə minimum əməkhaqqının dəfələrlə artması bu siyasətin konkret nəticələr verdiyini təsdiqləyir. Bu faktlar göstərir ki, həyata keçirilən siyasət şüar xarakteri daşımır, real həyat şəraitinin yaxşılaşdırılmasına yönəlib. Nəticə etibarilə Prezident İlham Əliyevin müsahibəsində səsləndirilən fikirlər Azərbaycan dövlətinin güc, məsuliyyət və sosial ədalət prinsiplərini uzlaşdıran idarəçilik modelinə malik olduğunu bir daha nümayiş etdirir.

***Natiq QULUZADƏ,***
***YAP Zəngilan rayon təşkilatının sədri***

# *Türk dünyasında yeni strateji dövr:* hərbi müstəvidə həmrəylik labüddür

**Türk Dövlətləri Təşkilatına (TDT) üzv ölkələrin ortaq hərbi əməkdaşlığı və mümkün hərbi birliyi təşkilatın siyasi və strateji gücünün artması baxımından mühüm əhəmiyyət daşıyır. TDT-yə üzv ölkələrin ortaq təhlükəsizlik mexanizmləri yaratması bölgədə sabitliyin qorunması və xarici təhdidlərə qarşı birgə reaksiya verməsi üçün əsasdır.**

Türk dövlətlərinin orduları arasında birgə təlimlərin keçirilməsi, texniki və taktiki səviyyədə uyğunluğun artırılması, NATO modellərinə uyğun ortaq hərbi standartların yaradılması əməkdaşlığı daha funksional edir. Güclü hərbi əməkdaşlıq TDT-nin beynəlxalq nüfuzunu artırır, təşkilatın bölgədə və dünyada strateji aktor kimi çıxış etməsinə şərait yaradır. TDT ölkələrinin hərbi texnologiyalar və müdafiə sənayesi sahəsində ortaq layihələrə imza atması yerli istehsalın artırılmasına və asılılığın azalmasına səbəb ola bilər.

Yanvarın 5-də Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində jurnalistin sualına cavab olaraq bu məsələnin önəmini yenidən xatırladıb. Dövlət başçısı vurğulayıb ki, o, türk dövlətləri çərçivəsində keçirilən bir çox görüşdə hərbi əməkdaşlığın əhəmiyyətini gündəmə gətirib. Prezident qeyd edib ki, dünyadakı proseslər o istiqamətdə gedir ki, hər bir ölkə ilk növbədə öz hərbi potensialını gücləndirməlidir, təhlükəsizliyini gücləndirməlidir: "Hətta Yeni il bayramı ilə əlaqədar Azərbaycan xalqına təbrikimdə də demişdim, bugünkü dünya belədir: kim güclüdür, o da haqlıdır. Mənim sözlərim indi demək olar ki, həftəlik formatda bu və ya digər bölgələrdə təsdiqlənir. Qəbələdəki Zirvə Görüşündə mən bu tezisdən daha da irəli gedərək təklif etdim ki, bu il Azərbaycanda üzv ölkələrin birgə hərbi təlimləri keçirilsin. Hesab edirəm ki, buna da ehtiyac var. Biz üzv ölkələrlə ikitərəfli formatda hərbi təlimlər keçiririk. Təbii ki, ən çox Türkiyə ilə, amma digər ölkələrlə də. Ancaq birgə hərbi təlimlərin keçirilməsində həm böyük rəmzi məna ola bilər, eyni zamanda praktik nöqteyi-nəzərdən buna ehtiyac var".

Dövlət başçısı diqqətə çatdırıb ki, Azərbaycan Türkiyə ilə hərbi müttəfiqlik formatında əməkdaşlıq edir. Ancaq yaxşı olardı ki, ailəmiz olan türk dövlətləri bu istiqamətdə də əməkdaşlığa başlasınlar: "Bunu təklif etməklə mən heç də hansısa hərbi təşkilatın yaradılmasını təklif etmirəm. Bəziləri bunu belə yozurlar. Yox, bu, tamamilə əsassızdır. Biz indi sadəcə olaraq energetika sahəsində, nəqliyyat sahəsində, ticarət, investisiya qoyuluşu, bir çox sahədə əməkdaşlıq edirik. Nə üçün bu sahədə də əməkdaşlıq etməyək? Nəzərə alsaq ki, bu gün bütün ölkələr üçün bu, birnömrəli məsələdir, ona görə təklifim qüvvədədir. Biz indi mesajlarımızı müxtəlif diplomatik kanallarla göndəririk. Əgər ümumi razılıq olarsa, onda biz bu il bu təlimləri görəcəyik".

Xəzər Universitetinin Tarix və arxeologiya departamentinin müdiri, tarix elmləri doktoru, siyasi şərhçi Telman Nüsrətoğlu "Azərbaycan" qəzetinə açıqlamasında deyib ki, cənab Prezident yerli televiziya kanallarına müsahibəsində türk birliyi və Azərbaycanın milli kimliyi ilə bağlı olduqca vacib və maraqlı fikirlər bəyan etdi. Dövlət başçımızın diqqət yönəltdiyi kimi hazırda önəmli məqamlardan biri də Türk Dövlətləri Təşkilatına üzv ölkələrin hərbi və təhlükəsizlik sahəsində əməkdaşlığıdır: "Dünyada birnömrəli məsələ ölkələrin təhlükəsizliyinin təmin olunmasıdır. Ölkələrin müdafiəsi, milli müstəqillik və dövlətçiliyin qorunması ən ümdə missiyadır. Türk Dövlətləri Təşkilatına üzv ölkələrin siyasi, iqtisadi, mədəni və digər sahələrdə əməkdaşlıq etdikləri, inteqrasiyanı dərinləşdirdikləri halda hərbi sahədə əməkdaşlığı dərinləşdirməməsi bir çatışmazlıqdır. Dövlət başçısının da bəyan etdiyi kimi, türk ölkələrinin birgə hərbi əməkdaşlığı, mütəmadi təlimlər keçirməsi labüddür. Cənab Prezident bunu bir neçə önəmli tədbirdə gündəmə gətirib".

T.Nüsrətoğlu vurğulayıb ki, yeni dünya nizamının formalaşdığı, regional və qlobal təhlükəsizliyin əhəmiyyətinin artdığı bir dövrdə dövlətlərin, xüsusən türk respublikalarının müdafiə və hərbi sahədə əməkdaşlığı qaçılmaz zərurət halına gəlib: "Dünyanın geosiyasi nizamı yenidən formalaşır, güc balansı, qüvvələr arasında nisbət dəyişir. O səbəbdən mövcud reallıqları, ehtimal olunan riskləri nəzərə almaqla TDT çərçivəsində birgə hərbi əməkdaşlığın genişləndirilməsi vacibdir. Dövlət başçısının diqqətə çatdırdığı kimi, Azərbaycan hər zaman bu məsələdə əsas təşəbbüskar olub, lokomotiv rolunu oynayıb. Azərbaycan həm qardaş Türkiyə, həm də digər türk respublikaları ilə ikitərəfli hərbi təlimlər keçirir. Yaxşı olar ki, birgə təlimlər TDT üzvlərinin iştirakı ilə də həyata keçirilsin. Məhz Azərbaycan-Türkiyə hərbi əməkdaşlığı digər türk dövlətlərinin birgə əməkdaşlığı üçün optimal model ola bilər. Təbii ki, birgə təlimlər və bu sahədə sıx əməkdaşlıq hansısa hərbi təşkilatın yaradılması anlamına gəlmir. Məqsədimiz digər sahələrdə olduğu kimi, hərbi sahədə də əməkdaşlığı dərinləşdirməkdir".

***İsmayıl QOCAYEV,***
***"Azərbaycan"***

# İqtisadi reallığa uyğun olmayan ticarət dövriyyəsi

**"Bilirsiniz, mən dəfələrlə Ermənistanı güclü şəkildə dəstəkləyən və daim Ermənistan üçün geosiyasi baxımdan çətinliklərdən, guya bəzi ölkələrin onun maraqlarına zərər vurmaq istəməsindən şikayət edən bir qrup ölkənin liderləri ilə görüşərkən həmişə deyirəm: "ÜDM-ə baxın və Rusiya ilə ticarət dövriyyəsinə baxın". Rusiya-Ukrayna müharibəsi başlayanda Ermənistanla Rusiya arasında ticarət dövriyyəsi təxminən 2 milyard ABŞ dolları idi. İki il sonra isə bu rəqəm 12 milyard dollara çatdı. Bu, artıq hər şeyi açıq şəkildə göstərir".**



Bu fikirləri Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində bildirib. Dövlət başçısı qeyd edib ki, bu, sanksiyalardan yayınma mexanizmidir - onların dediyi kimi, paralel idxal və ya "boz zona" idxalıdır. Lakin nə Avropa Komissiyası, nə Avropa Parlamenti, nə də Avropa Şurası Parlament Assambleyasında heç kim bu barədə bir söz belə demədi, nə Ermənistanı qınadı, nə də ümumiyyətlə, sanksiyalar mövzusuna toxundu. Çünki onlar üçün sanksiyalardan yayınma kanalı olmaq qəbuledilləndir.

Əslində, Qərbin bu addımı heç də təəccüblü deyil. Ermənistanın etdiklərini görməzdən gəlmək, ona daim arxa-dayaq durmaq Avropanın ən ümdə "vəzifə"lərindəndir. Amma hər kəsə də bəllidir ki, Ermənistan iqtisadiyyatı real şərtlərlə ticarət dövriyyəsini bu həddə çatdıra bilmək iqtidarında deyil.

İqtisadçı ekspert Eldəniz Əmirov qəzetimizə açıqlamasında bildirib ki, Rusiya və Ukrayna arasında münaqişə başlayana qədər Ermənistan və Rusiya arasında ticarət dövriyyəsi Azərbaycanla Rusiya arasında olan ticarət dövriyyəsinin yarısına bərabər olub: "Ukrayna-Rusiya müharibəsi başlayandan, Qərbin Rusiyaya sanksiyalar tətbiq etdiyi dövrdən etibarən Rusiya və Ermənistan arasında ticarət dövriyyəsi kəskin artmağa başladı. Bu artım o həddə çatdı ki, Azərbaycan və Rusiya arasında olan ticarət dövriyyəsini 5 dəfəyə qədər üstələdi. Beləliklə, 2024-cü ildə ticarət dövriyyəsi 15,4 milyard dollara çatdı. Bu, Ermənistan kimi ölkə üçün fantastik göstəricidir".

E.Əmirov qeyd edib ki, ticarət dövriyyəsinin bu qədər yüksəlməsinə əsas səbəb Ermənistanın Rusiyanın sanksiyalardan yayınmasına xidmət etməsidir. Bu xidmətin isə Ermənistan iqtisadiyyatına müsbət təsirləri olub, çünki rəsmi İrəvan bilavasitə üçüncü ölkə olaraq "reexport" edib.

Ekspert vurğulayıb ki, 2022-ci ildən bəri Avropa İttifaqı üçün vacib məsələlər enerji təhlükəsizliyi, hərbi təhlükəsizlik, sosial problemlər, demokratik göstəricilər olduğundan Ermənistanın bu əməli arxa plana keçib: "Bu kontekstdə Ermənistanın Rusiyanın sanksiyalardan yayınmasına xidmət etməsi Qərbin diqqətindən kənarda qalıb. Son dövrlər bir çox ölkəyə, o cümlədən Ermənistana konkret maneələr formalaşdırılıb. Bunun da məntiqi nəticəsi olaraq 2025-ci ildən Ermənistan və Rusiya arasında ticarət dövriyyəsi azalır".

E.Əmirov düşünür ki, qarşıdakı dönəmdə bu göstərici azalma istiqamətində davam edərək 5 milyard dollara qədər enəcək.

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***

# *Rumıniya nəşri:* "2025-ci il Azərbaycan-ABŞ münasibətlərində keyfiyyətcə yeni mərhələnin başlanğıcıdır"

**Rumıniyanın nüfuzlu "Ultima Ora" (Son Saat) qəzetində dərc olunan "Azərbaycan - ABŞ: 2025-ci il Cənubi Qafqazda strateji yenidənqurmaya səbəb oldu" sərlövhəli məqalədə bildirilir ki, ötən il Azərbaycan-Amerika Birləşmiş Ştatları münasibətlərində keyfiyyətcə yeni mərhələnin başlanğıcı kimi qiymətləndirilə bilər.**

Məqalədə qeyd olunur ki, 2025-ci il Bakı ilə Vaşinqton arasında siyasi dialoqun intensivləşməsi, qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq gündəliyinin genişlənməsi və regional proseslərə yanaşmada yeni baxış bucağının formalaşması ilə yadda qalıb. Nəşrin qənaətinə görə, bu dəyişikliklər yalnız ikitərəfli münasibətlərin inkişafı ilə məhdudlaşmır, eyni zamanda Cənubi Qafqazda ümumi təhlükəsizlik və sabitlik mühitinə də təsir göstərir.

Yazıda vurğulanır ki, Azərbaycan son illər müstəqil və balanslaşdırılmış xarici siyasət xətti yürüdərək regional sülhün möhkəmləndirilməsini prioritet istiqamət kimi müəyyənləşdirib. Xüsusilə Azərbaycan ilə Ermənistan arasında sülh və normallaşma prosesinin davam etməsi, kommunikasiyaların açılması məsələlərinin müzakirə olunması və ticarət əlaqələrinin bərpası istiqamətində aparılan işlər regionda yeni iqtisadi və siyasi reallıqlar yaradıb.

Bildirilir ki, bu proseslərin fonunda ABŞ-nin Cənubi Qafqaza yanaşması da dəyişməkdədir. Azərbaycan regional sabitliyin təmin olunmasında əsas oyunçulardan biri kimi qəbul edilir və Vaşinqtonla Bakı arasında enerji təhlükəsizliyi, nəqliyyat-logistika, rəqəmsal transformasiya və investisiya sahələrində əməkdaşlıq üçün yeni imkanlar açılır.

Məqalədə diqqətə çatdırılır ki, Azərbaycanla Ermənistan arasında faktiki blokadanın mövcud olmadığı, dialoq və qarşılıqlı etimadın formalaşdığı bir şəraitdə ABŞ-nin "Azadlığa dəstək aktı"na daxil edilmiş 907-ci düzəlişin qüvvədə qalması ziddiyyətli və artıq aktuallığını itirmiş yanaşma kimi görünür. Nəşr hesab edir ki, bu düzəliş müasir geosiyasi reallıqlara cavab vermir və onun aradan qaldırılması Azərbaycan-ABŞ münasibətlərinin daha da inkişafına töhfə verə bilər.

Yazıda vurğulanır ki, Prezident Donald Tramp tərəfindən 907-ci düzəlişin təsirinin müvəqqəti dondurulması Vaşinqtonun regiona münasibətdə daha praqmatik xəttə üstünlük verdiyini göstərir. Bununla yanaşı, rumın nəşrinin fikrincə, davamlı və uzunmüddətli əməkdaşlıq üçün bu məhdudiyyətin tam ləğvi zəruridir.

Sonda təhlildə belə qənaətə gəlinir ki, 2025-ci ildə Azərbaycan-ABŞ münasibətlərində baş verən strateji yenidənqurma Cənubi Qafqazda güc balansının dəyişməsinə, regional inteqrasiyanın dərinləşməsinə və sülh gündəliyinin möhkəmlənməsinə real töhfə verib. Bu tendensiyanın davam etməsi regionun gələcək inkişaf trayektoriyasını müəyyən edən əsas amillərdən biri olacaq.

# İlin uğurlu yekunları





# Vətənə və xalqa sevginin örnəyi

**Zəfərimizin beşinci ilini qürurla qeyd etdiyimiz və artıq yola saldığımız 2025-ci il ölkəmizin həyatında bütün sahələrdə qazanılan bol uğurlarla yadda qaldı. İstər iqtisadi, siyasi, hərbi sferada, istərsə də diplomatik müstəvidə çoxsaylı əlamətdar hadisələr yaşandı. Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən quruculuq işlərindən, o yerlərə gerçəkləşdirilən qayıdış prosesindən tutmuş Azərbaycanın beynəlxalq platformalarda qazandığı nüfuza, ölkələrlə çoxşaxəli əməkdaşlıq əlaqələrinə qədər əldə olunan bütün nailiyyətlər Prezident İlham Əliyevin yürütdüyü hərtərəfli siyasət sayəsində mümkün olub.**

Prezident İlham Əliyevin dövlətimizin güclənməsinə, əhalinin rifahının yüksəlməsinə xidmət edən inkişaf strategiyasına Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyeva çoxşaxəli və yorulmaz fəaliyyəti ilə mühüm dəstək göstərir. Bu mənada Birinci vitse-prezident Mehriban xanım Əliyevanın ötən il həyata keçirdiyi vacib əhəmiyyətə malik işlər xüsusi vurğulanmalıdır.

## Qayıdışa töhfə

İkinci Qarabağ müharibəsindən dərhal sonra dövlətimiz Qarabağ və Şərqi Zəngəzurda quruculuq və bərpa işlərinə start verib.

Şuşa qələbəsindən cəmi bir həftə sonra, 16 noyabr 2020-ci ildə Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva işğaldan azad edilmiş Füzuli rayonuna səfərləri zamanı təməlini qoyduqları Zəfər yolu ilə bu ərazilərin dirçəlişinin rəmzi mesajını verdilər. Mehriban xanım Əliyevanın dövlət başçısı İlham Əliyevlə birlikdə həmin ərazilərə mütəmadi səfərləri zamanı çəkib paylaşdığı kadrlardan düşmənin o yerlərdə törətdiyi vandallıq aktlarını dünya da yaxından gördü.

Ölkəmizin rəhbəri ilə birinci xanımın bu səfərlərinin hər birində kənd, şəhər və infrastrukturların bünövrələrinin qoyulması, yeni açılışların edilməsi, onların iştirakı ilə festivalların, şeir, musiqi bayramlarının keçirilməsi, bərpa edilərək istifadəyə verilən məscidlərdən Tanrıya edilən şükranlıq duaları, kəsilən ağaclarımızın yerinə öz əlləri ilə əkdikləri körpə fidanlar Qarabağ və Şərqi Zəngəzurun tarixi, mədəni, dini, mənəvi, təbii baxımdan milli koloritinə, ab-havasına, zənginliyinə görə dirçəliş yaşadığını tam mənası ilə gözlər önünə sərdi.

Yola saldığımız 2025-ci ildə də Mehriban xanım Əliyevanın dövlət başçısı İlham Əliyevlə birgə Kəlbəcərə, Ağdərəyə, Şuşaya, Xocalıya, Ağdama və digər işğaldan azad olunmuş ərazilərimizə səfərləri çoxsaylı açılışların edilməsi, yeni təməllərin qoyulması ilə yaddaşlara yazıldı. Həmin səfərlər çərçivəsində Prezident və birinci xanım Kəlbəcər şəhərində 4-cü yaşayış kompleksinin təməlqoyma mərasimində, Kəlbəcərdə "Aşağı Vəng", "Nadirxanlı" və "Çaykənd" kiçik su-elektrik stansiyalarının açılışında iştirak ediblər, Ağdərə rayonunun Kolatağ kəndində fərdi evlərin və infrastrukturun bərpası sahəsində görülən işlərlə tanış olublar, Ağdərədə Vəngli və Kolatağ kəndlərinin sakinləri ilə görüşüblər, Daşaltı kənd məscidinin, Şuşa Müalicə-Sağlamlıq Mərkəzinin açılışında, Şuşada inşa ediləcək dördüncü yaşayış kompleksinin təməlqoyma mərasimində, Ağdam Muğam Mərkəzinin açılışında iştirak ediblər.

Birinci vitse-prezident Mehriban Əliyevanın sosial şəbəkə hesablarında Ağdərədən etdiyi paylaşımda deyilir: "Ağdərə rayonu, Həsənriz kəndi. 18.03.2025. Uca Allah hər kəsə möhkəm cansağlığı, bol sevinc, sevgi və səadət, hər evə xoş ovqat, hər ocağa ruzi-bərəkət bəxş etsin! İlaxır çərşənbəniz mübarək!"

## Mühüm görüşlər və səfərlər

Ölkəmizin beynəlxalq münasibətlər sistemindəki rolu və yeri hər ötən müddətdə daha da artır və möhkəmlənir. Bu mənada Birinci vitse-prezident Mehriban Əliyevanın ötən il də həyata keçirdiyi mühüm xarici səfərlər, eləcə də Azərbaycanın diplomatik əlaqələrinin inkişafı istiqamətində gerçəkləşdirdiyi görüşlər əhəmiyyətinə görə seçilir.

Martın 16-da Birinci vitse-prezident Mehriban Əliyeva ölkəmizdə səfərdə olan Rusiya Federasiyası Federal Məclisi Federasiya Şurasının sədri Valentina Matviyenko ilə görüşüb. Görüşdə Azərbaycan ilə Rusiya arasında münasibətlərin strateji müttəfiqlik xarakteri daşıdığı qeyd olunaraq ikitərəfli mədəni-humanitar əməkdaşlıq məsələlərinə dair fikir mübadiləsi aparılıb.

Aprelin 2-də Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın Almaniyanın birinci xanımı Elke Büdenbender, mayın 7-də isə Vyetnam Sosialist Respublikası Kommunist Partiyasının Mərkəzi Komitəsinin Baş katibinin xanımı No Fon Li ilə görüşü olub.

Birinci xanım Mehriban Əliyeva və qızı Leyla Əliyeva aprelin 12-də Türkiyənin Antalya şəhərində keçirilən Antalya Diplomatiya Forumu çərçivəsində "Parçalanan dünyada gələcəyin qurulması: Təhsilin transformasiya gücü" adlı panel iclasında iştirak edib.

Sözügedən ayın 23-də birinci xanım Mehriban Əliyeva, qızı Leyla Əliyeva və digər ailə üzvləri Pekində Böyük Xalq Sarayı ilə tanış olublar.

Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Leyla Əliyeva mayın 5-də ölkəmizdə səfərdə olan Mərakeş Krallığının xanım Şahzadəsi Lalla Hasnaa ilə görüşüblər. Söhbət zamanı müxtəlif sahələrdə ikitərəfli əlaqələrin inkişafından məmnunluq ifadə edilib, Azərbaycan və Mərakeş arasında tarixi, mədəni və dini yaxınlığa əsaslanan səmimi dostluq və əməkdaşlıq münasibətlərinin mövcud olduğu vurğulanıb.

Birinci xanım Mehriban Əliyeva və qızı Arzu Əliyeva sentyabrın 1-də Çinin Tiencin şəhərində Çin Xalq Respublikasının birinci xanımı Pen Liyuan və "Şanxay Əməkdaşlıq Təşkilatı plyus" formatında keçirilən görüşdə iştirak edən dövlət və hökumət başçılarının xanımları ilə birlikdə Hayha çayında gəmi gəzintisində iştirak ediblər.

## Azərbaycan-Müqəddəs Taxt-Tac əlaqələrində yeni səhifə

Keçən il oktyabrın 16-da Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyevanın Müqəddəs Taxt-Taca - Vatikana rəsmi səfəri ölkəmizin humanitar diplomatiyasının növbəti mərhələsini təşkil etdi. Birinci vitse-prezident Mehriban Əliyevanın səfər zamanı Vatikanda dövlət xadimləri ilə səmərəli görüşləri Azərbaycan-Müqəddəs Taxt-Tac əlaqələrinin inkişafı baxımından mühüm hadisə kimi dəyərləndirildi.

Oktyabrın 17-də Roma Papası XIV Leo ilə görüşü zamanı Mehriban Əliyeva Vatikan ilə Azərbaycan arasında münasibətlərin, ikitərəfli əlaqələrin xeyli dərəcədə inkişaf etdiyini vurğulayıb. Birinci vitse-prezident son illər ərzində Heydər Əliyev Fondunun bərpa işlərində, həmçinin elmi araşdırmalarda, mədəni mübadilələrdə Müqəddəs Taxt-Tacla bir çox iş gördüyünü diqqətə çatdırıb. Mehriban xanım Əliyeva bundan sonra da Heydər Əliyev Fondunun yeni təşəbbüslərlə çıxış edərək Müqəddəs Taxt-Tacla əməkdaşlığını genişləndirəcəyini deyib.

Öz növbəsində Roma Papası XIV Leo Vatikan dövləti ilə Azərbaycan arasında ikitərəfli əməkdaşlığın uzun tarixə malik olduğunu diqqətə çatdırıb. Roma Papası bir neçə il əvvəl Mehriban xanımın irəli sürdüyü təşəbbüslər sayəsində münasibətlərin xeyli inkişaf etdiyini deyib. XIV Leo bu əməkdaşlığın dinlərarası və sivilizasiyalararası dialoqa çox böyük təkan verdiyini, Azərbaycanın da bu baxımdan dünya miqyasında ilk sıralarda yer aldığını qeyd edib.

Mehriban Əliyeva səfər çərçivəsində Müqəddəs Pavel Bazilikasının baş keşişi kardinal Ceyms Harvi ilə görüşüb. Müqəddəs Taxt-Taca son 14 il ərzində altıncı dəfə səfər etdiyini xatırladan Birinci vitse-prezident Mehriban Əliyeva bu illər ərzində dövlətlərarası əlaqələrin çox möhkəm təməl, qarşılıqlı hörmət və dostluq əsasında inkişaf etdiyini bildirib.

Oktyabrın 17-də Vatikanın Dövlət katibi kardinal Pietro Parolin ilə görüşü zamanı Azərbaycanın dini tolerantlıq və multikulturalizm dəyərlərini özündə birləşdirən ölkə olduğunu diqqətə çatdıran Mehriban Əliyeva bunun həm dövlət siyasəti, həm də cəmiyyətimizin yaşayış tərzi olduğunu vurğulayıb.

Azərbaycanda fəaliyyət göstərən katolik icması ilə dövlət arasında nümunəvi münasibətlərin mövcud olduğunu diqqətə çatdıran kardinal dövlətlərimizin əməkdaşlığının möhkəmləndirilməsinin önəmini vurğulayıb.

Oktyabrın 17-də Azərbaycanın Birinci vitse-prezidenti Mehriban Əliyeva Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini ilə görüşüb.

Görüşdə Raffaella Petrini Heydər Əliyev Fondunun Vatikanda həyata keçirdiyi layihələrə görə Azərbaycan dövlətinə dərin və səmimi təşəkkürünü bildirib.

Vatikana rəsmi səfər proqramı xeyli zəngin olan Birinci vitse-prezident Mehriban Əliyeva ailə üzvləri ilə birlikdə Heydər Əliyev Fondunun dəstəyi ilə Müqəddəs Kommodilla katakombalarının bərpası layihəsinin açılış mərasimində iştirak edib və həyata keçirilən bərpa işləri ilə tanış olub.

Birinci vitse-prezident Mehriban Əliyeva Vatikanda Müqəddəs Pavel Bazilikasının baş keşişi kardinal Ceyms Harvinin müşayiəti ilə bazilikada Heydər Əliyev Fondunun dəstəyi ilə həyata keçirilən bərpa və tikinti işləri ilə maraqlanıb.

Mehriban Əliyeva həmçinin Heydər Əliyev Fondunun dəstəyi ilə Vatikanda Müqəddəs Pyotr Bazilikasında həyata keçirilmiş bərpa işləri ilə tanış olub.

Oktyabrın 17-də Azərbaycan Respublikasının Müqəddəs Taxt-Tacdakı səfirliyinin inzibati ofisinin rəsmi açılışı olub.

Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyeva və Vatikanın Dövlət katibi kardinal Pietro Parolin tədbirdə iştirak ediblər.

Vatikana səfər çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyeva Avropanın ən böyük pediatrik "Bambino Gesu" xəstəxanasında olub və burada molekulyar-genetika və klinik diaqnostika laboratoriyaları ilə maraqlanıb.

Oktyabrın 17-də Mehriban Əliyeva Vatikan Apostol Kitabxanasında olub.

Birinci vitse-prezident Mehriban Əliyeva və ailə üzvləri Vatikan şəhər-dövlətinin qubernatorluğunun prezidenti, rahibə Raffaella Petrini ilə birgə Vatikan bağlarında ağacəkmə mərasimində iştirak ediblər.

## Sosialyönümlü fəaliyyət

Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti sosialyönümlülüyü ilə diqqət çəkir. Birbaşa Mehriban xanımın təşəbbüsü ilə təhsil, səhiyyə və digər sosial istiqamətlərdə mühüm işlər görülür, infrastruktur qurulur.

Ötən il martın 6-da Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Gəncə şəhərinə səfərləri zamanı bir sıra müəssisələrə baş çəkiblər.

Həmin tarixdə Birinci vitse-prezident Mehriban Əliyeva və qızı Arzu Əliyeva Gəncə şəhər 37 nömrəli tam orta məktəbdə Heydər Əliyev Fondu tərəfindən aparılan təmir-bərpa işləri ilə tanış olublar, həmçinin Gəncə şəhəri 40 saylı körpələr evi-uşaq bağçasında olublar.

Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Ermənistan silahlı qüvvələrinin 2020-ci ildə Gəncə şəhərinə raket hücumları nəticəsində həlak olan dinc sakinlərin xatirəsini əbədiləşdirmək üçün inşa edilən Gəncə Memorial Kompleksinin layihəsi ilə tanış olublar.

Martın 6-da Gəncəyə səfər çərçivəsində Birinci vitse-prezident Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Gəncə Şəhər Birləşmiş Xəstəxanasının Perinatal Mərkəzində olublar.

Birinci xanım Mehriban Əliyeva, qızları Leyla Əliyeva və Arzu Əliyeva Gəncə şəhərindəki Şah Abbas və Hüseyniyyə məscidlərində, həmçinin Gəncədə Aleksandr Nevski adına Rus Pravoslav Kilsəsində olublar.

Birinci vitse-prezident Mehriban Əliyeva və Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyeva ötən il aprelin 15-də Bakının Nəsimi rayonunda yerləşən 1 saylı körpələr evində və Nizami rayonundakı 1 saylı uşaq evi sosial xidmət müəssisəsində də olublar.

## "Qoy hər zaman sülh olsun!"

Ötən il 8 avqust tarixində Vaşinqton sammitində sülh istiqamətində əldə edilən uğurların miqyası təkcə bölgəmizin sərhədləri ilə məhdudlaşmır, daha geniş əraziyə inkişaf və tərəqqi vəd edir.

Birinci vitse-prezident Mehriban Əliyeva da Vaşinqtonda keçirilən görüşə dair sosial şəbəkə hesablarında paylaşım edərək xalqımızı təbrik edib.

Paylaşımda deyilir: "Bu gün Vaşinqtonda Azərbaycan Prezidenti, Amerika Birləşmiş Ştatlarının Prezidenti və Ermənistanın Baş naziri tərəfindən Birgə Bəyannamə imzalandı və sülh sazişi paraflanmaqla yekun sülh sazişi istiqamətində mühüm addım atıldı.

Bu tarixi hadisə münasibətilə xalqımızı təbrik edirəm!

Qoy hər zaman sülh olsun! Torpaqlarımızın işğaldan azad olunması uğrunda şəhidlik zirvəsinə yüksəlmiş qəhrəman oğullarımıza Allah rəhmət eləsin! Uca Tanrı hər zaman doğma Azərbaycanımızı qorusun!"

Ümumiyyətlə, ölkəmizin həyatında baş verən əlamətdar hadisələr, bayram və anım günləri ilə bağlı Birinci vitse-prezident Mehriban Əliyeva hər zaman sosial media hesablarından çoxsaylı paylaşımlar edir və ötən il də belə oldu.

Birinci vitse-prezident Mehriban Əliyeva sosial media hesablarında Milad bayramı, Od çərşənbəsi, 8 Mart Beynəlxalq Qadınlar Günü, Novruz bayramı, Ramazan bayramı, Müqəddəs Pasxa bayramı, Qurban bayramı münasibətilə paylaşımlar edərək xalqımıza təbriklərini çatdırıb.

Birinci xanım 20 Yanvar faciəsinin ildönümü, Xocalı soyqırımı, 31 Mart - Azərbaycanlıların Soyqırımı Günü ilə bağlı paylaşımlar edərək qan yaddaşına çevrilən tarixlərimizin heç zaman unudulmayacağının mesajını verib.

Birinci vitse-prezident Mehriban Əliyeva Azərbaycan Gəncləri Günü, 9 May - Qələbə Günü, Ulu Öndər Heydər Əliyevin doğum günü, Prezident İlham Əliyevin doğum günü münasibətilə sosial media hesablarında paylaşımlar edib. 28 May - Müstəqillik Günü, 1 İyun - Uşaqların Beynəlxalq Müdafiəsi Günü, 15 İyun - Milli Qurtuluş Günü, 26 İyun - Silahlı Qüvvələr Günü, 20 Sentyabr - Dövlət Suverenliyi Günü, 18 Oktyabr - Müstəqilliyin Bərpası Günü, 8 Noyabr - Zəfər Günü, 9 Noyabr - Dövlət Bayrağı Günü, 12 Noyabr - Konstitusiya Günü, 17 Noyabr - Milli Dirçəliş Günü münasibətilə paylaşımlar edərək təbriklərini çatdırıb.

Mehriban xanım Əliyevanın bu və digər paylaşımları birinci xanımın ölkəsinə, xalqına olan tükənməz sevgisinin təzahürləridir.

Bir sözlə, hər il olduğu kimi, ötən il də Birinci vitse-prezident Mehriban xanım Əliyeva ölkəmizin inkişafı və tərəqqisi üçün hərtərəfli fəaliyyət göstərib. Böyük əzm və səylə görülən bütün bu işlər Prezident İlham Əliyevin həyata keçirdiyi uğurlu inkişaf strategiyasının gerçəkləşməsinə, Azərbaycanın beynəlxalq nüfuzunun güclənməsinə xidmət edən şərəfli missiyadır.

*Yasəmən MUSAYEVA,*
*"Azərbaycan"*

# Yeni hədəflər Azərbaycanı daha güclü və qüdrətli dövlətə çevirəcək

**"Azərbaycan Prezidenti İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində çox əhatəli və geniş mövzulara toxundu. Müsahibədə əsas diqqət 2025-ci ildə əldə olunan uğurlar və nəticələr, Cənubi Qafqaz regionunda mövcud vəziyyət, beynəlxalq müstəvidə baş verən proseslər, Ermənistanla sülh gündəliyi, Zəngəzur dəhlizi, Qarabağ və Şərqi Zəngəzura Böyük qayıdış və digər məsələlərlə bağlı oldu".**



Bu fikirləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı, YAP İdarə Heyətinin üzvü Pərvin Kərimzadə deyib.

O bildirib ki, ərazi bütövlüyünü və suverenliyini bərpa etmiş Azərbaycan artıq regionda yeni reallıqlar yaradıb. Eyni zamanda dövlətimiz davamlı olaraq təhlükəsizlik tədbirləri görür, öz hərbi və iqtisadi gücünü artırır. Bütün bunlar müstəqil dövlətimizi beynəlxalq təhdidlərdən qorumaq üçün vacib amildir. Eyni zamanda Cənubi Qafqaz regionunun lider dövləti olan Azərbaycan müasir beynəlxalq münasibətlər sistemində etibarlı tərəfdaş kimi tanınır və dünyada böyük etimad qazanıb. Bu kontekstdə ötən ilin ən mühüm hadisələrindən biri 8 avqust Vaşinqton görüşündə əldə olunan nəticələrdir. Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə Vaşinqtonda baş tutmuş Zirvə görüşündə Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən imzalanmış Birgə Bəyannamə, eləcə də "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş" layihəsinin paraflanması və digər razılıqlar bölgəmizdə yeni geosiyasi reallıqların formalaşmasına, regionda dayanıqlı sülh və inkişaf üçün əlverişli şəraitin yaranmasına imkan verib. Vaşinqton sammitində həmçinin Azərbaycanın əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsini nəzərdə tutan "Beynəlxalq Sülh və Rifah Naminə Tramp Marşrutu" (TRIPP) layihəsi üzrə razılıq əldə edilib. Həmçinin ATƏT-in Minsk Prosesinin və əlaqədar strukturların bağlanmasına nail olunub, bununla Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin beynəlxalq gündəlikdən çıxarılmasına dair mühüm mərhələ tamamlanıb.

"Prezident İlham Əliyevin müsahibədə dediyi kimi, 2025-ci ildə Ermənistan-Azərbaycan müharibəsinə siyasi nöqteyi-nəzərdən son qoyuldu və artıq biz bir neçə aydır ki, sülh şəraitində yaşayırıq. Prezident vurğulayıb: "Həm müharibənin fəal mərhələsi, atəşkəs mərhələsi, İkinci Qarabağ müharibəsi, antiterror əməliyyatı, ondan sonrakı dövr və bütün bu hadisələrə keçən ilin avqustunda son qoyuldu. Yəni Azərbaycan döyüş meydanında əldə etdiyi parlaq Qələbəyə siyasi müstəvidə və qeyd etdiyim kimi, dünyanın birnömrəli ofisində siyasi möhür vurdu. Bu, təbii ki, müstəqillik tariximizdə yaddaqalan hadisələrdən biri olacaq, bəlkə də birincilər sırasında olacaq. Bu nöqteyi-nəzərdən keçən ili ölkəmiz üçün, xalqımız üçün çox uğurlu və tarixi il saymaq olar və əminəm ki, bundan sonra Azərbaycan xalqı sülh şəraitində yaşayacaq". Dövlətimizin başçısının dediyi kimi, cəmiyyətdə mövcud olan xoş əhvali-ruhiyyə, sabitliyə və təhlükəsizliyə olan inamın artması, bütün bu amillər, əlbəttə, bizə imkan verir ki, uğurla irəliyə addımlayaq və ölkə qarşısında duran bütün vəzifələri bundan sonra da həll edək.

Ötən il ABŞ-Azərbaycan münasibətlərində də yeni mərhələnin əsası qoyuldu. Prezident Donald Trampın Azərbaycanın lideri haqqında yüksək fikirləri, imzalanan sənədlər bunu deməyə əsas verir. Xüsusilə D.Trampın avqustun 8-də 907-ci düzəlişin icrasının dayandırılması haqqında sənəd imzalaması rəmzi məna daşıyır. Təbii ki, 907-ci düzəlişin qüvvədə qalması bu gün iki ölkə arasında əlaqələrin ruhuna ziddir. Ümid edirik ki, bu sənəd tezliklə tam ləğv olunacaq. ABŞ Konqresinə bu barədə qanun layihəsinin təqdim olunması ümidlərimizi artırır", - deyə deputat vurğulayıb.

Onun sözlərinə görə, Vaşinqton razılaşması Zəngəzur dəhlizinin də reallaşmasına əsas yaradır. Bu gün Azərbaycan Zəngəzur dəhlizinin açılması üçün üzərinə düşən vəzifələri yerinə yetirir. Dəhlizin Ermənistan ərazisindəki TRIPP yolu adlanan hissəsinin də icrasına başlanacağını gözləyirik. Nəzərə alaq ki, Zəngəzur dəhlizi yalnız iqtisadi layihə deyil. Bu dəhlizin açılması regionda sülh və əməkdaşlıq mühitinin formalaşmasına da əhəmiyyətli təsir göstərəcək. Zəngəzur dəhlizi bu gün qlobal güc mərkəzlərinin diqqətində olan nəqliyyat-logistika xətlərinin əsas halqasına çevrilmək potensialına malikdir. Dünyada, o cümlədən yaxın regionlarda baş verən toqquşmalar enerji və ticarət yollarının təhlükəsizliyinin təmin olunması baxımından bu dəhlizin alternativinin olmadığını göstərir. Dəhlizin reallaşması regionda gərginliklərin azalmasına, dövlətlərarası münasibətlərin normallaşmasına və sülhə xidmət edən yeni əməkdaşlıq platformasının formalaşmasına imkan yaradacaq. Zəngəzur dəhlizinin açılması həm Azərbaycanın əsas hissəsi ilə Naxçıvan bölgəsi arasında quru bağlantının bərpası, həm də türk dünyasının coğrafi inteqrasiyası baxımından mühüm addımdır. Bu dəhliz eyni zamanda Avropa ilə Asiyanı birləşdirən sabit marşrut rolunu oynayacaq. Prezident İlham Əliyev bu layihənin önəmindən bəhs edərkən vurğulayıb: "Bu layihə tam başa çatandan sonra onun yükötürmə qabiliyyəti 15 milyon tona bərabər olacaq... Yüklər Azərbaycanda cəmləşəcək və Azərbaycandan müxtəlif istiqamətlərə gedəcək. Ona görə də Zəngəzur dəhlizinin reallaşması artıq həll olunmuş məsələ kimi qəbul edilməlidir. Mən inanmıram ki, Ermənistan bu məsələdən boyun qaçırsın, bu, özünəqəsd kimi qiymətləndirilə bilər".

"Ümumiyyətlə, 2025-ci il ölkəmiz üçün mühüm uğurlarla yadda qalıb. Prezident İlham Əliyev ötən il Azərbaycanda sosial-iqtisadi nəticələri də müsbət qiymətləndirib, eləcə də perspektivlə bağlı mesajlar verib. Yeni hədəflər isə Azərbaycanı daha güclü və qüdrətli dövlətə çevirəcək", - deyə YAP İdarə Heyətinin üzvü vurğulayıb.

# İlin uğurlu yekunları




## İslahatlar ölkəmizin elmi nüfuzunu daha da yüksəldəcək

**Son illər respublikamızda elm və təhsil sahəsində mühüm islahatlar həyata keçirilib.**

Dövlətimiz bu sahənin inkişafını prioritetlərdən biri kimi müəyyənləşdirib. Ötən il noyabrın 3-də Azərbaycan Milli Elmlər Akademiyasının 80 illik yubileyi münasibətilə keçirilən tədbirdə çıxış edən Prezident İlham Əliyev qeyd etdi ki, son on il ərzində Azərbaycan elminə ayrılan vəsait iki dəfədən çox artmışdır. Dövlətimizin başçısı bildirdi ki, artıq hər kəs görür və bilir ki, hər bir ölkənin inkişafını təbii resurslar yox, məhz cəmiyyətin intellektual potensialı, texnoloji inkişaf, elmin inkişafı müəyyən edir.

Elm və təhsil sahəsindəki irəliləyişlər və yeniliklər Azərbaycanın beynəlxalq səviyyədə tanınmasına, qabaqcıl ölkələrdən biri olmasına xidmət edir. Yola saldığımız ildə bu sahədə işlər uğurla davam etdirilib. Belə ki, hələ 2025-ci ilədək Azərbaycanda elm sahəsində mühüm yeniliklər və struktur dəyişiklikləri həyata keçirilib. Elm sahəsinin daha effektiv inkişafı məqsədilə bir çox elmi institut birləşdirilib və onların fəaliyyət sahələri genişləndirilib. Bu prosesin məqsədi, elmi tədqiqatların daha məqsədyönlü və strukturlu şəkildə həyata keçirilməsi, elmi kadrların yetişdirilməsi və texnologiyaların tətbiqi sahəsində innovasiyaların stimullaşdırılmasıdır.

Həmçinin Azərbaycanda bir sıra yeni universitet və elm mərkəzləri açılıb. Bu təhsil müəssisələri, yüksəkixtisaslı mütəxəssislərin yetişdirilməsi və elm sahəsində beynəlxalq standartlara uyğun təhsil verilməsi məqsədi daşıyır.

Azərbaycan Milli Elmlər Akademiyası (AMEA) çərçivəsində elmi institutların birləşdirilməsi və yeni strukturun yaradılması bu niyyətlə həyata keçirilib. AMEA-nın nəzdindəki bir çox institut yenidən təşkil olunub. Bu struktur dəyişiklikləri, elmi tədqiqatların daha əlaqəli və kooperativ şəkildə aparılmasına, müasir elmin müxtəlif sahələrində uğurlu layihələr həyata keçirilməsinə şərait yaradıb. Eyni zamanda elmi institutlar beynəlxalq təşkilatlarla əməkdaşlıq edərək, dünyanın aparıcı elm mərkəzləri ilə tədqiqat mübadiləsi aparırlar. Bütün bunlar, ölkəmizin elmi inkişafının sürətləndirilməsinə və beynəlxalq aləmdə Azərbaycan elminin tanınmasına xidmət edir.

Yanvarın 5-də yerli televiziya kanallarına müsahibə verən Prezident İlham Əliyev "Azərbaycanda elm və təhsil sahəsində mövcud vəziyyəti necə dəyərləndirirsiniz? Hansı addımlar atılmalıdır? Sizin gənclərə bu baxımdan tövsiyəniz nədən ibarət olardı?" suallarını cavablandırarkən dedi ki, artıq struktur dəyişiklikləri edilib, Elm və Təhsil Nazirliyi yaradılıb. Dövlətimizin başçısı diqqətə çatdırdı ki, faktiki olaraq elm dövlət strukturlarından kənarda qalmışdı. Azərbaycan Milli Elmlər Akademiyasının artıq uzun illərdir fəaliyyət göstərdiyini vurğulayan Prezident İlham Əliyev bildirdi ki, dövlət siyasətini daha dolğun şəkildə həyata keçirmək üçün elm və təhsil bir yerdə olmalıdır: "Çünki inkişaf etmiş ölkələrin təcrübəsini bilirik. Orada elm daha çox ali məktəblərlə bərabər, yaxud da ki, onların nəzdində inkişaf edir və biz də bu modeli seçmişik. İndi struktur islahatları gedir. Bir çox elmi-tədqiqat institutları bir-biri ilə birləşdirilir. Struktur islahatları ilə paralel olaraq, kadr islahatları da gedir, daha müasir, daha gənc kadrlar önə çəkilir. Burada keyfiyyət əmsalını da tapmaq o qədər də çətin deyil. Bu, dünya təcrübəsində var. Sənin elmi əsərlərin hansı elmi jurnallarda, hansı dərgilərdə nə qədər çap olunub və sənin elmi potensialın bugünkü reallıqlara nə dərəcədə uyğundur. Əgər biz doğrudan da elmi inkişaf etdirmək istəyiriksə sadəcə, elmi işçiləri işlə təmin etmək yox, elmi inkişaf etdirmək istəyiriksə, bu islahatlara getməliyik. Bu, qaçılmazdır. Biz bunu etməsək, onda inkişafın da müəyyən məhdudiyyətləri olacaq. Çünki mən bunu dəfələrlə demişəm, bir daha deyirəm tam şüurlu şəkildə, inkişaf etmiş ölkələrin inkişafı ancaq zəka, ağıl, təhsil, elmlə bağlıdır, neftlə, qazla yox. Baxın, neftlə, qazla zəngin olan ölkələrin və inkişaf etmiş ölkələrin vəziyyətinə. Bəli, neftlə, qazla zəngin olan ölkələr arasında uğurlu ölkələr var, çox deyil, amma var. Onların texnologiyaları haradan gəlir? Onlar özləri onları icad edir? Yox, o, beyin mərkəzlərindən, texnoloji mərkəzlərdən gəlir. O da nəyə bağlıdır? Təhsilə, elmə. Sadə məsələdir. Ona görə də biz bu istiqamətdə fəal işləməliyik".

Müasir tələblərə cavab verən, yeni təhsil müəssisələrinin açılması da ölkəmizdə elm-təhsil sahəsində atılan ən uğurlu addımlar sırasındadır. Dövlətimizin başçısı son 20 il ərzində Azərbaycanda 10 yeni ali təhsil müəssisəsinin açıldığını, onların bir neçəsinin xarici tərəfdaşlarla birlikdə yaradıldığını qeyd etdi: "Məsələn, ikisi Rusiya, biri Fransa, biri Türkiyə, biri də İtaliya ilə - beş. Qalanını da özümüz, o cümlədən Xankəndi Universiteti". Prezident İlham Əliyev vurğuladı ki, bu, dövlətin niyyətidir, dövlətin siyasətidir: "Təhsilin keyfiyyətinin, müəllimlərin sosial təminatının və peşəkarlığın artırılması, test sistemi və sair. Bütün bu amillər bir məqsəd güdür ki, cəmiyyət savadlı və bilikli olsun. Ancaq o halda biz uzunmüddətli inkişafa nail ola bilərik. Yox, olmazsa, neftimiz, qazımız qurtarandan sonra biz çox ağır vəziyyətə düşə bilərik. Amma indi biz xalqımızın, dövlətimizin gələcəyini onilliklər, yüzilliklər bundan sonra görməyə çalışmalıyıq. Ona görə bu, həddindən artıq vacib sahədir və ümid edirəm ki, aparılan islahatlar yaxşı nəticələrə gətirib çıxaracaq".

Ölkəmizdə elm, təhsil sahəsində aparılan islahatlar, eyni zamanda Azərbaycan gənclərinin elmi fəaliyyətlərə, innovasiya layihələrinə və beynəlxalq əməkdaşlığa cəlb edilməsinə də səbəb olur. Yeni təhsil müəssisələri, elmi mərkəzlər və beynəlxalq proqramlar vasitəsilə ölkəmizin intellektual potensialı gücləndirilir, gənc mütəxəssislər yüksəkixtisaslı kadrlar kimi yetişdirilir. Bu yanaşma Azərbaycanın uzunmüddətli inkişaf strategiyasının əsas sütunlarından biridir və ölkəmizin gələcək nəsillər üçün dayanıqlı, müasir və rəqabətqabiliyyətli bir dövlət kimi formalaşmasına xidmət edir.

Dövlətimizin başçısı İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində qeyd etdi ki, bizim çoxlu istedadlı gənclərimiz var: "İndi həm xaricdə, həm də Azərbaycanda təhsil almış çoxlu gənc mütəxəssisimiz var. Müxtəlif dövlət proqramları tətbiq olunur. Onlardan biri də bu "Yüksəliş" proqramıdır. Bu da gəncləri daha çox həvəsləndirmək, təşviq etmək, sonra isə dövlət strukturlarına, özəl strukturlara cəlb etmək üçün çox vacibdir. Vaxtilə mənim göstərişimlə xaricdə təhsil alanlar artıq çoxdan qayıdıblar. Çoxları qayıdıb burada çalışır və görürük ki, məsələn, rəhbər vəzifəsinə müasir, bilikli kadr gələndən sonra vəziyyət tamamilə dəyişir".

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bildirdi ki, islahatlar davam etdiriləcək. Bu proses Azərbaycanın elm-təhsil sahəsində beynəlxalq standartlara uyğun inkişafını təmin edəcək, müasir texnologiyaların tətbiqini sürətləndirəcək, eyni zamanda gənc nəslin intellektual potensialını artıracaq. Aparılan islahatlar ölkəmizin elmi nüfuzunu daha da yüksəldəcək.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

## Azərbaycan 2026-cı ildə sülh prosesini daha da irəlilətmək məqsədilə dialoqa sadiq qalacaq

**"Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində 2025-ci ilin yekunlarını geniş təhlil etdi. Dövlətimizin başçısı müsahibədə Ermənistanla sülh prosesi, regionda vəziyyət və digər aktual mövzularla bağlı mühüm mesajlar verib". Bu sözləri AZƏRTAC-a açıqlamasında Milli Məclisin deputatı Sevinc Fətəliyeva deyib.**



O bildirib ki, 2025-ci il ölkəmizin xarici siyasəti baxımından da kifayət qədər uğurlu il olub. Prezident bu məqamı xüsusi vurğulayıb. Azərbaycan öz milli maraqlarının təmin olunması məqsədilə dəyişən geosiyasi şəraitdə çevik, məsuliyyətli və konstruktiv diplomatiya həyata keçirib. Eləcə də, ikitərəfli və çoxtərəfli münasibətlərində əməkdaşlıq mexanizmlərini gücləndirib, beynəlxalq səviyyədə nüfuzunu və təsir imkanlarını nəzərəçarpacaq dərəcədə artırıb. Şanlı Zəfərimizin, ərazi bütövlüyümüzün və tarixi ədalətin bərpasının 5 illiyinin qeyd olunduğu 2025-ci ildə regionda dayanıqlı və qalıcı sülhün bərqərar edilməsi üçün yaranmış tarixi fürsətlərdən istifadə edərək, Azərbaycan və Ermənistan arasında suverenlik və ərazi bütövlüyü prinsipləri əsasında münasibətlərin normallaşdırılması ölkəmizin regiondakı siyasətinin əsas istiqamətlərindən biri olub. Şübhəsiz ki, ötən il avqustun 8-dəki Vaşinqton görüşünü tarixi hadisə adlandırmaq mümkündür. Həmin gün Azərbaycan, ABŞ və Ermənistan liderlərinin iştirakı ilə Vaşinqtonda baş tutmuş Zirvə görüşündə Azərbaycan və Ermənistan liderləri tərəfindən, habelə şahid qismində ABŞ Prezidenti tərəfindən imzalanmış Birgə Bəyannamə, habelə "Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sülhün və dövlətlərarası münasibətlərin təsis olunması haqqında Saziş" layihəsinin paraflanması və digər razılıqlar bölgəmizdə yeni geosiyasi reallıqların formalaşmasına, regionda dayanıqlı sülh və inkişaf üçün əlverişli şəraitin yaranmasına imkan verib. Vaşinqton Sammitində, həmçinin Azərbaycan Respublikasının əsas hissəsi ilə onun Naxçıvan Muxtar Respublikası arasında maneəsiz bağlantının təmin edilməsini nəzərdə tutan "Beynəlxalq Sülh və Rifah naminə Tramp Marşrutu" (TRIPP) layihəsi üzrə razılıq əldə edilib. Bununla yanaşı, ATƏT-in Minsk Prosesinin və əlaqədar strukturların bağlanmasına nail olunub, bununla Ermənistan ilə Azərbaycan arasındakı münaqişənin beynəlxalq gündəlikdən çıxarılmasına dair mühüm mərhələ tamamlanıb.

Milli Məclisin deputatının sözlərinə görə, ötən il Azərbaycanla Ermənistan arasında etimad quruculuğu istiqamətində önəmli addımlar atılıb. Bu da dövlətimizin sülhə sadiqliyinin göstəricisidir. Digər tərəfdən, 2025-ci ildə Azərbaycanla ABŞ arasında münasibətlərdə yeni mərhələ başlayıb. Avqustun 8-də Ağ Evdə Donald Trampın 907-ci düzəlişin icrasının dayandırılması haqqında imzaladığı qərar bu baxımdan böyük əhəmiyyət kəsb edir. İnanırıq ki, tezliklə 907-ci düzəliş tamamilə ləğv olunacaq. Çünki bu sənədin qüvvədə qalmasına heç bir səbəb yoxdur.

"2025-ci ildə Azərbaycan dünyada sülh, təhlükəsizlik və dayanıqlı inkişafın təmin olunmasına öz müsbət töhfəsini verib və bu çərçivədə müvafiq müraciətlərə uyğun olaraq bir sıra ölkələr arasında diplomatik vasitəçilik missiyalarını həyata keçirib. Azərbaycanın regional sülh, təhlükəsizlik və rifah üçün əldə etdiyi bu mühüm nəticələr qətiyyətli və uzaqgörən liderlik, diplomatiya və strateji əməkdaşlıq vasitəsilə əldə edilib. Ölkəmiz Prezident İlham Əliyevin liderliyi ilə regionun aparıcı dövləti, beynəlxalq münasibətlərdə etibarlı tərəfdaş və sülhün təşəbbüskarı kimi qəbul olunur. Bu, dövlətçiliyimizin möhkəm əsaslarının, iqtisadi gücümüzün və xalqımızın birliyinin təntənəsidir. Azərbaycan 2026-cı ildə sülh prosesini daha da irəlilətmək məqsədilə ikitərəfli, birbaşa və prinsipial dialoqa sadiq qalacaq. Bu kontekstdə, artıq paraflanmış sülh sazişinin imzalanması və ratifikasiyasını təmin etmək üçün Ermənistanın konstitusiyasında Azərbaycana qarşı hələ də mövcud olan ərazi iddialarının aradan qaldırması və TRIPP layihəsi üzrə maneəsiz əlaqənin təmin edilməsi ilə bağlı öhdəliklərin tam icrası önəmlidir", - deyə deputat vurğulayıb.

## Azərbaycan-Çin əlaqələri 2025-ci ildə ən yüksək səviyyəyə çatıb

**2025-ci il Azərbaycan-Çin münasibətləri üçün önəmli, hətta tam əminliklə deyə bilərik ki, tarixi bir il oldu. Həm siyasi, həm iqtisadi, həm humanitar sahədə aktivlik müşahidə olundu. Siyasi baxımdan təbii ki, 2025-ci il Azərbaycan-Çin münasibətlərinin tarixinə həkk olunacaq. Belə ki, ötən ilin aprelində Azərbaycan Prezidenti İlham Əliyevin Çinə dövlət səfəri zamanı iki ölkə arasında hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulmasına dair Birgə Bəyanat imzalanıb. Beləliklə, 1992-ci ildə iki ölkə arasında diplomatik münasibətlər qurulandan bəri əlaqələrimiz ən yüksək səviyyəyə qalxıb.**

Tarixi qədim İpək yolu dövrünə gedib çıxan Azərbaycan-Çin münasibətləri ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra yeni mərhələyə qədəm qoyub. Təbii ki, bu dövrdə Azərbaycan-Çin münasibətlərinin inkişafında görkəmli dövlət xadimi Heydər Əliyevin müstəsna rolu olub. Ulu Öndərin siyasi kursunun layiqli davamçısı Prezident İlham Əliyev də BMT Təhlükəsizlik Şurasının daimi üzvü, iqtisadiyyatın həcminə görə dünyada ikinci dövlət olan Çin ilə münasibətlərin inkişafını daim diqqətdə saxlayıb. Dünyada liderlərin dostluq əlaqələrinin töhfələri sayəsində formalaşmış yaxşı dövlətlərarası münasibətlər nümunəsindən danışsaq, heç şübhəsiz, Azərbaycan-Çin əməkdaşlığını qeyd edə bilərik.

Dövlət başçılarının görüşləri, telefon danışıqları, məktub mübadilələri əsasında formalaşmış sıx dialoq, qarşılıqlı hörmət və etimad Azərbaycan-Çin münasibətlərinin müxtəlif sahələrdə dərinləşməsində əvəzsiz rol oynayır. Prezident İlham Əliyev ÇXR Sədri Si Cinpinin dəvətilə 2014-cü ildə Çində işgüzar, 2015-ci ildə isə dövlət səfərində olub. 2019-cu ildə isə Pekində keçirilən II "Bir kəmər, bir yol" Beynəlxalq Əməkdaşlıq Forumunda Cənubi Qafqazdan olan yeganə dövlət başçısı məhz Prezident İlham Əliyev olub. 2024-cü ildə Şanxay Əməkdaşlıq Təşkilatının Astanada keçirilən Zirvə toplantısı zamanı liderlər İlham Əliyev və Si Cinpinin görüşündə Azərbaycan ilə Çin arasında strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyannamə qəbul olunmuşdu. Cəmi 10 ay sonra iki ölkə arasında münasibətlərin səviyyəsinin bir pillə daha yüksəlməsi onu deməyə əsas verir ki, ölkələrimiz arasında qarşılıqlı faydalı əməkdaşlıq, siyasi etimad var və bu, davamlı inkişaf edir.

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində Çin ilə münasibətlərin səviyyəsinin yüksəldilməsini Azərbaycanın xarici siyasəti üçün 2025-ci ildə uğur gətirən ən mühüm hadisələrdən biri kimi dəyərləndirib. "Mən hesab edirdim ki, böyük əhəmiyyət daşıyan hadisələrdən biri də bizim Çinlə olan strateji tərəfdaşlığımızdır. Keçən il mənim Çinə dövlət səfərim zamanı Hərtərəfli strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə imzalanmışdır və bu da çox böyük uğur sayıla bilər. Çünki Çin də dünyada aparıcı ölkələrdən biridir və bu siyasi çərçivə, siyasi platforma, əlbəttə ki, bizim uğurlu diplomatiyamızın təzahürü sayıla bilər", - deyə dövlətimizin başçısı bildirib.

Azərbaycan Prezidentinin Çinə ötən ilin aprelindəki dövlət səfəri zamanı hərtərəfli strateji tərəfdaşlıq əlaqələrinin qurulması haqqında Birgə Bəyanat başda olmaqla əməkdaşlığa dair 20 sənəd imzalanıb. Həmin sənədlər iqtisadi-ticari, enerji, o cümlədən "yaşıl enerji", nəqliyyat, elm və təhsil, mədəniyyət, media və digər sahələri əhatə edir. Sözügedən sənədlər və ümumilikdə tərəflərin münasibətləri daha da irəli aparmaq istiqamətindəki fəaliyyəti sayəsində iqtisadi-ticari əməkdaşlıq genişlənib. İki ölkə arasında əmtəə dövriyyəsi rekord həddə çataraq, 4 milyard dolları ötüb. Çin şirkətləri Azərbaycana, xüsusən də "yaşıl enerji" sahəsində fəal şəkildə investisiya qoymağa başlayıb. Bura elektrik, günəş, külək stansiyalarının tikintisi, elektrik avtobuslarının istehsalı daxildir.




İki ölkə əməkdaşlığında ən mühüm sahələrdən biri nəqliyyat-logistika sahəsidir. Dövlətimizin başçısı da müsahibəsində bu məsələyə geniş toxunub. "Nəqliyyat sektorunda artıq bəhs etdiyim fəal əməkdaşlıq fonunda yükdaşımaların əsas artım mənbəyi təbii ki, Çin olacaq. Çin Xalq Respublikası hazırda Xəzər dənizinə dəmir yolunun, Qırğızıstan və Özbəkistan vasitəsilə daha bir dəmir yolunun tikintisini maliyyələşdirir, milyardlarla dollar sərmayə qoyur. Orada relyef çox mürəkkəbdir və çoxsaylı tunellər və körpülər tikilməlidir. Bu fakt onu göstərir ki, onlar bu layihəni maliyyələşdirmək qərarına gəldikləri üçün həmin dəmir yolu boş qalmayacaq. Xəzər dənizinə və deməli, Azərbaycana yükdaşımaların həcmi artacaq. Mərkəzi Asiya ölkələri ilə yanaşı, Çindən əlavə yükdaşımalar təbii ki, "Şərq-Qərb" marşrutunu, Orta dəhlizi tam işlək vəziyyətə gətirəcək", - deyə Prezident İlham Əliyev vurğulayıb.

Azərbaycan əlverişli coğrafi mövqeyi, iqtisadi və logistika imkanları ilə regionda beynəlxalq tranzit yükdaşımaları üçün əvəzolunmaz ölkədir. Azərbaycan hələ illər öncədən beynəlxalq nəqliyyat marşrutlarının, o cümlədən Orta dəhlizin tikintisinə ciddi sərmayələr yatırıb. Bura Ələt ticarət limanının inşası, Xəzər dənizində mülki donanmanın gücləndirilməsi, ölkə ərazisində və sərhədlərimizdən kənarda dəmir və avtomobil yollarının yenilənməsi və inkişafı, beynəlxalq hava limanlarının inşası daxildir. Azərbaycanın bağlantı imkanlarının davamlı olaraq yaxşılaşdırılması ölkənin uzunmüddətli iqtisadi strategiyasının əsas komponentləridir. Son illər Orta dəhliz üzrə daşınan yüklərin, o cümlədən Çin yüklərinin həcmi əhəmiyyətli dərəcədə artıb. Bu da əbəs deyil, çünki Rusiya-Ukrayna müharibəsi ilə əlaqədar yaranan vəziyyət ənənəvi şimal xəttinin sabit və etibarlı fəaliyyətini pozub. Bu səbəbdən Azərbaycandan keçən Orta dəhlizin əhəmiyyəti çoxalıb. Çin tərəfinin məlumatına görə 2025-ci ilin yanvar-noyabr aylarında bu marşrut üzrə ümumilikdə 466 qatar reysi həyata keçirilib. Elə 2026-cı il başlayar-başlamaz Çindən Orta dəhliz vasitəsilə ilin ilk qatarı Azərbaycana doğru yola düşüb. "Çin Enerji İnşaat Korporasiyası"na məxsus fotovoltaik modullarla yüklənmiş 45 konteynerlik Çin-Avropa yük qatarı Sian şəhərindən yola çıxaraq, Horqos sərhəd-buraxılış məntəqəsindən Qazaxıstana, oradan isə Xəzər dənizi vasitəsilə yekunda Bakıya çatacaq. Hazırda "Trans-Xəzər" beynəlxalq nəqliyyat dəhlizi üzrə qatarların hərəkəti daha da intensivləşib, daşınma müddəti isə 23 gündən təxminən 11 günədək qısalıb. Təkcə Çinin qərbindənki ən iri dəmir yolu terminalı olan Siandan deyil, paytaxt Pekin də daxil olmaqla, Çinin bir neçə şəhərindən Orta dəhliz vasitəsilə yük qatarı marşrutu fəaliyyət göstərir. Dünya Bankı, Avropa Yenidənqurma və İnkişaf Bankı, həmçinin İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının proqnozlarına əsasən, 2030-cu ilə qədər Orta dəhliz üzrə daşımaların həcmi 11 milyon tona, 2040-cı ilə qədər isə konteyner tutumu 865 minə yüksələcək. Bu, Azərbaycanın logistik əhəmiyyətini artırmaqla yanaşı , həm də qlobal ticarət üçün uzunmüddətli, davamlı bir yoldur.

Qarabağ Zəfərindən sonra yaranmış yeni reallıqlar fonunda Zəngəzur dəhlizi regional əməkdaşlıq üçün yeni imkanlar açır. Azərbaycan Zəngəzur dəhlizi layihəsini həyata keçirməklə Orta dəhlizi daha da şaxələndirməyi hədəfləyir. Çin və Orta Asiya ölkələrindən gələn yüklərin gələcəkdə həm də Zəngəzur dəhlizi boyunca hərəkəti mümkün olacaq. Bu da öz növbəsində həm daşınan yüklərin həcmi üçün, həm də rəqabətqabiliyyətlilik üçün, tranzit marşrutunun inhisarlaşdırılmasının qarşısını almaq və təbii ki, daha rəqabətli tariflər təmin etmək üçün alternativ təşkil edəcək. Təbii ki, Zəngəzur dəhlizinin Azərbaycan üçün iqtisadi faydası ilə yanaşı, siyasi dividendləri də olacaq.

*AZƏRTAC*

# Leyla Əliyeva Qusarda "Kənd Həyatı" layihəsinin qonağı olub





**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva yeni ilin ilk günlərində Qusar rayonuna səfər edib.**



AZƏRTAC xəbər verir ki, səfər çərçivəsində Leyla Əliyeva Qusar rayonunun Hil kəndində yaşayan Rəmixanovlar ailəsinin qonağı olub və "Kənd Həyatı" (Country Life Vlog) layihəsinin yeni buraxılışının çəkilişində iştirak edib.

Çəkilişlər zamanı Leyla Əliyeva bölgəyə məxsus məşhur milli yeməklərdən biri olan skanın hazırlanması prosesində ailə üzvləri ilə birlikdə iştirak edib. O, ölkəmizin şimal bölgəsinə xas olan kənd həyat tərzi və milli mətbəx ənənələri ilə yaxından tanış olub.

Leyla Əliyeva Azərbaycanın zəngin kulinariya mədəniyyətinin təbliğində, ölkəmizin dünyanın müxtəlif ölkələrində tanıdılması və sevilməsi istiqamətində gördükləri işlərə görə Rəmixanovlar ailəsinə təşəkkürünü bildirib, onların bu əhəmiyyətli layihəsinə uğurlar arzulayıb.

Qeyd edək ki, "Kənd Həyatı" "Yutub" kanalı 8 milyondan çox izləyiciyə və 3 milyarda yaxın baxış sayına malikdir. Milli mətbəx nümunələrini və kənd həyatını əks etdirən paylaşımları ilə geniş populyarlıq qazanan Rəmixanovlar ailəsinin videoları təkcə Azərbaycanda deyil, dünyanın müxtəlif ölkələrində geniş izləyici auditoriyası tərəfindən maraqla qarşılanır.

# "Orta dəhliz Mərkəzi Asiya ölkələri üçün getdikcə daha praktik marşruta çevrilir"

**"Orta dəhliz Mərkəzi Asiya ölkələri üçün getdikcə daha praktik marşruta çevrilir".**

Bu fikri AZƏRTAC-da yayımlanan "Azərbaycan və dünya" proqramının növbəti buraxılışında Tacikistandan olan iqtisadiyyat və logistika üzrə ekspert Madina Xayruloyeva bildirib.

Onun sözlərinə görə, daşımaların və konteyner göndərişlərinin, xüsusilə Çindən həyata keçirilən yüklərin həcminin artması dənizə çıxışı olmayan ölkələrin, o cümlədən Tacikistanın bu marşruta qoşulmasına tələbat yaradır.



Eyni zamanda ekspert vurğulayıb ki, gələcək inkişaf yalnız kompleks yanaşma əsasında mümkündür. Bu yanaşmaya logistika xidmətlərinin çeşidinin genişləndirilməsi və dərin rəqəmsallaşma daxildir. Onun fikrincə, vahid elektron sənədlərin tətbiqi, gömrük sistemlərinin inteqrasiyası və şəffaf tariflər yaxın 5-10 il ərzində logistikanı Azərbaycanla Tacikistan arasında iqtisadi əməkdaşlığın əsas hərəkətverici qüvvələrindən birinə çevirə bilər.

M.Xayruloyeva həmçinin qeyd edib ki, rəqəmsallaşma tədarük zəncirlərinin iştirakçıları üçün təkcə vaxt itkisini deyil, maliyyə xərclərini də azaldır. Proqramın qonağının sözlərinə görə, uzunmüddətli perspektivdə bu amil regionlar arasında əlaqəliliyi artırır və dayanıqlı trans-sərhəd logistika zəncirlərinin formalaşmasına şərait yaradır.

# Yaponiya da Orta dəhlizə maraq göstərir

## Bu, dolayısı ilə Azərbaycanın logistik imkanlarına olan inam deməkdir

**Son illər dünya siyasətində böyük dəyişikliklər baş verir. Əvvəllər dövlətlərarası münasibətlərdə siyasi və hərbi əlaqələr ön planda idisə, indi mənzərə fərqlidir - dövlətlərin bir-biriləri ilə münasibətlərində iqtisadi maraqlar önə çıxıb.**

Bu gün hamı anlayır ki, toxunulmaz olmağın yeganə yolu iqtisadi gücdən keçir. Bu yoxdursa, nə hərbi güc var, nə də siyasi nüfuz. O üzdən qlobal səviyyədə baş verən geosiyasi proseslərdə iqtisadi amil önə çıxıb. Amerika ilə Çin arasında olan gərginliyin yeganə səbəbi ikincinin son illər iqtisadi cəhətdən güclənməsidir. Okeanın o tayında bunu ABŞ-nin milli maraqlarına təhdid kimi görürlər.

Ən önəmli amillərdən biri də dünya iqtisadiyyatında baş verən proseslərdir. Qabaqcıl texnika və texnologiyaların tətbiqi, süni intellektdən istifadə istehsalın dəfələrlə yüksəlməsinə səbəb olub. Məsələn, dünyanın nəhəng avtomobil istehsalçıları olan Almaniya, ABŞ, Yaponiya, Koreya bu gün Çin avtomobil istehsalı qarşısında az qala çıxılmaz vəziyyətə düşüblər. Özü də Çin tək deyil. İnkişaf etməkdə olan ölkələrin bir çoxu elmin son nailiyyətlərindən yararlanıb dünya bazarına rəqabətədavamlı ucuz məhsullar çıxarırlar.

Məhsul istehsalında yaranan bu vəziyyət digər bir sahədə də sürətin artırılmasını tələb edir. O, qlobal bazarlara çıxışı təmin edən ticarət marşrutlarıdır. Odur ki, beynəlxalq nəqliyyat marşrutlarına olan maraq indi kəskin şəkildə artıb. İstehsal olunan məhsul qısa zamanda alıcıya çatdırılmasa, istehsal ləngiyər və nəticədə iqtisadi artım zəifləyər.

Belə vəziyyət yeni siyasi və iqtisadi rəqabət meydanı yaradıb. Bu rəqabət xüsusən ABŞ ilə Çin arasında daha açıq formada baş verir. Çin ona qarşı yaradılan maneələri dəf etmək üçün özünün "Bir kəmər, bir yol" layihəsini həyata keçirir. Bəzi açıqlamalara görə, bu məqsədlə Çin dünyada yol və liman infrastrukturunu qurmaq üçün bir trilyon dollara yaxın vəsait xərcləyib.

Çinin bu layihəsinin ən önəımli marşrutu Orta dəhlizdir. Bu dəhlizdə isə Azərbaycan açar ölkə statusundadır. O səbəbdən Çinlə Azərbaycan arasında marşrutun yükaşırma imkanlarını artırmaq üçün ciddi işlər görülür. Düzdür, bu marşrutla başqa ölkələr də yük göndərir, ancaq aşırılan yüklərin mütləq çoxluğu Çinə məxsusdur. Prezident İlham Əliyev bununla bağlı yerli televiziya kanallarına verdiyi müsahibəsində demişdir: "Nəqliyyat sektorunda artıq bəhs etdiyim fəal əməkdaşlıq fonunda yükdaşımaların əsas artım mənbəyi təbii ki, Çin olacaq. Çin Xalq Respublikası hazırda Xəzər dənizinə dəmir yolunun, Qırğızıstan və Özbəkistan vasitəsilə daha bir dəmir yolunun tikintisini maliyyələşdirir, milyardlarla dollar sərmayə qoyur. Orada relyef çox mürəkkəbdir və çoxsaylı tunellər və körpülər tikilməlidir. Bu fakt onu göstərir ki, onlar bu layihəni maliyyələşdirmək qərarına gəldikləri üçün həmin dəmir yolu boş qalmayacaq. Xəzər dənizinə və deməli, Azərbaycana yükdaşımaların həcmi artacaq. Mərkəzi Asiya ölkələri ilə yanaşı, Çindən əlavə yükdaşımalar təbii ki, "Şərq-Qərb" marşrutunu, Orta dəhlizi tam işlək vəziyyətə gətirəcək".

2020-2025-ci illərdə Bakı Beynəlxalq Dəniz Limanı üzərindən 365 min 860 TEU konteynerdən çox yük aşırılıb. Keçən il həmin limandan 107 min 54 TEU konteyner yük aşırılıb ki, bu da 2024-cü illə müqayisədə 40 faizlik artım deməkdir. Cari ilin ilk günlərində ölkəmizin ərazisindən keçən 45 konteynerlik yük qatarı da Çindən Avropaya yola salınıb.

Yeri gəlmişkən qeyd edək ki, son zamanlar Yaponiya da Orta dəhlizə maraq göstərir. Bu ölkənin rəsmi şəxsləri və biznes dairələrinin yüklərin Orta dəhlizlə Azərbaycan üzərindən Avropaya daşınmasına böyük önəm verdiklərinin şahidi oluruq. Bu isə o deməkdir ki, Orta dəhlizlə daşınan yüklərin həcmində böyük artımın müşahidə edilməsi reallıqdır.

Reallıq olan həm də Zəngəzur dəhlizinin fəaliyyətə başlamasına şübhənin qalmamasıdır. Layihə gerçəkləşəndən sonra Orta dəhlizin yükaşırma imkanları kəskin şəkildə artacaq, yüklərin Avropa ilə yanaşı, Fars körfəzinə və Yaxın Şərq ölkələrinə rahat çatdırmaq mümkün olacaq. Prezident İlham Əliyev yerli televiziya kanallarına verdiyi müsahibəsində Zəngəzur dəhlizinin (TRIPP) əhəmiyyətini vurğulayaraq demişdir: "Bildiyiniz kimi, keçən il Qars-Naxçıvan dəmir yolunun tikintisi ilə bağlı Türkiyə tərəfi qərar qəbul etmişdir. Beləliklə, Naxçıvandan Qarsa qədər və faktiki olaraq Türkiyənin dəmir yolları şəbəkəsinə tam bağlantı olacaq və bu da çox önəmli layihə sayılmalıdır. Çünki Naxçıvanı Türkiyə ilə də birləşdirə biləcək dəmir yolu mütləq olmalıdır və bütün bu layihələr təbii ki, koordinasiya şəklində aparılmalıdır. Azərbaycan ərazisində bütün bu yollar daha tez həll oluna bilər. Amma koordinasiya olanda xərclənən vəsaitə qənaət də olacaq. Çünki biz də bilməliyik, nə vaxt, hansı yolun seqmenti hazır olacaq ki, o vaxta qədər öz infrastrukturumuzu buna hazırlayaq. Amma yenə də deyirəm, bizim ərazimizdə Zəngəzur (TRIPP) dəhlizi ilə bağlı artıq heç bir problem qalmayıb".

***Rüstəm KAMAL, "Azərbaycan"***



# Azərbaycanın yol-nəqliyyat infrastrukturu müasir çağırışlara uyğun inkişaf edir

**Müasir dövrdə ölkələrin sosial-iqtisadi inkişaf səviyyəsi birbaşa nəqliyyat infrastrukturunun vəziyyəti ilə ölçülür. Sürətli urbanizasiya, əhalinin artımı, iqtisadi fəallığın genişlənməsi və mobil həyat tərzinin formalaşması yol-nəqliyyat sistemlərinə olan tələbatı kəskin şəkildə artırır. Azərbaycan da bu qlobal tendensiyalardan kənarda qalmır.**

Son illər ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar, regionların balanslı inkişafı və paytaxt Bakının böyüməsi nəqliyyat infrastrukturunun davamlı şəkildə yenilənməsini zəruri edir. 2003-cü ildən bəri Azərbaycanda yol, dəmir yolu, metro və hava nəqliyyatı sahələrində böyük inkişaf həyata keçirilib. Yol infrastrukturu çərçivəsində 20,767 km yol, 335 körpü, 45 tunel və 163 piyada keçidi tikilib. Dəmir yolları üzrə 1,562 km yeni xətt, 1,906 km təmir edilmiş xətt və müasir qatar və vaqonlar alınıb. Metro şəbəkəsi 30 km-dən 41 km-ə genişlənib, 7 stansiya və 1 depo tikilib, sərnişin sayı son 20 ildə 137 milyondan 230 milyona çatdırılıb.

Xüsusilə Bakı şəhərində avtomobillərin sayının sürətlə artması, gündəlik hərəkət intensivliyinin yüksəlməsi və şəhər əhalisinin çoxalması mövcud yol şəbəkəsinin üzərinə ciddi yük qoyur. Bu reallıqlar tıxacların qarşısının alınması, ictimai nəqliyyatın inkişafı, alternativ hərəkət vasitələrinin təşviqi və ekoloji balansın qorunması kimi məsələləri gündəmə gətirir. Artıq nəqliyyat məsələsi təkcə rahat hərəkət problemi deyil, eyni zamanda şəhər həyatının keyfiyyəti, ətraf mühitin mühafizəsi və sosial rifah məsələsi kimi nəzərdən keçirilir.

Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibədə bu məsələyə də toxundu. Dövlət başçısı ölkənin yol-nəqliyyat sistemi ilə bağlı qarşıda duran çağırışları və gələcək inkişaf prioritetlərini diqqətə çatdırdı.

### Nəqliyyat gündəliyi

Prezident İlham Əliyev müsahibəsində Azərbaycanın müasir nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi istiqamətində görülən işlərdən söz açaraq, mövcud reallıqlara diqqət çəkib. Dövlət başçısı bildirib ki, hazırda inkişaf göz qabağındadır, əhali artır, avtomobillərin sayı çoxalır və hər il ölkəyə on minlərlə yeni maşın gətirilir. Bu amillər fonunda



mövcud yol infrastrukturunun artıq kifayət etmədiyini vurğulayan Prezident problemin kompleks yanaşma tələb etdiyini bildirib.

Bu kontekstdə Prezident Bakının yeni yol infrastrukturunun xəritəsinin təsdiqləndiyini diqqətə çatdırıb: "Qeyd etdiyim kimi, 10 yeni metro stansiyasının yeri də müəyyən olundu. O yerlər artıq onların sərəncamına verildi. Bundan başqa, əlavə iki depo da tikiləcək. Mövcud olan metro stansiyalarında optimallaşma layihələri icra edilir. Mən qeyd etdim, son 20 il ərzində yeddi metro stansiyası tikilib. Əgər onlar tikilməsəydi, görün, indi vəziyyət necə olacaqdı?"

Prezident İlham Əliyev Bakıda yeni ictimai məkanların yaradılmasının geniş vüsət aldığını qeyd edərək, bu prosesin nəqliyyat infrastrukturu ilə paralel şəkildə aparıldığını bildirib. Onun sözlərinə görə, yeni parklar, istirahət və ictimai zonalar salınarkən, həmin ərazilərin yol-nəqliyyat təminatı da mütləq şəkildə nəzərə alınır. Dövlət başçısı Mərkəzi Parkı buna bariz nümunə kimi göstərib.

Yeni inşa ediləcək metro stansiyaları, süni göllər və nəqliyyat sistemlərinin qurulması məsələlərinə də toxunan Prezident, xüsusilə velosiped zolaqlarının yaradılmasına diqqət çəkib: "İndi velosiped zolaqlarının yaradılmasına başlanılmışdır. Bilirəm, bəziləri bundan narazıdır. Amma inkişaf etmiş ölkələrin təcrübəsinə baxsaq görərik ki, bu da bir çıxış yoludur. Çünki bu, həm sağlamlıqdır, həm də ki, tıxaclara qarşı önəmli bir vasitə olacaq. Təbii olaraq ictimai nəqliyyat istədiyimiz səviyyədə olan zaman, əlbəttə, ictimai nəqliyyatdan istifadə etmək ən yaxşı variant ola bilər. Biz bunu etməyə çalışırıq. Yenə də deyirəm, hər il Bakıya yüzlərlə yeni avtobus gətirilir. Hazırda havanı çirkləndirməyən elektrobuslar istehsal olunur. Həm dövlət, həm də özəl şirkətlər tərəfindən hər il yüzlərlə yeni avtobus gətiriləcək. Biz Bakının tıxac problemini belə həll edə bilərik".

### İnkişafın dayaqlarından biri

Mövzu ilə bağlı qəzetimizə açıqlama verən nəqliyyat məsələləri üzrə ekspert Eldəniz Cəfərov bildirib ki, Prezident İlham Əliyevin yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi ilə bağlı səsləndirdiyi fikirlərə bir neçə istiqamətdən yanaşmaq olar. Ekspertin sözlərinə görə, dövlət başçısının da vurğuladığı kimi, ölkədə yolların, körpülərin, dəmir yollarının və hava limanlarının inkişafı strateji əhəmiyyət daşıyır: "Bu infrastruktur təkcə iqtisadi və sosial baxımdan deyil, ümumilikdə strateji təhlükəsizlik və regional inkişaf baxımından da mühüm rol oynayır. Yol-nəqliyyat infrastrukturu iqtisadiyyatın inkişafına, bölgələrarası əlaqələrin güclənməsinə, əhalinin rahat və təhlükəsiz hərəkətinə xidmət edir, eyni zamanda logistika xərclərini azaldır və regional inkişafı stimullaşdırır".

Eldəniz Cəfərov işğaldan azad edilmiş ərazilərdə hava limanlarının tikilməsinin də bu strategiyanın tərkib hissəsi olduğunu qeyd edib: "Hava limanlarının mövcudluğu daşınma və logistika imkanlarını genişləndirir, bölgələrdə hərəkəti daha əlverişli edir. Füzuli, Zəngilan və Laçında 3 beynəlxalq hava limanı istifadəyə verilib. Bu hava limanlarının beynəlxalq marşrutlarla əlaqələndirilməsi də mümkündür".

Ekspert Bakı şəhərində yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsinə də toxunaraq bildirib ki, bu istiqamətdə mühüm addımlar atılıb: "Cənab Prezident Bakı və ətraf ərazilərdə nəqliyyat infrastrukturunun inkişafı ilə bağlı 2025-2030-cu illəri əhatə edən dövlət proqramını imzalayıb. Proqram paytaxtda yolların genişləndirilməsini, tıxacların azaldılmasını, nəqliyyat vasitələrinin modernləşdirilməsini, piyada zolaqlarının yaradılmasını nəzərdə tutur. Bütün bunlar şəhər həyatının keyfiyyətini yüksəldir". Onun sözlərinə görə, müasir dünyada "şəhər mobilliyi" anlayışı yalnız insanların rahat hərəkəti ilə məhdudlaşmır. Şəhər mobilliyi eyni zamanda ekoloji mühitin yaxşılaşdırılmasını, yaşıl zonaların artırılmasını da əhatə edir. Müasir nəqliyyat sistemləri, elektron nəqliyyat kartları, smart idarəetmə, yollarda kameralar, "ağıllı işıqfor" və radarların tətbiqi şəhərdə hərəkəti daha səmərəli və təhlükəsiz edir.

Qarabağ və Şərqi Zəngəzurda həyata keçirilən yol-nəqliyyat layihələrinin xüsusi əhəmiyyət daşıdığını vurğulayan ekspert qeyd edib ki, bu layihələr həm iqtisadi, həm də sosial baxımdan mühümdür. Yeni yollar və körpülər şəhərlər, rayonlar və bölgələr arasında ticarətin və turizmin inkişafına şərait yaradır, əhalinin hərəkətini xeyli asanlaşdırır. Qarabağ və Şərqi Zəngəzurda yolların müasir standartlara uyğun qurulması uzunmüddətli regional inteqrasiyanın əsas təminatıdır".

Azərbaycanda yol-nəqliyyat infrastrukturunun təkmilləşdirilməsi sahəsində həyata keçirilən layihələr şəhərlərin gələcək inkişaf modelini formalaşdırır, regionlar arasında əlaqələri möhkəmləndirir və vətəndaşların gündəlik həyat keyfiyyətinə birbaşa təsir edir. Müasir nəqliyyat sistemlərinin qurulması, ekoloji baxımdan təmiz həllərin tətbiqi və ictimai nəqliyyatın təşviqi tıxacların azaldılması ilə yanaşı, daha rahat, təhlükəsiz və "yaşıl şəhər" mühitinin formalaşmasına xidmət edə bilər.

***Ülkər XASPOLADOVA, "Azərbaycan"***

# İqtisadiyyat və sosial həyat



# Prezident İlham Əliyevin proqnozları növbəti dəfə də özünü doğrultdu

## "Faydalı qazıntıya praqmatik, realist yanaşma əsas götürülməlidir"

**Azərbaycan qazının ixracı həm həcm, həm də coğrafiya baxımından artır. İndiyədək 11-i müntəzəm əsasda olmaqla, 14 ölkəni qazla təchiz etmişik. Bunlar Gürcüstan, Türkiyə, İtaliya, Bolqarıstan, Yunanıstan, Rumıniya, Macarıstan, Serbiya, Sloveniya, Xorvatiya, Şimali Makedoniya, Slovakiya, Ukrayna və Suriyadır. 8-i Avropa İttifaqının üzvü olmaqla 10 Avropa ölkəsi Azərbaycandan qaz alır. Cari ildə bu sıraya daha iki Avropa ölkəsinin qoşulacağı gözlənilir.**

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində bu məsələ üzərində də dayanıb: "Elə ölkələr var ki, onlar 2024-cü ildə bizdən qaz əldə edib, lakin sonra başqa mənbələrlə əlaqədar dayandırıb. Bu bir növ tələbata əsaslanır, onların ehtiyacı olanda biz təchizata başlayırıq, ehtiyacı olmayanda dayandırırıq. Lakin ümumilikdə Azərbaycanın boru kəməri vasitəsilə qaz nəqlinin coğrafi əhatə dairəsi 14 ölkədən ibarətdir. Bu il onlara daha iki Avropa ölkəsi əlavə olunacaq. Ümumilikdə 16 ölkə olacaq, bu, boru kəməri qazı ilə bağlı ən böyük rəqəmdir. Dünyada heç bir ölkə Azərbaycan kimi bu qədər ölkəni boru kəməri vasitəsilə qazla təchiz etmir. Ötən il bizim ixracımız artım potensialına malik olmaqla, 25 milyard kubmetrdən çox olub".

Bu sahədə keçən il Suriya yeni tərəfdaşımız oldu. Beləliklə, Azərbaycan bu ölkəyə elektrik enerjisi çatışmazlığını azaltmağa kömək etdi. Müxtəlif hesablamalara görə, Azərbaycan qazı onlara elektrik enerjisi çatışmazlığını gündə təxminən 4 saatadək azaltmaq imkanı verir. Təchizatı artırmaq variantı da nəzərdən keçirilir. Ümumiyyətlə, şaxələndirilmiş boru kəməri sisteminə və etibarlı təchizatçı nüfuzuna malik olan Azərbaycanın qazı bir çox ölkə üçün enerji təhlükəsizliyində mühüm rol oynayır. Müştərilərimizin əksəriyyəti isə Avropa İttifaqının üzvləridir.

Dövlətimizin başçısı ixracın artımı üçün iki mənbə olduğunu söyləyib. Bunlardan birincisi bərpaolunan enerjidir. Belə ki, bərpaolunan enerjimiz nə qədər çox olarsa, ixrac üçün bir o qədər çox qaza qənaət edilə bilər. İkinci mənbə isə mövcud və yeni yataqlardan əlavə hasilatın əldə olunmasıdır.

Məlum olduğu kimi, Xəzərin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarından uzun müddətdir neft və səmt qazı çıxarılır. İndi bu yataqlar bloku dərin neft laylarının altında həm də sərbəst qaz ehtiyatları vəd edir. Hazırda bu, bir layihə şəklində işlənməkdədir və ilk qazın cari ildə əldə olunacağı gözlənilir.

"Şahdəniz Kompressiya" layihəsi çərçivəsində bu yataqdan da əlavə qaz alınacaq. Buradan hasilatın cari ildə başlanması nəzərdə tutulur.

Digər perspektivli yataqlar da var. Məsələn, "Babək" böyük ümidlər verən yataqdır və bir sıra şirkətlər onun işlənməsində investor olmaq istəyirlər. "Abşeron"nun isə birinci mərhələsi üzrə hasilat həyata keçirilir və yerli istehlaka yönəldilir. Növbəti mərhələdə "Abşeron" üçqat artıq qaz verə bilər ki, bu da ixracın artmasına dəstək olar.

Prezident İlham Əliyev sözügedən müsahibədə Azərbaycan qazının mavi yanacağı artıq idxal edən və həcmi artırmaq istəyən, eləcə də hələ bundan sonra alacaq ölkələrə lazım olduğunu diqqətə çatdırmışdır.

Belə bir şəraitdə istər-istəməz ötən illərdə bəzi ölkələrin "faydalı qazıntı allergiyası" yada düşür. Təsadüfi deyil ki, dövlətimizin başçısı müsahibəsində bu mövzuya da toxunmuşdur: "Biz bunu bir neçə il öncə müşahidə etdik, o vaxt hamı faydalı qazıntıya zidd mövqedən çıxış edirdi, hər kəs bərpaolunan enerji haqqında danışırdı. Prezident Tramp və onun administrasiyası bu yanaşmanı dəyişdi. Bildiyiniz kimi, o, bərpaolunan enerjiyə qəti şəkildə qarşıdır və faydalı qazıntının tərəfdarıdır. Birləşmiş Ştatlar isə birmənalı olaraq dünyanın aparıcı ölkəsidir və orada baş verən hadisələr müxtəlif istiqamətlərə təkan verir. Bilirəm ki, Avropanın bəzi maliyyə təsisatları əvvəlcə tam qadağan edilən faydalı qazıntılara aid siyasətinə yenidən baxmağa başlayıblar. İndi isə onlar faydalı qazıntı layihələrinin maliyyələşdirilməsini nəzərdən keçirməyə başlayıblar. Aparıcı enerji şirkətləri sadəcə, əsas tendensiyaya uyğun gedirdi və bəziləri hətta adlarından "neft" sözünü çıxarırdı. İndi isə onlar yenidən faydalı qazıntıya qayıdırlar".

Azərbaycan Prezidenti bu məsələyə də həmişə uzaqgörənliklə yanaşmışdır. COP29 ərəfəsində - 2024-cü il aprelin 26-da Almaniyanın paytaxtı Berlində keçirilən "15-ci Petersberq İqlim Dialoqu"nun Yüksək Səviyyəli Seqmentində çıxış edərkən dövlətimizin başçısının dediyi sözləri xatırlamaq da yerinə düşür: "Azərbaycan faydalı qazıntı ilə zəngin olan ölkə kimi OPEC+ platformasının üzvüdür. Hesab edirəm ki, bu həmçinin əlavə üstünlükdür, çünki təbii sərvətləri, xüsusən də neft və qazı zəngin olan ölkə iqlim dəyişmələri məsələlərinin həllində ön cərgədə olmalıdır. Beləliklə, həmin müxtəlif rollar, fikrimcə, yaxşı həmrəylik ruhunu yaradacaq və bizə məqsədlərimizə nail olmağa imkan verəcək. COP-a evsahibliyi edəcək ölkə kimi seçilməyimizdən dərhal sonra bəzi mətbuat orqanları əsas diqqətini bizim enerji quruluşumuza və enerji tarixçəmizə yönəltdilər. Mən hər zaman demişəm ki, neft və qaz ehtiyatları bizim günahımız deyil. Bu, Tanrıdan verilən vəsilədir. Buna görə biz mühakimə olunmalı deyilik. Biz həmin ehtiyatların ölkənin inkişafına, yoxsulluğun və işsizliyin azaldılmasına, "yaşıl gündəlik"lə bağlı tutduğumuz hədəflərə yönəldilməsinə görə dəyərləndirilməliyik. Neft və qazımız həmçinin Avropa bazarlarına hələ uzun illər ərzində lazım olacaq".

Həmin ilin noyabrında burada, Bakıda COP29-a evsahibliyi edən ölkənin rəhbəri kimi İlham Əliyev bildirdi ki, heç kəs hazırda faydalı qazıntını inkar edə bilməz. Bu reallıq kənara qoyula bilməz.

Bir neçə gün əvvəl verdiyi müsahibədə məhz həmin günləri yada salaraq Prezidentimiz demişdir: "Bütöv "yaşıl hərəkat" qrupları mənə hücum çəkdi və dedi ki, COP29-a ev sahibi olan ölkə faydalı qazıntını necə təşviq edə bilər?! Mən bunlara sadəcə, reallığa əsaslanaraq söyləyirdim".

Bəli, biz məsələyə realist yanaşmışdıq. Neft və qazla zəngin olan ölkələrin məsuliyyəti Azərbaycanın timsalında da aydın görünür. Bu ölkələr həmçinin "yaşıl enerji"yə sərmayə yatırırlar.

"Beləliklə, düşünürəm ki, hazırda Avropa təsisatları anlayırlar ki, faydalı qazıntıya münasibətdə qorxu aradan qalxmalıdır və praqmatik, realist yanaşma əsas götürülməlidir. Azərbaycan bu gün və gələcək illərdə Avropa istehlakçıları üçün mühüm tərəfdaşdır. Enerji təhlükəsizliyi baxımından etibarlı təchizatçı kimi rolumuz yalnız artacaq, azalmayacaq, artacaq. Elektrik enerjisini, "yaşıl enerji"ni, hidrogeni, eləcə də "yaşıl hidrogen"i əlavə etsək, rolumuz daha da böyük olacaq", - deyə dövlətimizin başçısı müsahibəsində bildirmişdir.

*Flora SADIQLI,*
*"Azərbaycan"*

## Şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərə 16 min mənzil verilib

**Ölkəmizdə həssas əhali qruplarından olan vətəndaşlarla bağlı icra olunan mühüm sosial proqramlardan biri də şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olan şəxslərin mənzillə təminatı proqramıdır.**

Prezident İlham Əliyev yerli televiziya kanallarına müsahibəsində deyib: "Son illərdə 16 min şəhid ailəsinə və müharibə əlilinə, onların ailələrinə dövlət tərəfindən mənzillər verilmişdir. Burada da Azərbaycan qədər bu sahəyə diqqət yetirən ikinci ölkə yoxdur".

Qeyd edək ki, dövlətimizin başçısının tapşırığı əsasında bu proqram möhtəşəm Zəfər əldə etdiyimiz Vətən müharibəsindən sonra 5 dəfə genişləndirilib. Postmüharibə dövründə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tərəfindən 7 mindən çox mənzil şəhid ailələrinə və müharibə ilə əlaqədar əlilliyi olanlara təqdim edilib.

Müharibə ilə əlaqədar əlilliyi olanlara yönələn dəstək tədbirlərindən biri də onların minik avtomobilləri ilə təmin edilməsidir. Bu kateqoriyadan olan vətəndaşlara ötən dövrdə 7700, o cümlədən postmüharibə dövründə 567 avtomobil verilib və növbədə olanların avtomobillə təminatı başa çatıb.

## Dövlət vəsaitlərinin idarə edilməsindən 121 milyon manat gəlir əldə olunub

**2025-ci ilin aprel ayından etibarən milli valyutada olan vahid xəzinə hesabının vəsaitləri hərrac üsulu ilə depozitlərə yerləşdirilməyə başlanılıb. Bu mexanizmin tətbiqində əsas məqsəd dövlət büdcəsi vəsaitlərinin daha səmərəli idarə edilməsi və büdcə üçün əlavə gəlirlərin formalaşdırılmasıdır.**

Maliyyə Nazirliyindən bildirilib ki, mexanizm çərçivəsində dövlət büdcəsində müvəqqəti olaraq istifadə olunmayan sərbəst vəsaitlər şəffaf və rəqabətli depozit hərracları vasitəsilə bank sektorunda yerləşdirilir. Hərraclarda banklar faiz dərəcələri üzrə təkliflər təqdim edir və ən yüksək faiz dərəcəsi təqdim edən banklarda vəsaitlər depozitlərə yönəldilir. Bu yanaşma bir tərəfdən dövlət büdcəsi üçün əlavə faiz gəlirlərinin əldə edilməsinə, digər tərəfdən isə bank sektorunda likvidliyin artmasına şərait yaradır.

Ötən ilin doqquz ayı ərzində keçirilmiş depozit hərracları nəticəsində dövlət büdcəsinə 98,6 milyon manat məbləğində faiz gəliri təmin edilib. Bundan əlavə, Mərkəzi Bankın vasitəçiliyi ilə xarici valyuta vəsaitlərinin xaricdə likvid fondlara yerləşdirilməsi və idarə olunması nəticəsində il ərzində 22,4 milyon manat ekvivalentində faiz gəliri əldə olunub. Nəticə etibarilə vahid xəzinə hesabının effektiv idarə edilməsi sayəsində 2025-ci il ərzində dövlət büdcəsinə ümumilikdə 121 milyon manat gəlir təmin olunub.

## Mərkəzi Bankın valyuta ehtiyatları artıb

**Bu il yanvarın 1-nə Azərbaycan Mərkəzi Bankının (AMB) valyuta ehtiyatları 11 milyard 514,9 milyon dollar təşkil edib.**



AZƏRTAC AMB-yə istinadla xəbər verir ki, bu, ötən ayın eyni dövrü ilə müqayisədə 81,1 milyon dollar çoxdur.

# Böyük qayıdış həm də azad edilmiş ərazilərin ölkə iqtisadiyyatına inteqrasiyasıdır

**30 ilə yaxın müddətdə talan edilən və ölkənin iqtisadi dövriyyəsindən kənarda qalan Qarabağ və Şərqi Zəngəzur torpaqları yenidən qurulur. Azad edilmiş ərazilərdə aparılan genişmiqyaslı quruculuq işləri və dirçəliş Böyük qayıdışın real məzmununu təşkil edir. Bu çərçivədə ərazilərin iqtisadi zəncirə daxil edilməsi həm regional, həm də milli inkişafı sürətləndirir.**

Məhz bu dirçəliş prosesinin planlı və davamlı xarakter alması məqsədilə dövlət tərəfindən xüsusi strateji çərçivə formalaşdırılıb. Prosesin hüquqi və iqtisadi əsaslarını müəyyən edən əsas sənəd isə "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"dır. Proqram həmin ərazilərin bərpasına sistemli və mərhələli yanaşmanı təmin edir. Əsas məqsədlərindən biri isə Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının ölkənin ümumi iqtisadi dövriyyəsinə cəlb olunması, burada rəqabətqabiliyyətli istehsal mühitinin formalaşdırılmasıdır.

İşğaldan azad edilmiş ərazilərin ölkənin iqtisadi zəncirinə inteqrasiyası ilk növbədə müasir infrastrukturun yaradılmasını zəruri edir. Çünki dayanıqlı iqtisadi fəaliyyət nəqliyyat, enerji, kommunikasiya və sosial infrastruktursuz mümkün deyil. Bu baxımdan "Böyük qayıdış" proqramı çərçivəsində həyata keçirilən layihələr iqtisadi canlanmanın fundamental əsasını təşkil edir. Prezident İlham Əliyev yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibəsində bildirib ki, belə yanaşma dövlət siyasətinin əsas istiqamətlərindən biridir: "Biz bu bölgələri canlandırmaq üçün gərək bağlantılar, enerji təminatı yaradaydıq. Bu işlə məşğul olduq və azad edilmiş bütün bölgələri mərkəzlə, mərkəzi infrastrukturla faktiki olaraq birləşdirdik. Enerji sistemi - dairəvi enerji sistemi quruldu və bu gün mərkəzdən oraya yox, oradan mərkəzə enerji daxil olur. Çünki biz beş il ərzində 307 meqavat gücündə su-elektrik stansiyaları yaratmışıq və əlbəttə ki, azad edilmiş bölgələrdə istehlak qat-qat aşağıdır. Ona görə biz bu dairəvi sistemi yaratmaqla bu gün enerji axınını ölkə üzrə lazımi səviyyədə bölə bilərik".

Məlumdur ki, su təminatının olmaması istənilən ərazidə yaşayış və iqtisadi fəaliyyət üçün əsas maneələrdəndir. Məhz bu reallığı nəzərə alan dövlət azad edilmiş ərazilərdə su təsərrüfatının bərpasını prioritet istiqamətlərdən biri kimi müəyyən edib. Bu gün Qarabağ və Şərqi Zəngəzurda bir sıra mühüm su anbarları tikilib və ya əsaslı təmir olunub. Zabuxçay su anbarının sıfırdan inşası, Sərsəng, Suqovuşan, Köndələnçay və Xaçınçay su anbarlarında aparılan bərpa işləri regionun həm məskunlaşma, həm də kənd təsərrüfatı potensialının formalaşmasına xidmət edir. Bu layihələr təkcə iri maliyyə vəsaitləri deyil, eyni zamanda peşəkar işçi qüvvəsi və hazırlıqlı kadrlar tələb edir. Məhz dövlətin iqtisadi imkanları ilə yanaşı, insan kapitalının səfərbər olunması bu mürəkkəb layihələrin icrasına şərait yaradır.

Dağlıq və çətin relyef şəraitində, xüsusilə Kəlbəcər istiqamətində sərt iqlim və çətin coğrafi şəraitdə elektrik xətlərinin çəkilməsi, körpülərin və uzunluğu onlarca kilometrə çatan tunellərin inşası isə əsl fədakarlıq və qəhrəmanlıq nümunəsidir. Amma gecə-gündüz çalışan mühəndis və fəhlələrin zəhməti hesabına bu bölgəyə işıq, həyat və inkişaf yolu açılır. Dövlət başçısı məlum müsahibədə həmin çətinliyi belə ifadə edir: "Mən birinci dəfə Kəlbəcərdən Laçına gedəndə həyatımda belə təhlükəli yol görməmişdim. Uzun illərdir ki, avtomobil sürürəm, o cümlədən vaxtilə müxtəlif ölkələrdə də olanda sürmüşdüm, təbii ki, Azərbaycanın hər bir yerində, amma mən elə təhlükəli yol görməmişdim. Bəlkə də Göygöl-Kəlbəcər yolu, Murov aşırımı, - tunel tikilənə qədər o yoldan istifadə edirdik, - ona bənzər ola bilər".




Təbii ki, yenidən qurulan yolların hər birində şəhidlərimizin al qanı, şanlı ordumuzun qeyri-adi hərbi strategiya izləri var. Bu yollar zəfərimizin, şəhidlərimizin, qazilərimizin, Müzəffər Ali Baş Komandanın iradə və qətiyyətinin əksidir. Yeni yaradılan yol infrastrukturu rahatlıqla yanaşı, həm də əhalinin mobilliyini yüksəldən, yaşayış və məşğulluq məkanlarını bir-biri ilə sıx əlaqələndirən mühüm iqtisadi amildir. Ağdamda yaşayan vətəndaşın Şuşada işləməsi, yaxud əks prosesin baş verməsi artıq real və gündəlik praktikaya çevrilib. Məhz bu imkanlar keçmiş məcburi köçkünlərin doğma yurdlarına qayıdışını asanlaşdırır və onların normal həyata qovuşmasını təmin edir. Dövlət başçısı yanvarın 5-də yerli televiziya kanallarına verdiyi müsahibəsində bu yanaşmanın dövlət siyasətinin prioritet istiqamətlərindən biri olduğunu vurğulayıb: "Bu gün əsas məqsəd keçmiş köçkünləri oraya qaytarmaqdır, artıq 70 min insan orada yaşayır. Təbii ki, onların hamısı köçkün deyil. Ancaq işləyənlər və əksəriyyət köçkün deyil. Otuz iki şəhər və kənddə. Bu il biz orada yaşayanların sayını bir neçə dəfə artıra bilərik. Amma hələ ki, heç bir rəqəm demək istəmirəm. Çünki ola bilir, bəzi hallarda işin icrası uzanır. Amma hesab edirəm ki, ən azı 30-50 kənddə biz insanları yerləşdirə bilərik və beləliklə, ola bilər 120, 130, 140 min əhali bu ilin sonuna qədər orada yaşayacaq, çalışacaq" - , deyə Prezident İlham Əliyev jurnalistin bu barədə sualını cavablandırıb.

İşğaldan azad edilmiş ərazilərdə yaradılan müasir infrastruktur bu torpaqların Azərbaycanın ümumi iqtisadi zəncirində funksional və rəqabətqabiliyyətli halqaya çevrilməsinə xidmət edir. Dövlət proqramı çərçivəsində həyata keçirilən tədbirlər iqtisadi planlaşdırma, investisiya təşviqi və özəl sektorun fəal iştirakını özündə birləşdirir. Qarabağ və Şərqi Zəngəzurda tətbiq edilən vergi və gömrük güzəştləri, sənaye və aqroparkların yaradılması, "ağıllı şəhər" və "ağıllı kənd"lərin tikilməsi, eləcə də xüsusi iqtisadi zonaların formalaşdırılması regionun ölkə iqtisadiyyatına sürətli inteqrasiyasına şərait yaradır.

*Züleyxa ƏLİYEVA,*
*"Azərbaycan"*





# Mədəniyyət





● Milli sərvətimiz

**Ana dili bir millətin kimliyinin, mədəniyyətinin və tarixi yaddaşının qorunmasının təməl daşıdır. Hər xalqın öz dilində yaşaması, onun öz varlığını ifadə etməsi və gələcək nəsillərə öz dəyərlərini, adət-ənənələrini ötürməsi üçün mühüm əhəmiyyət kəsb edir. Ana dili təkcə ünsiyyət vasitəsi deyil, bir cəmiyyətin düşüncə tərzini, davranış qaydalarını və sosial strukturunu müəyyən edən mühüm bir elementdir. Bu səbəbdən bir xalqın dili qorunduğu zaman, eyni zamanda onun mədəniyyəti, tarixə baxışı və milli kimliyi də qorunmuş olur.**



## Azərbaycan dilini qorumaq borcumuzdur

Azərbaycan dili tarixin keşməkeşlərindən keçib, çox ağır sınaqlara məruz qalıb. Məmləkətimiz müxtəlif dövrlərdə yadellilərin hücumları ilə qarşılaşıb, işğal edilib. Talanan yalnız zəngin sərvətlərimiz olmayıb. Eyni zamanda milli kimliyimizin, milli varlığımızın göstəricisi olan ana dilimizə də ögey münasibət bəslənilib, qərəzlə yanaşılıb. Prezident İlham Əliyevin yanvarın 5-də yerli televiziya kanallarına müsahibəsində qeyd etdiyi kimi: "Əsrlər boyu müstəqillik eşqi ilə yaşamış xalqıq, əsrlər boyu müstəmləkəçilik şəraitində yaşamış xalqıq. Bunun adları fərqli ola bilər, amma mahiyyət etibarilə bu, müstəmləkəçilikdir. İstər qədim dövrlərdə, istər Rusiya imperiyası dövründə, fars imperiyası dövründə, Sovet İttifaqı dövründə bu, müstəmləkəçilikdən başqa bir şey deyildi.

Doğrudur, Azərbaycan dili əsrlər boyu müxtəlif mədəniyyətlərin təsirinə məruz qalmasına baxmayaraq, xalqımızın mənəvi ucalığını və milli bütövlüyünü təmin edən bir amil olaraq qalmağı bacarıb". Lakin dövlət başçısı İlham Əliyevin vurğuladığı kimi, başqa imperiyaların, ölkələrin tərkibində yaşadığımız üçün istər-istəməz xalqımızın psixologiyasına da müəyyən təsir edib: "Bu psixologiyanın fəsadları bu gün də var. Azalır, amma var. Nə qədər az olsa, o qədər də yaxşıdır. Yəqin ki, nəsillərin dəyişməsi ilə, başqa amillərlə bağlıdır. Ancaq dil o amildir ki, milləti millət edir".

Ana dilimizin saflığının qorunması və inkişafı hər zaman olduğu kimi, bu gün də ən vacib məsələlərdən biridir. Prezident İlham Əliyevin yerli televiziya kanallarına müsahibəsində səsləndirdiyi fikirlər bu məsələnin əhəmiyyətini bir daha vurğulayır və dilin qorunmasının yalnız mədəni bir məsələ deyil, həm də ideoloji, sosial və siyasi bir məsuliyyət olduğunu göstərir.

Dövlət başçısı İlham Əliyev sözügedən müsahibəsində dilin qorunmasının yalnız mədəni bir məsələ olmadığını, həm də dövlətçiliyin, milli kimliyin və xalqın gələcəyinin təmin edilməsi baxımından strateji əhəmiyyət daşıdığını diqqətə çatdırıb.

Prezident İlham Əliyevin diqqətə çatdırdığı kimi, biz böyük xalqıq, 10 milyondan çoxu ancaq müstəqil Azərbaycanda yaşayır, amma dünyada 50 milyondan çox azərbaycanlı yaşayır.

Dilimiz yalnız Azərbaycan vətəndaşlarının deyil, dünyanın hər guşəsində yaşayan azərbaycanlıların müqəddəs sərvətidir. Bu dil bizim üçün təkcə ünsiyyət vasitəsi deyil, eyni zamanda milli ruhumuzun, tariximizin və kimliyimizin daşıyıcısıdır. Onu qorumaq, yaşatmaq və gələcək nəsillərə çatdırmaq həm xalqımızın birliyini möhkəmləndirir, həm də dövlətimizin sabahına işıq salır.

Yerli televiziya kanallarına müsahibəsində Prezident İlham Əliyev vurğulayıb ki, bizim dilimiz böyük xalqın dilidir, bunu heç vaxt unutmamalıyıq və bizim dilimiz heç bir dilin kölgəsində ola bilməz. Dövlət başçısı dilimizin üstünlüklərini belə ifadə edib: "Çox zəngin, çox melodik və gözəldir, təkcə ona görə yox ki, bu, bizim dilimizdir. Mən bir çox həmkarlarımdan, bir çox insanlardan eşitmişəm ki, doğrudan da, çox zəngin və gözəl dildir. Mən düşünürəm və əminəm ki, Azərbaycan xalqı bu fikirləri tamamilə bölüşür".

Tarixin ayrı-ayrı dövrlərində, müstəmləkəçilik illərində Azərbaycan xalqı bütün qadağalara, məhrumiyyətlərə rəğmən öz ana dilini qorumağı bacarıb. Bu gün isə bu dil müstəqil Azərbaycanın dövlət dilidir. "Əgər biz müstəmləkəçilik illərində dilimizi qoruya bilmişiksə və bizim əcdadlarımız onu bizə əmanət veriblərsə, necə ola bilər ki, biz bu gün bu dilimizi qorumayaq?". Dövlət başçısının bu sualı düşündürücü olduğu qədər də hər bir azərbaycanlıya öz məsuliyyətini xatırladır.

Prezident İlham Əliyevin müsahibəsində diqqətə çatdırdığı bu fikirlər vəzifələrimizi xatırlatmaqla yanaşı, eyni zamanda dilimizi yad ünsürlərdən qorumaq üçün bizi ayıq-sayıq olmağa səsləyir: "Bəzən bilərəkdən, bəzən bilməyərəkdən dilimizə daxil olan xarici kəlmələr - onlar dilimizi zənginləşdirmir və o kəlmələri istifadə edənləri daha ağıllı etmir. Çox dil bilmək yaxşıdır, mən də onun tərəfdarıyam. Amma sən xarici dillərdə lazım olan vaxtda danış. Biz öz dilimizi qorumalıyıq. Xarici kəlmələr dilimizi pozur, zənginləşdirmir və milli kimliyimizi də sarsıdır, damcı-damcı, yavaş-yavaş. Bəlkə də özümüz heç buna fikir vermirik, damcı-damcı sarsıdır. Dil əldən gedəndən sonra, yaxud da ki, pozulandan sonra, ya da başqa dilə tamamilə uyğunlaşandan sonra onda milli kimlik də gedəcək, ondan sonra dövlətçilik də gedəcək, ondan sonra, Allah eləməsin, ölkəmiz də, necə deyərlər, böyük fəlakətlə üzləşə bilər. Ona görə Azərbaycan dilini qorumaq hər birimizin vəzifəsidir".

Prezident İlham Əliyev bildirib ki, biz Azərbaycan dilini qorumalıyıq və Azərbaycan dilinin qoruyucusu Azərbaycan dövlətidir.

Dövlət başçısı xaricdə yaşayan azərbaycanlıların da Azərbaycan dilini mükəmməl bilmələrinə böyük ehtiyac olduğunu vurğulayıb. Azərbaycanlıların yaşadıqları bəzi ölkələrdə Azərbaycan məktəblərinin olmadığını diqqətə çatdıraraq bildirib ki, bu, böyük ədalətsizlikdir və bu ədalətsizliyə son qoyulmalıdır: "Biz imkan daxilində təsir etməyə çalışırıq, amma imkanlarımız da çox geniş deyil. Bunun üçün də mənim göstərişimlə artıq onlayn məktəblər açılır və onların sayı da çoxalmalıdır, əhatə dairəsi çoxalmalıdır. Azərbaycanlıların yaşadıqları bütün yerlərdə onlayn Azərbaycan dili məktəbləri olmalıdır ki, bizim uşaqlarımız öz ana dillərini bilsinlər".

Medianın əsas vəzifələrindən biri dilimizin təmizliyini və düzgün istifadəsini təmin etməkdir. Televiziya, radio, qəzet və onlayn media vasitələri efirdə və yazılı mətndə xarici sözlərin həddindən artıq istifadəsinə yol verməməli, Azərbaycan dilinin zəngin leksikasını və ədəbi normalarını qorumağa xidmət etməlidir. Medianın təqdim etdiyi materiallar ictimai tərbiyə, informasiya mənbəyi olduğundan, dilin düzgün istifadəsi milli kimliyimizin möhkəmlənməsində əhəmiyyətli rol oynayır. Təəssüf ki, bu gün bir sıra televiziya və radiolar bu mühüm amili nəzərə almır.

Prezident İlham Əliyev qeyd etdi ki, burada jurnalistlərdən çox şey asılıdır: "Çünki, necə deyərlər, efir məkanında ən çox danışan jurnalistlərdir və onlardan da xahiş edirəm, xarici kəlmələrdən istifadə etməsinlər". Dövlət başçısı ziyalılarımızın, şairlərimizin, yazıçılarımızın da sözünə böyük ehtiyac olduğunu vurğulayıb.

Qeyd etdiyimiz kimi, dövlət başçısı yerli televiziya kanallarına müsahibəsində dilimizlə bağlı bütün vacib məqamlara toxunub. Bu müsahibə hər bir azərbaycanlının diqqətinə çatdırıb ki, Azərbaycan dili xalqımızın kimliyini, mədəniyyətini və tarixi yaddaşını qoruyan əsas amildir. Onun təmizliyi və zənginliyi yalnız dövlətin deyil, hər bir vətəndaşın vəzifəsidir. Ana dilimizi qorumaqla biz həm milli ruhumuzu möhkəmləndirir, həm də gələcək nəsillərə öz dəyərlərimizi, adət-ənənələrimizi çatdırırıq. Xarici kəlmələrdən uzaq olaraq Azərbaycan dilini düzgün və zəngin ifadələrlə istifadə etmək hər birimizin məsuliyyətidir.

*Zöhrə FƏRƏCOVA,*
*"Azərbaycan"*

● İncəsənət xadimləri

## Daşlara ömür bəxş edib

### Heykəltaraş Akif Əsgərovun yaradıcılıq yolu

**Onun müəllifi olduğu monumental heykəllər ölkəmizlə yanaşı, bir sıra xarici dövlətlərdə də ucaldılıb. O, həmçinin maraqlı dəzgah heykəltaraşlığı nümunələrinin müəllifidir. Əsərlərinin qəhrəmanları sırasında tanınmış mədəniyyət adamlarının, ictimai siyasi xadimlərin diqqəti cəlb edən bədii obrazlarını görmək olar. Bundan başqa, heykəltaraşın ömrü boyu sadiq qaldığı və sevə-sevə yaratdığı balerinaların surətləri gözdən yayınmır. Söhbət 85 illik yubileyi tamam olan Xalq rəssamı, tanınmış heykəltaraş Akif Əsgərovdan (1940-2023) gedir.**





Akif İzzətulla oğlu Əsgərov Naxçıvan şəhərində anadan olmuşdur. Əvvəlcə Ə.Əzimzadə adına Azərbaycan Dövlət Rəssamlıq Texnikumunda, daha sonra isə İ.Repin adına indiki Sankt-Peterburq Boyakarlıq, Heykəltaraşlıq və Memarlıq İnstitutunda professor M.K.Anikuşinin sinfində ali təhsilini davam etdirmişdir. A.Əsgərov hələ tələbəlik illərində öz istedadı ilə fərqlənmişdir. Sənətkarın müəllifi olduğu "Su içərkən" adlı heykəltaraşlıq kompozisiyası 1978-ci ildə Rusiya Rəssamlıq Akademiyasının diplomu ilə mükafatlandırılmışdır. Bu, gənc heykəltaraşın istedadından xəbər verirdi. Onun əsərləri Azərbaycan Milli İncəsənət Muzeyində, Azərbaycan Dövlət Rəsm Qalereyasında, eləcə də digər xarici ölkələrin muzeylərində və şəxsi kolleksiyalarda saxlanılır. A.Əsgərov ölkəmizin Əməkdar incəsənət xadimi (2002), Xalq rəssamı (2018) fəxri adlarına və 2-ci dərəcəli "Əmək" ordeninə (2020) layiq görülmüşdür.

Tanınmış sənətkarın monumental heykəltaraşlıq əsərləri obrazın bədii ifadə həllinin ustalığı ilə diqqət çəkir. Heykəltaraşın belə işlərindən Bakı şəhərində yerləşən "Akademik Yusif Məmmədəliyevin heykəli" (tunc, qranit, 1998), "Vokal ifaçısı Bülbülün heykəli" (tunc, qranit, 2013), heykəltaraşın həmmüəllifliyi ilə Ulu Öndər Heydər Əliyevin heykəlləri ölkəmizin Bakı, Şamaxı, Xaçmaz, Quba, Balakən, Zaqatala şəhərlərində və Türkiyə, Gürcüstan (2004-2012-ci illər), "Xocalı" (2011, Berlin), "Dostluq" (2012, Qnezdo), Əlimərdan bəy Topçubaşovun Parisdə qəbirüstü abidəsi və başqaları nümunə gətirilə bilər. A.Əsgərovun bir sıra heykəl əsərləri Xalq rəssamı, professor Salxab Məmmədovun birgə həmmüəllifliyi ilə yaradılıb.

Azərbaycan Milli Elmlər Akademiyasının prezidenti olmuş akademik, kimya elminin zirvəsinə yüksələn Yusif Məmmədəliyevin heykəl abidəsində üz cizgilərinin ciddiliyi və obrazın statikliyi ilə, vokal ifaçısı, məşhur mü-



ğənni Bülbülün obrazı isə öz lirikliyi və emosional ifadəliliyi ilə diqqətimizi cəlb edir.

Akif Əsgərovun dəzgah heykəltaraşlığı əsərləri özünün bədii ifadə həlli və emosional təsir gücü ilə fərqlənir. Heykəltaraşın belə işlərindən "Avtoportret", "Məmməd Səid Ordubadi", "Hüseyn Cavid", "Bahar", "Özündən razı", "Yarıçılpaq", "Balerina", "Kompozisiya", "Model", "Fasilə" adlı əsərlərini qeyd etmək olar.

Heykəltaraşın süjetli dəzgah heykəltaraşlığı nümunələri maraqlı kompozisiya quruluşu və orijinal bədii həlli ilə yadda qalır. Bu sırada "Məhsəti məclisi", "Aleksandr Düma və Natəvan", "Ailə", "Ştillər", "Uşaqlar və göyərçinlər", "Yaşlı insanlar", "Nərd oyunu", "Axşam" və başqalarını göstərmək olar. Süjetli kompozisiyalarda həm tarixi, həm əmək və həm də adi həyat səhnələrini özündə yaşadan mövzular heykəltaraş tərəfindən bədii görüntüyə gətirilmişdir. Bu əsərlərdə insan həyatının müxtəlif anları, yaşantıları ustalıqla canlandırılmışdır. Bu mənada Akif Əsgərovun əsərlərini heykəltaraşlıq sənətimizin impressionist (təəssürat) üslublu nümunələri adlandıra bilərik.

Ötən il mayın 2-də Azərbaycan Milli İncəsənət Muzeyində Xalq rəssamı, heykəltaraş Akif Əsgərovun 85 illik yubileyinə həsr olunmuş "Ruhun sədası" adlı fərdi sərgisi təşkil olunmuşdu. Təntənəli açılış mərasiminə ictimaiyyət nümayəndələri və mədəniyyət xadimləri, heykəltaraşın sənət dostları qatılmışdılar. Sərgi Azərbaycan Respublikası Mədəniyyət Nazirliyi və Azərbaycan Milli İncəsənət Muzeyinin birgə təşkilatçılığı ilə təşkil olunmuşdu. Sərgidə 60-dək dəzgah heykəltaraşlığı nümunəsi, eləcə də qrafik rəsmlər yer almışdır.

Bundan başqa, ötən il Naxçıvan televiziyası tərəfindən heykəltaraşın həyat və yaradıcılığından bəhs edən "İmza: Akif Əsgərov" adlı sənədli televiziya filmi çəkilmişdir.




Xalq rəssamı Akif Əsgərovun heykəltaraşlıq və dəzgah əsərləri bütün ictimaiyyət və sənətsevərlər tərəfindən rəğbətlə qarşılanır.

*Əsəd QULİYEV,*
*sənətşünas, Azərbaycan Rəssamlar İttifaqının üzvü*

● Milli-mədəni irsimiz

## Qərbi Azərbaycandakı tarixi abidələrimiz haray çəkir

**Dini abidələr, qədim tikililər, qəsrlər, qalalar, kitabələr xalqların özlərindən sonra tarix səhifəsində qoyduğu pozulmayan izlərdir. Başqa sözlə desək, xalqların kimliyidir, dünənidir, şərəfli keçmişidir. Bu abidələri dağıtmaq xalqların mədəni irsini məhv etmək, onu tarixin səhifəsindən silmək deməkdir. Təəssüflər olsun ki, iki əsrdən artıqdır ermənilər uzun illər Ermənistan ərazisində yaşamış azərbaycanlıların bu yerlərin tarixi və əzəli sakinləri olduğunu sübut edən izlərini Yer üzündən birdəfəlik silmək üçün məqsədli şəkildə vandallıq aktları törədirlər.**

1988-ci ildə Ermənistanda soydaşlarımıza qarşı həyata keçirilən sonuncu etnik təmizləmə nəticəsində on minlərlə azərbaycanlı ailəsinin əmlakı və mədəni irs nümunələri ermənilər tərəfindən qarət edilmiş, mənimsənilmiş və ya vəhşicəsinə dağıdılmışdır. Abidələri dağıtmaqla kifayətlənməyən vandallar zaman-zaman Qərbi Azərbaycanın qədim toponimlərini də erməni adları ilə əvəz etmişdilər. Erməni vandalizmi təkcə mədəniyyət abidələrini məhv etməklə kifayətlənmir. Ermənilər həm də tarixi saxtalaşdırırlar. Onlar abidələrin tarixini dəyişərək, restavrasiya adı ilə qədimliyinə zərbə vururlar, bir çoxunu öz adlarına çıxarırlar. Bu addımları ilə düzəliş qəbul etməyən tarixə düzəliş etməyə çalışırlar. İndiyə qədər Ermənistan ərazisində xalqımıza məxsus olmuş onlarca tarixi abidə qəddarlıqla dağıdılaraq tamamilə Yer üzündən silinmiş və yaxud da erməniləşdirilmişdir.

Ermənistan hökumətinin apardığı məqsədyönlü siyasət nəticəsində qədim tarixi torpaqlarımız olan Qərbi Azərbaycan ərazilərində bir çox abidə, Göy məscid, Qala məscidi, Şah Abbas məscidi də daxil olmaqla 300-dən çox məscid və monumental abidə məhv edilmişdir. Bununla da UNESCO-nun konvensiyaları kobud şəkildə pozulmuşdur. Bütün dağıntılardan, vandal hərəkətlərdən yaranan qənaət odur ki, erməni vəhşiliyi heç bir sərhəd tanımır, heç bir beynəlxalq qanun və konvensiyalara məhəl qoymur. Bu vandalizm aktları yalnız tarixi abidələrin və yazıların məhvi deyil, həm də bir xalqın tarixi yaddaşının və mədəni irsinin silinməsinə yönəlmiş məqsədli çirkin siyasətdir. Buna görə də Ermənistanda Azərbaycan mədəni irsinin qorunması üçün Qərbi Azərbaycan İcması beynəlxalq səviyyədə zəruri işlər aparır. Ermənilərin abidələrimizə qarşı atdıqları bu dağıdıcı vandalizm əməlləri müntəzəm olaraq dünya ictimaiyyətinin diqqətinə çatdırılır.

İkinci Qarabağ müharibəsində qazanılmış Zəfərdən sonra Ermənistanda Azərbaycan mədəni irsinin qorunması Ermənistan-Azərbaycan yaxınlaşması fonunda vacib olan məsələyə çevrilmişdir. Həm beynəlxalq, həm də yerli ekspertlər ümid edirlər ki, Ermənistanda Azərbaycan irsinin qorunması və bərpası iki millət arasında etimadın qurulmasına və etibarlı sülhün təmin olunmasına təkan verəcək.

Ötən il Bakıda Qərbi Azərbaycan İcmasının təşkilatçılığı ilə "Mədəni irs və qayıdış hüququ: Ermənistandan didərgin salınmış azərbaycanlıların mədəni irsinin bərpası - ədalətə, barışığa və sülhə aparan yol kimi" mövzusunda ənənəvi III beynəlxalq konfrans keçirilib. Konfransda dünyanın 60-dan çox ölkəsini təmsil edən 100-ə yaxın qonaq, Azərbaycandan 100-dən çox ekspert, alim, ictimai xadim və dövlət rəsmiləri, Milli Məclisin deputatları iştirak ediblər. Beynəlxalq konfransda Prezident İlham Əliyevin iştirakçılara müraciəti oxunub.

Prezident İlham Əliyev müraciətində bildirib ki, qədim dövlətçilik və mədəniyyət tarixinə malik Azərbaycan xalqı son iki əsrdə dəfələrlə məhrumiyyətlər, deportasiyalar və soyqırımları ilə üz-üzə qalmış, ermənilərin Azərbaycanın əzəli torpaqlarına köçürülməsindən sonra - 1905-1907-ci, 1918-1921-ci, 1948-1953-cü və 1987-1991-ci illərdə azərbaycanlılara qarşı törədilən qırğınlar və qanunsuz köçürmələr nəticəsində yüz minlərlə soydaşımız öz doğma yurdunu tərk edərək Azərbaycana sığınmışdır: "Ermənistan ərazisində yaşayan azərbaycanlıların dağlıq bölgələrdən daha isti iqlimi olan yerlərə zorla köçürülməsi, onların illərlə qurub-yaratdıqları mülkiyyətin mənimsənilməsi, maddi-mədəniyyət nümunələrinin ələ keçirilərək dağıdılması və özgəninkiləşdirilməsi bu gün mötəbər sənədlərlə sübuta yetirilən tarixi faktlardır".

Dövlət başçımızın müraciətində qeyd olunub ki, Ermənistan tarixən Qərbi Azərbaycanda yaşamış azərbaycanlıların zəngin maddi və qeyri-maddi mədəni irsini, müqəddəs inanc yerlərini, qəbiristanlıqlarını öz ərazisindən Azərbaycan xalqının izlərini silmək məqsədilə zaman-zaman məhv etmişdir. Ermənilərin azərbaycanlılara qarşı insanlıq əleyhinə cinayətlərinin beynəlxalq hüquq müstəvisində qiymətləndirilməsi üçün lazımi addımlar atılması və beynəlxalq ictimaiyyətin bu məsələdə bizə dəstəyi olduqca əhəmiyyətlidir: "Bu gün Ermənistandan zorla çıxarılmış azərbaycanlıların qayıdışının Ümumdünya İnsan Hüquqları Bəyannaməsində, Mülki və Siyasi Hüquqlar haqqında Beynəlxalq Paktda, Qaçqınların statusu haqqında Konvensiyada və digər mühüm beynəlxalq aktlarda təsbit olunmuş geriyə qayıdış hüququ çərçivəsində təmin edilməsi, eləcə də mədəni irsin bərpası və qorunması ilə bağlı beynəlxalq ictimaiyyətin, o cümlədən BMT-nin ixtisaslaşmış qurumlarının iştirakı ilə prosesin başladılması üçün səylərin artırılması vacibdir. Çünki qayıdış hüququ insan hüquqlarının təməl prinsiplərindən biridir. Bu hüququn təmin edilməsi təkcə doğma yurda fiziki dönüş deyil, həm də toplumun mənəvi bütövlüyünün, mədəni irsinin və tarixi yaddaşının bərpası deməkdir".

Prezident İlham Əliyevin konfrans iştirakçılarına müraciətində o da vurğulanıb ki, deportasiya və qırğınlardan birbaşa əziyyət çəkən insanları özündə birləşdirən Qərbi Azərbaycan İcmasının təmkinli, konstruktiv yanaşması, barışıq və dialoqa açıq olması, öz fəaliyyətini beynəlxalq hüquqa uyğun qurması, dövlətlərin ərazi bütövlüyünə və suverenliyinə hörmət etməsi təqdir olunmalıdır: "2025-ci il avqustun 8-də Vaşinqtonda Amerika Birləşmiş Ştatlarının vasitəçiliyi ilə Azərbaycan və Ermənistanın bir araya gəlməsi, Birgə Bəyannamənin imzalanması və sülh sazişi layihəsinin paraflanması hər iki xalqın gələcək birgəyaşayışının təmin olunması üçün ümid və inam yaradır".

Son zamanlar Ermənistandakı Azərbaycan mədəni irsinin məhv edilməsinə beynəlxalq ictimaiyyət tərəfindən müəyyən reaksiyaların müşahidə olunması insanlarda nikbinlik yaradır. Ümid etmək olar ki, bu mövzuda beynəlxalq konfransların keçirilməsi ermənilərin Azərbaycan mədəni irsinə qarşı olan dağıdıcı əməllərini dayandıracaq.

*Vahid MƏHƏRRƏMOV,*
*"Azərbaycan"*

# *Baş Prokurorluq:* AMEA-nın vəzifəli şəxslərinin qanunsuz əməlləri barədə cinayət işi məhkəməyə göndərilib

**Azərbaycan Milli Elmlər Akademiyasının (AMEA) Lənkəran Regional Elmi Mərkəzinin vəzifəli şəxslərinin qanunsuz hərəkətləri barədə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində başlanmış cinayət işinin ibtidai istintaqı yekunlaşdırılıb.**




Baş Prokurorluğun Mətbuat xidmətindən AZƏRTAC-a verilən məlumata görə, ibtidai istintaq nəticəsində həmin mərkəzin direktoru Mehman Əliyevin baş mühasib Hasil Əskərov və ümumi işlər üzrə direktor müavini Namik Qasımov ilə cinayət əlaqəsinə girərək, vəzifə səlahiyyətlərindən sui-istifadə etməklə vətəndaş Mehman Qəribovun köməkliyi ilə rəsmi sənədlərə bilə-bilə yalan məlumatlar daxil etməklə 2023-cü ilin noyabr ayından 2025-ci ilin iyun ayınadək əmək funksiyalarını faktiki olaraq icra etməyən şəxslərə əməkhaqqının ödənilməsi, qeyri-yaşayış sahəsinin icarəyə götürülməsi, işlərin yerinə yetirilməsi və xidmətlərin göstərilməsi adı ilə dövlət büdcəsinin vəsaitinin nağdlaşdırılmasına nail olmaqla onlara etibar edilmiş külli miqdarda pul vəsaitini mənimsəmə və israfetmə yolu ilə talamalarına əsaslı şübhələr müəyyən edilib.

Toplanılmış sübutlar əsasında Mehman Əliyev və Hasil Əskərova müvafiq olaraq Cinayət Məcəlləsinin 179.3.2 (külli miqdarda mənimsəmə və ya israfetmə), 308.1 (vəzifə səlahiyyətlərində sui-istifadə etmə), Namik Qasımova həmin Məcəllənin 179.2.1, 179.2.3, 179.2.4, Mehman Qəribova isə həmin Məcəllənin 32.5, 179.2.1, 32.5, 179.2.3, 32.5, 179.2.4 və digər maddələri ilə ittiham elan edilməklə barələrində polisin nəzarəti altına vermə növündə əsas, Mehman Əliyev və Namik Qasımov barəsində iş üzrə ibtidai istintaqı aparan müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə vəzifədən kənarlaşdırma növündə əlavə qətimkan tədbiri seçilib.

Cinayət işi baxılması üçün aidiyyəti üzrə Lənkəran Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

## OXUCULARIN VƏ MƏTBUAT YAYIMI TƏŞKİLATLARININ NƏZƏRİNƏ!

**"AZƏRBAYCAN"** *qəzetinə abunə yazılışı davam edir!*

**Abunə respublikanın bütün poçt şöbələri tərəfindən aparılır. Eyni zamanda aşağıda göstərilən mətbuatyayımı qurumlarına müraciət edə bilərsiniz:**

| | |
|---|---|
| *"Azərpoçt" MMC* | (012) 598-49-55, (051) 225-02-13 |
| *"Azərmətbuatyayımı" ASC* | (012) 441-19-91, (050) 322-33-17 |
| *"Qaya" firması* | (012) 566-77-80, (050) 214-40-53 |
| *"Region Press" MMC* | (055) 316-79-01, (050) 316-79-01 |
| *"Səma-M" MMC* | (012) 594-09-59 |
| *"Ziya" LTD* | (012) 497-76-96, (050) 306-77-22 |
| *"Pressinform" MMC* | (012) 598-49-52, (070) 340-01-00 |
| *"City press" MMC* | (055) 819-09-26 |

**1 illik -156** (yüz əlli altı) **manat**
**6 aylıq - 78** (yetmiş səkkiz) **manat**
**3 aylıq - 39** (otuz doqquz) **manat**
**1 aylıq - 13** (on üç) **manat**


RƏSMİ DÖVLƏT QƏZETİ
AZƏRBAYCAN
№ 2 (10022) 7 yanvar 2026-cı il ÇƏRŞƏNBƏ — AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI — QƏZETİN ƏSASI 1918-Cİ İLDƏ QOYULMUŞDUR
Azərbaycan dövlətçiliyinin konseptual inkişaf xəritəsi
Bu xəritədə hərbi güc diplomatiya ilə, iqtisadi inkişaf sosial ədalətlə, milli birlik qlobal mövqe ilə uzlaşdırılır
Azərbaycan ilə İordaniya arasında 2025-2027-ci illər üçün İcraedici Əməkdaşlıq Proqramı təsdiqlənib
Birinci vitse-prezident Mehriban Əliyeva Milad bayramı ilə bağlı paylaşım edib
Azərbaycanın strateji mövqeyi: D-8-dən Mərkəzi Asiyaya
İlham ƏLİYEV: "Bizim rolumuz artıq böyük layihələri icra edə bilən ölkə kimi artacaq"
ABŞ-Azərbaycan əlaqələrində tarixi mərhələ

## Hörmətli oxucular!

*Abunə ilə bağlı hər hansı bir problemlə üzləşsəniz, redaksiyaya **(Tel.: (012) 539-59-33)** zəng vura bilərsiniz.*

## BİLDİRİŞ

Azərbaycan Respublikası Ekologiya və Təbii Sərvətlər Nazirliyinin 30 dekabr 2025-ci il tarixli 1167/ü nömrəli Əmri ilə COP29 Azərbaycan Əməliyyat Şirkəti ləğv edilmiş və ləğvetmə komissiyası yaradılmışdır. Ləğv olunmuş COP29 Azərbaycan Əməliyyat Şirkətinin kreditor borcları ilə əlaqədar iddialar 2 (iki) ay müddətində ləğvetmə komissiyasına təqdim edilməlidir. Göstərilən müddətdən sonra iddialara baxılmayacaqdır.

**Ünvan: K.Kazımzadə, 100 a**
**Telefon: (010) 2520145**

***Ləğvetmə komissiyası***

**BEYNƏLXALQ HƏYAT**

# ABŞ və "İstəklilər koalisiyası"nın "Paris Bəyannaməsi"

**Fransa və Böyük Britaniya Rusiya ilə müharibənin bitməsindən sonra sülhü təmin etmək üçün Ukraynaya qoşun göndərmək niyyətində olduqlarını bildiriblər. Sülhməramlı kontingentin yerləşdirilməsini nəzərdə tutan müqaviləni Parisdə keçirilən "İstəklilər koalisiyası" adlanan sammitdə iştirak edən Fransa Prezidenti Emmanuel Makron, Böyük Britaniyanın Baş naziri Kir Starmer və Ukrayna Prezidenti Volodimir Zelenski imzalayıblar.**



ABŞ Prezidentinin xüsusi elçiləri Stiv Uitkoff və Cared Kuşner də daxil olmaqla sammit iştirakçıları Ukraynaya təhlükəsizlik zəmanətləri vermək niyyətlərini ifadə edən "Paris Bəyannaməsi"nə də imza atıblar.

Danışıqlarda təxminən 30 ölkədən nümayəndələr, o cümlədən Böyük Britaniyanın Baş naziri Kir Starmer, Polşanın Baş naziri Donald Tusk, Avropa Komissiyasının prezidenti Ursula fon der Lyayen, NATO-nun Baş katibi Mark Rutte və digərləri iştirak ediblər.

Paris sammiti Amerika lideri Donald Tramp və Volodimir Zelenski arasında yeni ildən əvvəl ABŞ Prezidentinin Florida ştatındakı Mar-a-Laqo iqamətgahında keçirilmiş danışıqlardan qısa müddət sonra təşkil olunub. D.Tramp və V.Zelenski əvvəlcə Vaşinqton tərəfindən hazırlanmış və bir neçə beynəlxalq sammit zamanı dəfələrlə düzəliş edilmiş Ukraynadakı müharibəyə son qoymaq planını müzakirə ediblər.

Floridadakı görüşdən sonra iştirakçılar Ukrayna üçün ABŞ-nin təhlükəsizlik zəmanətləri barədə razılığa gəldiklərini açıqlayıblar. Lakin əsas məsələ - Rusiyanın Ukrayna qoşunlarının Donetsk bölgəsinin Kiyev tərəfindən nəzarət edilən hissəsindən çıxarılması tələbləri həll olunmamış qalıb. V.Zelenski sülh planının 90 faizinin razılaşdırıldığını bildirib, eyni zamanda ən böyük fikir ayrılığının ərazi məsələləri ilə bağlı qaldığını etiraf edib.

Zirvə görüşünün əsas nəticəsi mətni Yelisey Sarayının veb-saytında dərc olunmuş "Paris Bəyannaməsi" olub. Bu sənəd 5 bənddən ibarətdir: Amerika Birləşmiş Ştatları gələcək atəşkəsin monitorinqini əlaqələndirməlidir. Hər hansı bir pozuntuya cavab vermək və kimin məsuliyyət daşıdığını müəyyən etmək üçün xüsusi komissiya da yaradılacaq.

"İstəklilər koalisiyası"nın üzvləri Ukrayna Silahlı Qüvvələrini dəstəkləməyə davam etmək qərarına gəliblər ki, bu da Rusiyanın gələcək təcavüzünə qarşı "ilk müdafiə xətti"nə çevrilməlidir. Buraya Ukrayna Silahlı Qüvvələrinin maliyyələşdirilməsi, silah təchizatı və istehkamların inşasına kömək daxil olmalıdır.

"İstəklilər koalisiyası"nın üzvlərindən ibarət çoxmillətli qüvvələrin Ukraynaya yerləşdirilməsi Ukrayna ordusunun yenidən qurulmasına və Rusiyanı yeni hücumlardan çəkindirməyə kömək edəcəkdir. Sənəddə deyilir: "Hava, dəniz və quru təhlükəsizliyi tədbirlərinə hazırlıq və Ukrayna Silahlı Qüvvələrinin yenidən qurulması üçün əlaqələndirilmiş hərbi planlaşdırma aparılıb". Bu qüvvələr yalnız Ukraynadakı hərbi əməliyyatlar bitdikdən sonra yerləşdiriləcək və onlara ABŞ tərəfindən kömək oluna bilər.

Sülhü bərpa etməkdən ötrü gələcəkdə Rusiyanın hücumu halında Ukraynanı dəstəkləmək üçün hüquqi cəhətdən məcburi öhdəlik: bu bənddə deyilir ki, imza atan ölkələr gələcəkdə "hərbi imkanlardan istifadə, kəşfiyyat, logistika dəstəyi, diplomatik təşəbbüslər və əlavə sanksiyaların tətbiqi" daxil ola biləcək bu cür məsələləri tam razılaşdıracaqlar.

Ukrayna ilə uzunmüddətli müdafiə əməkdaşlığını inkişaf etdirmək öhdəliyi isə hərbi təlim, birgə silah istehsalı və kəşfiyyat əməkdaşlığını əhatə edəcək.

Bundan əlavə, Fransa, Birləşmiş Krallıq və Ukrayna üçtərəfli bəyannamə imzalayıblar və burada Paris və London müharibə bitərsə, Ukrayna ərazisinə qoşun göndərməyə hazır olduqlarını bildiriblər.

Böyük Britaniyanın Baş naziri Kir Starmer izah edib ki, bu sənəd Britaniya, Fransa və tərəfdaş qüvvələrin Ukrayna ərazisindəki hərəkətlərinin hüquqi əsaslandırılması üçün yol açır: "Onlar Ukrayna səmasının və dənizlərinin təhlükəsizliyini təmin edəcək və Ukrayna Silahlı Qüvvələrini gələcək üçün yenidən quracaqlar. Onu da deyə bilərəm ki, atəşkəsdən sonra Böyük Britaniya və Fransa Ukraynada hərbi mərkəzlər yaradacaq və Ukraynanın müdafiə ehtiyaclarını ödəmək üçün silah və hərbi texnika üçün təhlükəsiz obyektlər tikəcəklər".

Son mətbuat konfransı zamanı Ukrayna və Fransa prezidentləri, Böyük Britaniyanın Baş naziri və Almaniya Kansleri, eləcə də ABŞ Prezidentinin xüsusi nümayəndələri tədbiri sülhə doğru mühüm addım kimi xarakterizə ediblər.

Zirvə toplantısını təşkil edən E. Makron bildirib ki, "İstəklilər koalisiyası"nın üzvləri ABŞ-nin köməyi ilə Ukraynaya hüquqi cəhətdən məcburi təhlükəsizlik zəmanətləri verməlidirlər: "Bu o deməkdir ki, sülh müqaviləsi heç vaxt Ukrayna üçün yeni bir təhlükəyə səbəb olmayacaq". Fransa lideri həmçinin Rusiyanın keçmişdə Gürcüstan, Moldova və Ukrayna ilə sülh müqavilələrini dəfələrlə pozduğunu xatırladıb.

Volodimir Zelenski atəşkəsin əsas maneəsi olan ərazi məsələsinin həll olunmamış qaldığını etiraf edib. O, Ukraynanın ABŞ ilə təhlükəsizlik zəmanəti müqavilələri imzalamağa hazır olduğunu, lakin "hələ də suallar olduğunu" qeyd edib: "Hələ də həll edilməli olan ən böyük məsələlər ərazi məsələləridir".

D. Trampın xüsusi nümayəndəsi Stiv Uitkoff ABŞ Prezidentinin Ukraynada sülh yaratmaq istədiyi ilə bağlı iddiasını təkrarlayıb və "sülh prosesində vasitəçi olmaq" missiyasını elan edib. "Biz düşünürük ki, Ukraynadakı insanlar bilməlidir - təhlükəsizlik protokollarını əsasən tamamlamışıq və bu bitdikdə hər şey birdəfəlik qurtaracaq", - deyə Uitkoff bildirib.

# Bəzi yerlərdə arabir duman müşahidə ediləcək

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Milli Hidrometeorologiya Xidmətindən AZƏRTAC-a verilən məlumata görə, yanvarın 8-də Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən yağmursuz keçəcəyi gözlənilir. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Şimal-qərb küləyi əsəcək, səhər mülayim cənub-qərb küləyi ilə əvəzlənəcək. Havanın temperaturu gecə 2-4, gündüz 8-12 dərəcə isti olacaq. Atmosfer təzyiqi 765 millimetr civə sütunundan 761 millimetr civə sütununa enəcək. Nisbi rütubət gecə 80-90, gündüz 65-70 faiz təşkil edəcək.



Azərbaycanın rayonlarında havanın əsasən yağmursuz keçəcəyi proqnozlaşdırılır. Bəzi yerlərdə arabir duman olacaq. Mülayim qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 11-16 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 5-10 dərəcə isti olacağı ehtimal edilir.

Naxçıvan şəhərində, Culfa, Ordubad, Sədərək, Şahbuz və Şərurda hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 7-12 dərəcə şaxta, gündüz 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti olacaq.

Xankəndi şəhərində, Şuşa, Xocalı, Xocavənd, Füzuli, Ağdam, həmçinin Daşkəsən, Gədəbəy, Göygöldə hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5 dərəcə şaxta, gündüz 6-11 dərəcə isti olacağı proqnozlaşdırılır.

Şərqi Zəngəzur: Cəbrayıl, Kəlbəcər, Qubadlı, Laçın, Zəngilanda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 0-5 dərəcə isti, dağlıq ərazilərdə 5 dərəcəyədək şaxta, gündüz 5-10 dərəcə isti olacağı bildirilir.

Gəncə və Naftalan şəhərlərində, Qazax, Samux, Goranboy, Tərtər, Şəmkir, Tovuz rayonlarında hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 10-15 dərəcə isti olacağı ehtimal edilir.

Balakən, Zaqatala, Qax, Şəki, Oğuz, Qəbələ, İsmayıllı, Ağsu, Şamaxı, Siyəzən, Şabran, Xızı, Quba, Xaçmaz, Qusarda hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturunun gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 10-15 dərəcə isti, dağlarda gecə 0-5 dərəcə şaxta, gündüz 5-10 dərəcə isti olacağı ehtimalı var.

Mingəçevir və Şirvan şəhərlərində, Yevlax, Ağdaş, Kürdəmir, İmişli, Ağcabədi, Bərdə, Beyləqan, Sabirabad, Saatlı, Göyçay, Ucar, Hacıqabul, Zərdab, Salyan, Neftçalada hava əsasən yağmursuz keçəcək. Arabir duman olacaq. Qərb küləyi əsəcək. Havanın temperaturu gecə 1 dərəcə şaxtadan 4 dərəcəyədək isti, gündüz 11-16 dərəcə isti olacaq.

Masallı, Yardımlı, Lerik, Lənkəran, Astara, Biləsuvar, Cəlilabadda hava əsasən yağmursuz keçəcək. Arabir duman müşahidə ediləcək. Şimal-şərq küləyi əsəcək. Havanın temperaturunun gecə 3-5, gündüz 11-14, dağlarda gecə 3-6, gündüz 9-14 dərəcə isti olacağı gözlənilir.

# Oulu və Trençin 2026-cı ilin Avropa mədəniyyət paytaxtları olacaq

**Finlandiyanın Oulu və Slovakiyanın Trençin şəhərləri 2026-cı ilin Avropa mədəniyyət paytaxtları seçilib.**

Avropa Komissiyasının dəstəyi ilə bu iki şəhər il ərzində Aİ ölkələrinin zəngin mədəniyyətlərini nümayiş etdirən mədəni tədbirlərə, sərgilərə və tamaşalara evsahibliyi edəcək.

Ouluda mədəniyyət paytaxtı ilinin açılış mərasimi yanvarın 16-18-də keçiriləcək. Trençin isə fevralın 13-15-də açılış festivalına evsahibliyi edəcək.




Avropa Komissiyasının kommünikesində qeyd olunduğu kimi, "40 ildir ki, Avropa mədəniyyət paytaxtları təşəbbüsü Aİ şəhərlərinə mədəni müxtəlifliyi qeyd, icmaları mədəni proqramlara cəlb, habelə yerli və regional inkişafı təşviq etmək imkanı yaradıb".

***Rizvan CƏFƏROV,***
***"Azərbaycan"***

## ALLAH RƏHMƏT ELƏSİN!

Əmək və əhalinin sosial müdafiəsi nazirinin müavini Rəşad Mustafayev Azərbaycan Respublikası iqtisadiyyat nazirinin müavini Səməd Bəşirliyə əzizi

**MƏLƏK VƏKİLOVANIN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Namiq Süleymanov, Bəşir Səfərov, Qafar, Lazım və Rafiq Hüseynovlar, Eldar Təhməzov, Gülalı Eminəliyev və Eldar Əliyev

**RAFİQ MUSA OĞLU MƏMMƏDOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Namiq Süleymanov, Qafar, Lazım və Rafiq Hüseynovlar, İlham İbrahimov, Hacı Məmmədov, Eldar Təhməzov, Gülalı Eminəliyev və Eldar Əliyev

**MEHRİBAN SOVET QIZI BAYRAMOVANIN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
**Bəxtiyar SADIQOV**

**Əlaqə telefonları:**

| | | | |
|---|---|---|---|
| Qəbul otağı | - 539-68-71, | Beynəlxalq həyat, idman və informasiya şöbəsi | - 539-63-82, 432-37-68 |
| Baş redaktor müavinləri | - 538-86-86, 539-72-39 | Humanitar siyasət şöbəsi | - 538-56-60, 434-55-58 |
| Məsul katib | - 539-43-23, | İctimai əlaqələr şöbəsi | - 539-49-20, 538-31-11, |
| Məsul katib müavinləri | - 539-44-91, | Kompüter mərkəzi | - 538-20-87, |
| Parlament və siyasət şöbəsi | - 539-84-41, 539-21-00, | Mühasibatlıq | - 539-59-33 |
| İqtisadiyyat şöbəsi | - 538-42-32, 538-35-55, | | |

*AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, "Azərbaycan" nəşriyyatı, IV mərtəbə*

az.reklam@mail.ru




www.azerbaijan-news.az

Qeydiyyat № 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan Nəşriyyatı" MMC-nin mətbəəsində çap edilmişdir

Qəzetə dərc üçün göndərilən materiallar Azərbaycan dövlətinin mövqeyinə uyğun olmalıdır

Gündəlik rəsmi dövlət qəzeti

Tiraj 2733
Sifariş 3

Qiyməti 60 qəpik